

# Milli Məclis prezidentə və xalqa müraciət etdi

*Milli Məclis noyabrın 13-də keçirilən iclasında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Azərbaycan xalqına müraciət edib. "Unikal" xəbər verir ki, müraciəti Milli Məclisin deputat Nigar Arpadarai oxuyub. Müraciətdə deyilir: "Son 100 ildən artıq dövrdə Azərbaycan xalqı "böyük Ermənistan" yaratmaq xülyasına düşmüş erməni şovinist dairələrinin...*

Səh.3


# UNIKAL

№38 (2033) 14 noyabr 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




# Paşinyanın "Hitlervari sonluğu"




Səh.13

# 44 günlük Vətən Savaşının möhtəşəm sonu...

## Və ya gözlənilən bir fiaskonun tarixçəsi...

*Sentyabrın 27-də Ermənistanın cəbhədə törətdiyi növbəti təxribat Azərbaycan Ordusunun əks-həmlə əməliyyatına başlaması ilə nəticələndi. 44 gün davam edən bu əməliyyatla Silahlı Qüvvələrimiz şanlı tarix yazdı: işğaldakı torpaqların böyük bir qismi işğaldan azad edildi və düşmən kapitulyasiya sənədinə imza atmaq məcburiyyətində qaldı. Hazırda İrəvan böyük xaos və anarxiya içərisindədir: baş nazir Nikol Paşinyanın düşünülməmiş, populist davranışları onsuz da fəlakətin bir addımlığında olan Ermənistanı uçuruma yuvarlayıb və acı məğlubiyyət dadızdırıb, kütlə qəzəblidir, lakin artıq gecdir. Necə deyərlər, "qatar gedib" - işğal bitib...*

Səh.5

## "Biz ermənilərə görə heç bir qanunu dəyişən deyilik"



*Vətən Müharibəsi qələbə ilə başa çatandan sonra bölgəyə sülhməramlı qüvvələr yerləşdirilməyə başlayıb. Lakin sülhməramlı qüvvələrin əraziyə cəlb olunması birmənalı qarşılanmayıb. Milli Cəbhə Partiyasının sədri, millət vəkili Razi Nurullayevlə söhbətimiz də Azərbaycan Ordusunun qələbəsi...*

Səh.4

## Polad Bülbüloğluna "istefa yolu" göründü



*Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu növbəti dəfə, - üstəlik, bu dəfə də haqlı olaraq! - cəmiyyətin qınağına tuş gəlib. Onun Qarabağda ermənilərə mədəni muxtariyyət verilməsinin mümkünlüyü, Türkiyənin sülhməramlı prosesdə iştirakı barədə dedikləri ictimai rəyi qıcıqlandırıb.*

Səh.7

## Emin Əmrullayevdən böyük "təmizləmə"...



*Təhsil naziri Emin Əmirullayev bu sektorda ciddi islahatlara start verib. O, bir çox köhnə kadrlarla yolları ayırmaq yolunu tutub. Artıq ilk addımlar ortadadır. Təxminən yarım ay öncə məlum oldu ki, Mingəçevir Şəhər Təhsil Şöbəsinin müdiri Sahib Məmmədovun fəaliyyəti ilə bağlı Təhsil Nazirliyi...*

Səh.12

# Prezident dövlət qurumlarına tapşırıq verdi



***Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə, Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə, "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinə, "Azərişıq" Qapalı Səhmdar Cəmiyyətinə və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə tapşırılıb ki, infrastruktur obyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini təmin etsinlər və aradan qaldırılması üçün tələb olunan maliyyə vəsaiti barədə təkliflərini 2020-ci il dekabrın 1-dək Komissiyaya təqdim etmələri tapşırılıb.***

Unikal.org xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidentinin 2020-ci il 06 noyabr tarixli "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı"nda öz əksini tapıb.

# Azərbaycanda 1015 nəfər virusdan sağaldı - 22 nəfər öldü




***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1364 yeni yoluxma faktı qeydə alınıb, 1015 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 22 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 71580 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 53001 nəfər müalicə olunaraq sağalıb, 927 nəfər vəfat edib, aktiv xəstə sayı 17652 nəfərdir.

Ölkədə son sutka ərzində 9744, hazırkı dövrədək isə 1489382 test aparılıb.

# Parlamentdən Polad Bülbüloğlunun çıxışına reaksiya

## Vahid Əhmədov: "Elə bil Rusiyanın xarici işlər nazirini əvəz edir"

***"Azərbaycan 44 gün ərzində Vətən Müharibəsi aparıb. Artıq dünya mətbuatında dünya hərbi ekspertləri Azərbaycanın nailiyyəti barədə fikir mübadiləsi aparırlar".***

"Unikal" xəbər verir ki, bu fikirləri parlamentin iclasında çıxış edən deputat Vahid Əhmədov bildirib.

Deputat qeyd edib ki, üç dövlət başçısının imzaladığı bəyanatda Ermənistanın faktiki olaraq ərazilərdən çəkilməsi barədə məsələlər yer alıb: "Sənəddə Dağlıq Qarabağın statusunun olmaması çox əhəmiyyətlidir. Azərbaycanın Rusiyadakı səfiri hansısa statusdan danışır. Elə bil Rusiyanın xarici işlər nazirini əvəz edir. Bu insanlar özü istefa etməlidir. Bütün dövlət məmurları Prezidentin statusla bağlı çıxışını nəzərə almalıdır. Bu bəyanatda müsbət məqamlar çoxdur. 44 gündə bizimlə birlikdə olduğu üçün Türkiyəyə, Türkiyə Prezidentinə, Pakistana və yanımızda olan bütün ölkələrə, ölkə başçılarına təşəkkürümü bildirirəm".

# Milli Məclis Xocalının və Xocəvəndin bu kəndlərinin adını dəyişdirir

***Noyabrın 13-də Milli Məclisin Regional məsələlər komitəsinin növbəti iclası keçirilib.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a verilən məlumata görə, komitə sədri iclasın gündəliyi barədə məlumat verib.

Qeyd edilib ki, gündəliyə ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan "Azərbaycan Respublikasının Xocalı rayonunun Quşçubaba kəndinin Baharlı kəndi adlandırılması haqqında" və "Azərbaycan Respublikası Xocavənd rayonunun Tsakuri kəndinin Hünərli kəndi adlandırılması haqqında qanun layihələri" daxil edilib. Layihələrə əsasən, Azərbaycan Respublikasının Xocalı rayonunun Qarabulaq kənd inzibati ərazi dairəsi tərkibindəki Quşçubaba kəndi Baharlı kəndi



adlandırılır. Ölkəmizin Xocavənd rayonunun Çiraquz kənd inzibati ərazi dairəsi tərkibindəki Tsakuri kəndi Hünərli kəndi adlandırılır.

Qeyd edilib ki, Xocalı rayonu ərazisində yerləşən Quşçubaba kəndin adı dəyişdirilərək həm coğrafi baxımdan həm də Azərbaycan leksikonuna uyğun olaraq ölkə Prezidentinin təşəbbüsü ilə Baharlı adı verilib. Bu, Azərbaycanın zəfərini ifadə etmək baxımından böyük önəm daşıyır.

Komitə sədri Xocavənd rayonunun inzibati ərazisinə daxil olan Tsakuri kəndinin adı ilə bağlı bildirib ki, bu kənd qəhrəman ordumuz tərəfindən bu günlərdə işğaldan azad olunub. Dövlət başçısının təşəbbüsü ilə kəndin adı dəyişdirilərək ona Hünərli adı verilib. Bu ad Azərbaycan Ordusunun Vətən müharibəsində nümayiş etdirdiyi gücü, qüdrəti özündə əks etdirir.

Sonra deputatlar Məzahir Əfəndiyev və Tahir Rzayev müzakirə olunan məsələlərə münasibət bildirərək qeyd ediblər ki, kəndlərimizə verilən yeni adlar müasir dövrün reallıqlarının gələcək nəsillərə çatdırılması baxımından çox əhəmiyyətlidir.

İclasın sonunda qanun layihələri parlamentin plenar iclasına tövsiyə edilib.

# Komendant saatı nə vaxt ləğv olunacaq? - Açıqlama

***Sentyabrın 27-dən ölkəmizdə komendant saatı tətbiq olunur. Müharibənin bitməsinə baxmayaraq komendant saatı hələ ki ləğv olunmayıb.***

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyev Modern.az-ın komendant saatının nə zaman ləğv olunacağı barədə sualını cavablandırıb. Onun sözlərinə görə, Azərbaycanda hərbi vəziyyətin elan olunması hələ ki gündəmdə qalacaq: "Hərbi vəziyyətin ləğvi ilə bağlı qərar qəbul olunmayıb. Erməni işğalçıları hələ də bizim torpaqlarımızı tam tərk etməyiblər. Qərar qəbul olunduqdan sonra komendant saatının ləğvi ilə bağlı tədbir görüləcək. Müəyyən məsələdir ki, ermənilər qrafikə uyğun olaraq bizim ərazilərimizi tərk etməlidir".

A.Nağıyev bildirib ki, komendant saatı boş yerə tətbiq olunmayıb: "Ermənilər xisləti, niyyəti pis olan düşməndir. Onlar hər cür təxribat törətmək amalındadılar. Komendant saatının əsas məqsədi bu təhlükəni, bəlanı üzərimizdən sovuşdurmaq, təhdidin qarşısını almaqdır. Nə vaxt ki, təhdid məsələsi ortadan qalxacaq, o zaman komendant saatı ləğv ediləcək. Azərbaycan xalqı narazı deyil komendant saatının tətbiqindən, çünki hər kəs bilir ki, müharibədir və hər an hər şey ola bilər".



# Ceyhun Bayramov Vendi Mortonla danışdı

***2020-ci ilin 13 noyabr tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Böyük Britaniyanın Avropa Qonşuluğu və Amerika üzrə dövlət naziri Vendi Morton arasında telefon danışığı baş tutub.***

Xarici İşlər Nazirliyindən Unikal.org-a verilən məlumata görə, nazirlər bölgədəki cari vəziyyəti, 10 noyabr 2020-ci il tarixli tam atəşkəs və hərbi əməliyyatların dayandırılması ilə əlaqədar imzalanmış üçtərəfli bəyanat ətrafında fikir mübadiləsi aparıblar. BMT TŞ qətnamələri əsasında Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ətraf rayonlarından Ermənistan silahlı qüvvələrinin çıxarılması, məcburi köçkünlərin öz evlərinə geri qayıtması, humanitar xatakterli mübadilələrin həyata keçirilməsi və bütün kommunikasiyaların açılması kimi məsələlər müzakirə edilib.

Nazir Vendy Morton bölgədə atəşkəsi və bütün hərbi əməliyyatların dayandırılmasını elan edən üçtərəfli bəyanatın imzalanmasını alqışlayıb. O, razılaşmanın həyata keçirilməsinin vacibliyini vurğulayıb. Vendi Morton, həmçinin tərəflərin humanitar məsələlərə diqqət yetirməsinin mühüm olduğunu qeyd edib.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Yerevanda Paşinyanın istefası tələbi ilə aksiya keçirilir




***Ermənistan müxalifəti baş naziri Nikol Paşinyanın istefası tələbi ilə paytaxt Yerevanın mərkəzində aksiya keçirir.***

Unikal.org xəbər verir ki, məlumatı "RİA Novosti" yayıb. Bildirilib ki, Ermənistan müxalifətinin lideri, Çiçəklənən Ermənistan Partiyasının sədri, "Sarukyan" parlament fraksiyasının rəhbəri, milyonçu deputat Qaqik Sarukyan Xüsusi İstintaq Komitəsinə çağırılıb.

Mitinq təşkilatçıları Dağlıq Qarabağ üzrə üçtərəfli razılşamaya etiraz edirlər.

Qyed edək ki, noyabrın 10-da Rusiya prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan Dağlıq Qarabağda atəşkəslə bağlı bəyanat imzalayıb.

# Müharibə zamanı ermənilər kilsəyə də ziyan vurub



***"Ermənilərin hücumları nəticəsində ümumilikdə 3700 mülki obyektə ziyan dəyib".***

Unikal.org xəbər verir ki, bunu Nazirlər Kabinetinin Mətbuat Xidmətinin rəhbəri İbrahim Məmmədov müharibə zamanı ermənilərin Azərbaycan vətəndaşlarına vurduqları ziyanın qiymətləndirilməsinə həsr olunan mətbuat konfransında bildirib.

Onun sözlərinə görə, bu sırada yaşayış, iaşə, istehsal və s. mülki obyektlərlə yanaşı məscid, kilsələ və qəbristanlıq da var.

# Milli Məclis prezidentə və xalqa müraciət etdi

***Milli Məclis noyabrın 13-də keçirilən iclasında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Azərbaycan xalqına müraciət edib.***

"Unikal" xəbər verir ki, müraciəti Milli Məclisin deputat Nigar Arpadarai oxuyub.

Müraciətdə deyilir: "Son 100 ildən artıq dövrdə Azərbaycan xalqı "böyük Ermənistan" yaratmaq xülyasına düşmüş erməni şovinist dairələrinin etnik təmizləmə, soyqırım və işğalçılıq siyasətinin fəlakətli nəticələrini mütəmadi yaşamalı olub. Mərhələ-mərhələ həyata keçirilən bu siyasət ötən əsrin əvvəlində Cənubi Qafqazda 100 minlərlə azərbaycanlı və digər xalqların nümayəndələrinin etnik və dini mənsubiyyətinə görə qətlə yetirilməsinə gətirib çıxarıb. Çar Rusiyasının süqutunun ardınca keçmiş İrəvan xanlığı, sonrakı İrəvan quberniyasının ərazisində erməni dövləti yaradılıb.

Ermənistanda və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşevik rejiminin əli ilə Azərbaycan torpaqlarının daha bir hissəsi, o cümlədən, Qərbi Zəngəzur, Qazax qəzasının dağlıq hissəsi və Naxçıvanın bəzi kəndləri Ermənistana verilib və nəticədə onun ərazisi 9 min kv kmdan 29,8 min kv km-ə çatdırılıb. Ermənistan ərazisində qalan ata-baba torpaqlarında elliklə yaşayan 100 minlərlə azərbaycanlıya muxtariyyət verilmədiyi halda Azərbaycan ərazisində sayı onlardan dəfələrlə az olan ermənilər üçün 1923-cü ildə "Qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti" təşkil edilib.

Beləliklə, erməni millətçilərinin Azərbaaycana qarşı gələcək ərazi iddiaları üçün meydan açılmış və Cənubi Qafqazda baş verəcək yeni faciələrin əsası qoyulub. 1948-1953-cü illərin Corakert deportasiyası nəticəsində Ermənistan SSRİ-dən yarım milyona yaxın azərbaycanlı qovulmuş, onların bütün əmlakı talan edilmişdir.

1991-ci ildə Sovet ittifaqının süqutundan sonra geniş miqyas almış işğalçılıq müharibəsinin gedişində Azərbaycan ərazisinin 20 faizi - yəni, Dağlıq Qarabağ bölgəsi və onun ətrafında yerləşən 7 rayon - Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub, 20 mindən çox azərbaycanlı qətlə yetirilib, 10 minlərlə soydaşımız yaralanıb və əlil olub.

Ermənistan ərazisindən və Azərbaycanın işğal edilmiş bölgəsindən 1 milyondan çox azərbaycanlı qovularaq didərgin salınıb. İşğalçılıq müharibəsi zamanı erməni millətçiləri azərbaycanlı əhaliyə qarşı bir sıra soyqırım cinayətləri törədiblər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində əsrin ən dəhşətli faciələrindən biri baş verib. Soyqırım aktı nəticəsində 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib, 487 nəfər şikəst edilib, 1275 sakin girov götürülərək amansız işgəncələrə məruz qalıb. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən, 68 qadının və 26 uşağın taleyi bugünədək məlum deyil. Ermənsitanın etnik təmizləmə, soyqırım və işğalçılıq siyasətinə qarşı müqavimət cəhdi 1993-cü ilin iyul ayında böyük siyasi və dövlət xadimi Azərbaycan xalqının



ümumilli lideri Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra təşkil edilib. Ordu quruculuğu və silahlı qüvvələrin möhkəmləndirilməsi tarixində görülən düşünülmüş tədbirlər Ermənistan hərbi birləşmələrinin axır zərbələr endirmək və işğal altında olan bəzi ərazilərimizi, o cümlədən, Füzuli rayonunun strateji əhəmiyyət daşıyan Horadiz qəsəbəsini azad etməyə imkan verib. Azərbaycanla daha silah dili ilə danışmağın mükün olmadığını görən Ermənistan 1994-cü ilin mayında atəşkəs imzalamağa məcbur olub. Beləliklə Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin dinc yolla aradan qaldırılması üçün mötəbər beynəlxalq təşkilatların köməkliyilə aparılan adanışıqlara əlverişli şərait yaranmış, həmin təşkilatların qəbul etdikləri sənədlər münaqşənin nizama salınmasının hüquqi bazasının ayrılmaz hissəsini təşkil edib. BMT TŞ-nin 1993-cü ildə qəbul etdiyi 822, 853, 874, 884 nömrəli qətnamələrdən, eləcə də BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi 62-243 nömrəli qətnamədə Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı birmənalı şəkildə təsdiqlənmiş və Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilib. Azərbaycan Ordusunun aldığı qüvvətli zərbələrdən lazımı nətciələr çıxarmayan Ermənistan rəhbərliyi sentyabrın 27-də növbəti planlaşdırılmış təxribata əl atıb. İşğalçı ölkənin silahlı qüvvələri müxtəlif növ silahlardan, ağır artilleriyadan istifadə edərək Azərbaycanın yaşayış məntəqələrini və hərbi mövqelərini bir neçə istiqamətdən atəşə tutublar. Mülki əhali və hərbi qulluqçular arasında ölən və yaralananlar olub. Ermənistanın bu xain hücumu işğalçı ölkənin hərbi və siyasi rəhbərliyinin beynəlxalq hüquqa qarşı saymazyana münasibətinin növbəti təzahürüdür. Azərbaycanla aparılan sülh danışıqlarını pozaraq münaqişəni öz xeyrinə birdəfəlik həll etmək üçün niyyətinin yeni ifadəsi olub. Düşmənin hücumuna cavab olaraq Azərbaycan BMT-nin nizamnaməsinə uyğun olaraq və özünümüdafiə hüququndan istifadə edərək təcavüzkarın sülhə məcbur etmək məqsədilə əks-hücuma başlayıb. Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 gün davam edən əməliyyat gedişində möhtəşəm qələbələ əldə edərək dünya hərb tarixinə yeni şanlı səhifələr yazıb. Silahlı Qüvvələrin modernləşdirilməsi ilə bağlı son 17 il ərzində həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında təcəssümünü tapıb. 2020-ci ilin noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin imzladıqları bəyanat uzun illərdən bəri davam edən münaqişəyə, Azərbaycan torpaqlarının işğalına son qoyub, Cənubi Qafqaz bölgəsinin gələcək inkişafına yönələn fəaliyyətinin yeni formatını təqdim edib. Bəyanatın müddəalarına uyğun olaraq Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunub. Bu ilin dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları mərhələr-mərhələ Azərbaycana qaytarılacaq. Atəşkəsə nzəarət üzrə sülhməramlı mərkəz yaradılıb. Bu mərkəzdə Türkiyə və Rusiya hərbu qulluqçularının birgə fəaliyyəti nəzarətə tutulub. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdacaq. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçiriləcək. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Tarixi əhəmiyyət daşıyan bu bəyanat çoxillik münaqişə və müharibədə Azərbaycan xalqının şanlı qələbəsini nümayiş etdirik. Tarixi ədalət öz yerini tutdu. Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Bu möhtəşəm qələbəyə görə möhtərəm cənab Prezident, Sizə sonsuz minnətdarlığımızı bildiririk. Sizin uzaqgörən rəhbərliyiniz ilə Azərbaycanın böyük iqtisadi potensialı yaradılıb, müasir hərb nəzəriyyəsinin və taktikasının tələblərinə cavab verən güclü Azərbaycan Silahlı Qüvvələri qurulub. Sizin dəmir iradəsiniz, sarsılmaz əzminiz və digər qətiyyətiniz sayəsində həm döyüş meydanında, həm danışıqlar masasında parlaq nailiyyət qazanılıb.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsini beynəlxalq hüquq normaları və prinsipləri əsasında başa çatdırmaqda, tarixi düşmənə qarşı əsrlik mübarizədə məğlubiyyət sindromunu aradan qaldırmaqda öz inamı, hörməti, məhəbbəti və dəstəyi ilə əziz Xalqımız sizi böyük qələbə münasibətilə ürəkdən təbrik edirik. Biz inanırıq ki, uzun illər ərzində ölkəmizin müstəqilliyi və təhlükəsizliyi üçün böyük təhdid mənbəyi olmuş Dağlıq Qarabağ probleminin həlli ilə Azərbaycan daha yüksək sürətlə inkişaf edərək regional güc mərkəzlərinə və qüdrətli dünya dövlətlərinin birinə çevriləcək. Biz bu yolda Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev başda olmaqla xalqımıza yeni-yeni uğurlar arzulayırıq. Eşq olsun, Ali Baş Komandan İlham Əliyevə! Eşq olsun, Müzəffər Ordusuna! Yaşasın, Azərbaycan xalqı! Qarabağ Azərbaycandır!".

# “Biz ermənilərə görə heç bir qanunu dəyişən deyilik”

## Razi Nurullayev: “Azərbaycan onların nazı ilə oynamayacaq, onlar fərqli rəftar görməyəcəklər”



***Vətən Müharibəsi qələbə ilə başa çatandan sonra bölgəyə sülhməramlı qüvvələr yerləşdirilməyə başlayıb. Lakin sülhməramlı qüvvələrin əraziyə cəlb olunması birmənalı qarşılanmayıb. Milli Cəbhə Partiyasının sədri, millət vəkili Razi Nurullayevlə söhbətimiz də Azərbaycan Ordusunun qələbəsi, yekun sülh bəyannaməsi və bundan sonrakı proseslərlə bağlı oldu.***

***-Razi bəy, öncə yekun sülh bəyannaməsi ilə bağlı fikirlərinizi bilmək istərdik. Sizcə, bu sənəd nə qədər Azərbaycanın xeyrinədir?***

-Azərbaycan mümkün olanın maksimum nəticəsinə nail oldu. Bundan artıq nəyəsə mənəvi planda nail ola bilərdik. Bu da daha çox işğalçı erməni əsgər və zabitlərinin öldürülməsi, dinc sakinlərin də pərən-pərən düşərək qaçması ola bilərdi. Bu bizim məşəqqətlər yaşamış və qəlbi intiqam hissi ilə alovlanan xalqımızın ürəyinə balzam kimi yayılardı. Amma, məgər bunu etməyə icazə verilərdimi? Məgər xalqımız Azərbaycanın hansı ağır beynəlxalq şərtlər altında mübarizə apardığını görmədi? Prezident məgər beynəlxalq təzyiqlərin görünməmiş miqyasda olduğunu açıq demirdi? Bu təzyiqlərə sinə gərib əks-həmləni zəfərə çevirmək özü böyük qəhrəmanlıq oldu. Məgər Ermənistanın yas içində, bizim isə toy-bayramda olmağımız bir çox suallara cavab deyilmi?

Sadəcə, qondarma rejimin qondarma rəhbəri Araik Arutyunyan fikir səsləndirib ki, üç gün geciksəydik, məhv olacaqdıq. 6-7 min erməni əsgəri mühasirəyə düşüb öləcəkdi. İndi də Paşinyan deyir ki, sənədi imzalamasaydıq 20-25 min əsgərimiz ya mühasirəyə düşüb öldürüləcəkdi, ya da əsir ediləcəkdi. Bizim insanlar da deyir ki, niyə davam etmədik, niyə işğalçı əsgərləri sona qədər öldürmədik. Ay qardaş, ay atam məgər buna imkan verəcəkdilər? Biz Xankəndini alan kimi ola bilsin ki, bir neçə dövlət Dağlıq-Qarabağın müstəqilliyini tanıyacaqdı, Azərbaycana sanksiya tətbiq edəcəkdi, Türkiyəni də çətin duruma salacaqdıq. Biz Ermənistanın indiki gününə düşə bilərdik. Deyərdik ki, kaş ki, Şuşada dayanardıq. Ermənistan indi deyir ki, kaş ki, 5+2 rayonu qaytaraydıq və bəlkə də, Dağlıq Qarabağı xilas edə bilərdik. Onların tamahı və hikkəsi başlarına bəla oldu.

Prezident mən nəyin nə zaman və necə ediləcəyini yaxşı bilirəm ifadəsini boş yerə demirdi. Düzgün qərar verib maksimum nəticə qazandıq. Bu nəticə hər keçən gün daha da çoxalır. Allah eləməmiş, eyforiyaya qapılıb səhv edə və bu gün də nəticəsindən dərin peşmançılıq keçirərdik.

***- Amma fərqli fikirlər səslənir. Bəziləri sözügedən sənədin və oradakı bəndlərin milli maraqlarımıza cavab vermədiyini bildirirlər.***

-Başa düşmürəm ki, hansı sənəd maraqlarımıza cavab verərdi. Bu sənədlə işğal altından azad etdiyimiz ərazilər, işğal altında olan Ağdam, Laçın və Kəlbəcər də Azərbaycanın ixtiyarına verilir. Digər ərazilərdə isə ermənilər yaşaya bilər. Söhbət orada Azərbaycan vətəndaşı olmuş şəxslərdən gedir. Onlar Azərbaycan pasportu almalı, Azərbaycan mobil nömrəsi işlətməli və Azərbaycanın şərtlərini qəbul etməlidirlər. Livandan, Suriyadan gələnlər, köçürülənlər yaşaya bilməzlər və onlara güzəşt edilməyəcək. Əksinə, onlar qanunsuz məskunlaşdıqlarına görə, həm də onları məskunlaşdıranlar məsuliyyətə cəlb ediləcəklər.

Bu ərazilərdə Azərbaycan qanunları bərqərar olacaq. Hələ bilmək olmaz ki, özündən müştəbeh və böyük Ermənistan arzusu ilə yaşayanlar gəlib Xankəndində yaşamaq istəyəcəklər, Yoxsa yox. Azərbaycan onların nazı ilə oynamayacaq, onlar fərqli rəftar görməyəcəklər. Ölkəmizin bütün yerlərində hər kəs bərabərdir və bərabər ləyaqətə malikdirlər. Biz ermənilərə görə heç bir qanunu dəyişən deyilik.

***-Rusiya sülhməramlılarının Azərbaycan ərazisinə yerləşməsi gələcəkdə hansı problemlərə yol aça bilər ki?***

-Bu gün Rusiya sülhməramlılarının hansısa problemlərə yol açacağını düşünmürəm. Bunlar sülhməramlı əsgərlərdir və Türkiyənin də nəzarəti olacaq. Onların missiyası əslində budur ki, guya ki, biz dinc erməniləri öldürməyək, qovmayaq və incitməyək. Yəni ermənilər bizə inanmır, bizdən qorxurlar və deyirlər ki, rus əsgəri bizi qorusun. Müharibə cinayətlərində əli olanlar onsuz da dönməyəcəklər. Dönənlər qanunla problemi olmayanlar və müharibədə iştirak etməyənlər, etnik təmizləmə çağırışı etməyənlər olacaq. Onlar da bir neçə aydan sonra öyrəşəcəklər və ola bilsin ki, bir ildən sonra heç sülhməramlıya ehtiyac da qalmadı.

***-Türkiyənin prosesdə iştirakı ilə bağlı nə düşünürsünüz?***

-Türkiyə regionda və Dağlıq-Qarabağda stabilləşdirici rola malikdir. O böyük və oturuşmuş, dünyada qəbul edilən güc sahibidir. Dağlıq-Qarabağda münaqişənin sonlanmasında Türkiyənin əməyi sonsuzdur və bundan sonra da zamin rolunu oynamaqda davam edəcək. Türkiyə ədalətli davrandı və məhz, onun siyasi dəstəyi ilə Azərbaycan ciddi nəticəyə malik oldu.

Rusiyanın də Türkiyə ilə normal və əməkdaşlıq münasibətləri münaqişənin həllinə müsbət təsir göstərdi. Türkiyə olmalıdır və hazırda olmalı olduğu yerdə dayanıb. O bizim qardaş ölkəmizdir və bundan sonra da bir çox xarici siyasət məsələlərimizi də birlikdə həll edəcəyik.

***- Maraqlı məqamlardan biri də odur ki, insanlar ermənilərlə birgəyaşayışın necə olacağını, hansı fəsadlar verə biləcəyindən narahatdırlar. Bu barədə siz nə düşünürsünüz?***

-Bu asan olmayacaq. Hər iki tərəfdən xeyli ailə üzvlərini itirib. Azərbaycan vətəndaşları hər bir itirilən şəhidi ailə üzvü hesab edir. Onların ölümündə birbaşa Ermənistan rəhbərliyi və onun işğalçı əsgərləri günahkardır. Erməni ailələri, anaları, bacıları, ataları və ümumən Erməni vətəndaşları da özgə torpaqlarına işğalçı əsgər göndərməklə, onları dəstəkləməklə şovinizm, separatçılıq millətçilik və ədalətsizlik nümayiş etdiriblər.

İndi onlarla birgəyaşayış çox çətindir, amma başqa yolumuz da yoxdur. Gərək gözümüzü yumaq və gözləyək görək zamanla yaralarımız sağalarmı? Gərək ermənilər düşünsün ki, onlar gəlib bizim gözümüzün içinə necə baxacaqlar? Bizimlə necə qonşu evdə yaşayacaqlar? Heç utanacaqlarmı, qızaracaqlarmı? Mən şəxsən inanmıram. Onların yerinə başqası olsa, heç geri qayıtmazdı. Axı hansı üzlə qayıdacaqlar? Azərbaycan pasportu daşımaq, mobil telefonunun ektranında “Qarabağ Azərbaycandır” yazısını görmək, hər yerdə bizim dilimizdə yazıları oxumaq onlara xoş olacaqmı? Bir yandan da, cəhənnəmə xoş olmasın.

***- Razi bəy, işğaldan azad olunan ərazilərimizə qayıdışdan sonrakı proseslə bağlı nə deyə bilərsiniz? Məcburi köçkünlərin yerləşdirilməsi, onların məşğulluğunun təmini necə olacaq? Bu istiqamətdə hansısa təkliflər varmı?***

-Vallah, elə sualdır ki, gərək buna iqtidar nümayəndələri cavab versin. Mən müxalif babayam və büdcədən o qədər də xəbərim yoxdur. Amma, hiss edirəm və həm də iqtidar nümayəndələrinin dilindən eşidirəm ki, hər şey yaxşı olacaq. Prezident İlham Əliyev də bununla bağlı geniş danışıb və deyib ki, infrastruktur layihələri həyata keçiriləcək, evlər bərpa ediləcək, iş yerləri yaradılacaq və ciddi turizm layihələri həyata keçiriləcək. İnşallah, məncə hər şey çox gözəl olacaq. Çünki, Qarabağ bizim qan yaddaşımız və şanlı tariximizdir.

***Z.Məmmədli***

# Paşinyanın "Hitlervari sonluğu"

## Və ya gözlənilən bir fiaskonun tarixçəsi...

***Sentyabrın 27-də Ermənistanın cəbhədə törətdiyi növbəti təxribat Azərbaycan Ordusunun əks-həmlə əməliyyatına başlaması ilə nəticələndi. 44 gün davam edən bu əməliyyatla Silahlı Qüvvələrimiz şanlı tarix yazdı: işğaldakı torpaqların böyük bir qismi işğaldan azad edildi və düşmən kapitulyasiya sənədinə imza atmaq məcburiyyətində qaldı.***

Hazırda İrəvan böyük xaos və anarxiya içərisindədir: baş nazir Nikol Paşinyanın düşünlməmiş, populist davranışları onsuz da fəlakətin bir addımlığında olan Ermənistanı uçuruma yuvarlayıb və acı bircə-bircə onun özünə yedirdi. Paşinyan öz aşağılayıcı tonunda, üslubunda boğuldu. Hazırda çapalayır və çapaladıqca da batır!

Əslində bütün proses düşmən ölkənin "başsız" baş nazirinin "Qarabağ Ermənistandır, nöqtə" çıxışına İlham Əliyevin tarixi cavabı ilə start götürmüşdü: "Qarabağ Azərbaycandır, nida". Bu şüar qısa vaxtda ümumxalq dəstəyi qazandı və dillər əzbərinə çevrildi. Beləliklə, torpaqlarımızı azad etmək planının psixoloji zəmini formalaşdı. Düşmənin növbəti səhvi - cəbhədə yeni təxribat cəhdi isə prosesi psixoloji müstəvidən hərbi müstəviyə keçirdi. Birincidə olduğu kimi, baycanı dayandırmaq üçün yalvaran, dil tökən Ermənistan baş naziri özünü qısa vaxtda gülünc günə qoydu. Ordumuzun şanlı qələbələri bir-birini əvəzlədikcə səs-səmiri tədricən kəsilməyə başlayan Paşinyan sonda məğlubiyyətlə barışmalı və kapulta-siya etməli oldu. Ondan sonra da tamamilə yoxa çıxdı, iki gün harda gizləndiyi bəlli olmadı.

Beləliklə, başından bəri qaçılmaz olduğu şübhə doğurmayan fiasko rəsmiləşdi!

Bu, "Hitlervari sonluq" idi: düzdür, alman faşizminin liderindən fərqli olaraq, Ermənistan baş naziri intihar etmədi, lakin prosesin yekunu onun üçün ölümdən də betərdir. Paşinyan imza atdığı rəzalətlə istədiyi qə-



məğlubiyyət dadızdırıb, kütlə qəzəblidir, lakin artıq gecdir. Necə deyərlər, "qatar gedib" - işğal bitib, Azərbaycan öz tarixi torpaqları üzərində suveren hüquqlarını təmin edib!

Şuşanı Qarabağdakı qondarma, terrorçu rejimin paytaxtı elan etmək fikrinə düşən, burada şərab içib rəqs etdiyi yerdəki fotoları və videolarını fəxrlə ictimailəşdirən, azərbaycanlıların döyüş ruhuna şübhə edən, "bacarırlarsa, gəlib Qarabağı alsınlar" deyə aşağılayıcı tondan yararlanan, nəhayət, "Qarabağ Ermənistandır, nöqtə" çıxışı ilə özünün, eləcə də işğalçı ölkənin sifətindəki maskanı tamamilə yırtıb atan Paşinyan, böyük ehtimalla, indi bərk peşimandır: hadisələrin bu yerə gəlib çıxacağını bilsə, yəqin yuxarıda sadaladığımız davranış və danışıqların heç birinə imza atmazdı. Ancaq, yuxarıda da dediyimiz kimi, artıq gecdir: Azərbaycan Prezidenti İlham Əliyev Ordumuzun və Xalqımızın tam vəhdətini təmin edərək Ermənistan baş nazirinin həqarətlərini ikincidə qələbə qısa zamanda gəldi. Və budur, Qarabağ həqiqətən Azərbaycandır! Tarixən olduğu kimi!

İlham Əliyevin Vətən müharibəsi boyunca da Paşinyan üzərində əzici psixoloji basqısı davam etdi. Ölkə başçısının xalqa müraciətlərində Ermənistan baş nazirinə xitabən səsləndirdiyi fikirlər (məsələn, "Paşinyan, Cəbrayıla yol çəkirdin, nə oldu? Cəhənnəmə getdi, gorbagor oldu" kimi!) Azərbaycanda uşaqdan böyüyə hər kəsin dilində əzbərə çevrilərkən qarşı tərəfi mənəvi olaraq sındırdı, çökdürdü. İlham Əliyev uzun illər ərzində Vətən müharibəsinə kifayət qədər düşünülmüş, yüz ölçüb bir biçilmiş şəkildə apardığı siyasi, iqtisadi, diplomatik, hərbi və psixoloji hazırlığın "meyvəsini" cəmi 44 günə dərdiyi halda, Paşinyanın ağılsız, başından yekə çıxışları, əməlləri onu dünyada rəzil-rüsvay etdi. Əks-həmlə əməliyyatının az qala ilk saatlarından dünya liderlərinə ard-arda zənglər edən, onlara Azərdər yaşaya bilər, ancaq "ölü can"dan heç bir fərqi olmayacaqdır. Üstəlik, belə görünür ki, hətta milyonlarla insanın qanına bais olmuş Hitler də belə azacıq özünəhörmət hissi varkən, Nikol bundan da məhrum imiş...

Simasızlıq - budur onun siması!

Tarix dərslikləri isə, əlbəttə, sadə, lakin möhtəşəm bir həqiqəti yazacaqdır: Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Böyük Xalqımız və Müzəffər Ordumuz cəmi 44 günə yüzillər boyunca unudulmayacaq, politologiya, sosiologiya, psixologiya, hərb elmləri ilə məşğul olanlara bol-bol araşdırma, tədqiqat materialı verəcək Şanlı Zəfərə imza atdı!

Bu Şanlı Zəfər bizim üçün yeni bir Dirilişin, yeni bir Dirçəlişin, düşmən üçün isə yeni və həlledici bir Çöküşün ilk addımıdır.

Qarabağ bizimdir!

Qarabağ Azərbaycandır!

***Sənan Mirzə***

# Ziyafət Əsgərov: "Bir millət iki dövlət fəlsəfəsi"



***"Hər şeydən əvvəl Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrimizin Ali Baş Komandanı möhtərəm İlham Əliyevi, xalqımızı və ordumuzu bu böyük qələbə münasibətilə təbrik edirəm. Noyabrın 10-da ölkəmizin tarixində yeni bir səhifə açıldı. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə Azərbaycan və Rusiya prezidentlərinin Ermənistanın Baş nazirinin imzaladıqları üçtərəfli bəyanatla rəsmi olaraq son qoyuldu".***

Bu fikirləri Modern.az-a açıqlamasında Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov deyib.

Komitə sədrinin sözlərinə görə, demək olar ki, 30 ilə yaxın müddət ərzində ulu öndərimizin və cənab İlham Əliyevin ölkəmizə rəhbərliyi ilə dövlətimizin iqtisadi cəhətdən güclənməsi, hərb elminin ən müasir texnologiyalarına əsaslanan ordumuzun yaradılması eyni zamanda bütün beynəlxalq platformalarda ərazi bütövlüyümüzü və suverenliyimizi dəstəkləyən sənədlərin qəbul olunması münaqişənin parlaq qələbəmizlə nəticələnməsinə hüquqi zəmin yaratdı:

Daxili həmrəylik, milli birlik və möhtərəm prezidentimiz cənab Ali Baş Komandanımızın bildirdiyi kimi yumruq kimi birləşməyimiz Ali Baş Komandan-xalq-ordu birliyi gücümüzə güc qatdı. Nəticədə:

1. Azərbaycan son 200 ildə müharibədən ərazi itkisinə yox, ərazi bütövlüyünü bərpa edərək çıxdı.
2. Azərbaycan ordusu müasir müharibə aparmaq texnologiyalarını yüksək səviyyədə mənimsəməklə bütün dünyaya sübut etdi ki, bu beynəlxalq humanitar hüququn tələblərinə əməl etməklə tam legitim döyüşlər aparır.
3. Bu bəyanatın imzlanması ilə Ermənistanın hərbi kapitulyasiyası rəsmiləşdirildi.
4. Bəyanatda uzun illərin işğalına son qoyulmaqla Dağlıq və Aran Qarabağ üzərində Azərbaycanın yurisdiksiyası bərpa olundu.
5. Ermənistana əvvəllər təklif edilən və onun qəbul etmədiyi ən yüksək status anlayışı tarixə qovuşdu.
6. İşğal edilmiş ərazilərdən Ermənistan Silahlı Qüvvələri çıxarılır və məcburi köçkün və qaçqınlar öz ata-baba yurdlarına qayıdırlar.

Azərbaycanın Qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə təminat verilir".

Ziyafət Əsgərov vətən müharibəsində Türkiyənin dəstəyini də qeyd edib: "Keçən əsrin əvvəllərində dövlət müstəqilliyimizi ilk tanıyan dövlət olmaqla, qardaş Türkiyə Cümhuriyyəti həmişə olduğu kimi vətən müharibəsi vaxtı da daim yanımızda oldu. Bizə mənəvi və siyasi dəstək verdi. Bu haqlı davamızda bir daha sübut olundu ki. bir millət iki dövlət ifadəsi sadəcə bir şüar deyil. Dövlətlərimiz və xalqlarımız arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin fəlsəfəsini təşkil edən bütöv bitkin bir tarixi təfəkkür konsepsiyasıdır. Bu münasibətlə fürsətdən istifadə edərək bir daha qardaş Türkiyəyə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm".

# İTV- nin Qarabağ bürosu açılacaq

itv

***"İctimai Televiziya və Radio Yayımları haqqında" qanunun 6.0.1 (özünün yayım xidmətlərini yaratmaq) və 6.0.4 (ölkə ərazisində və xaricdə özünün müxbir məntəqələrini, filial və nümayəndəliklərini açmaq) maddəsinə əsaslanaraq, mərkəzi Şuşa şəhərində olmaqla Qarabağ bürosunun açılması barədə qərar qəbul edib.***

İctimai Televiziyadan verilən məlumata görə, müharibədən sonrakı vəziyyət imkan verən kimi İctimai Televiziya və Radio Yayımları Şirkətinin Qarabağ bürosu öz fəaliyyətinə başlayacaq.

# Milli Məclisin iclaslarının Şuşada keçirilməsi təklif edildi

***Milli Məclisin plenar iclaslarının işğaldan azad edilən Şuşa şəhərində keçirilməsi təklif edilib.***

Unikal.org xəbər verir ki, bu təkliflə parlamentin bu gün keçirilən plenar iclasında deputat Elman Nəsirov çıxış edib.

O təklif edib ki, müəyyən vaxtda və məqamda parlamentin iclasını Şuşa şəhərində keçirilsin: "Bəzi qanunları və onlara dəyişiklikləri həmin iclaslarda qəbul edək".



## Baş Prokurorluq muzdlu terrorçularla bağlı məlumat yaydı

***Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən təxirəsalınmaz tədbirlərin görülməsi davam etdirilir.***

Baş Prokurorluqdan Unikal.org-a bildirilib ki, həyata keçirilən bu tədbirlərin davamı kimi, İraq Respublikasının müxtəlif ərazilərində yaşayan PKK-PYD-YPG terror təşkilatlarına aid şəxslərin, eləcə də Livan Respublikasının vətəndaşı Vartkes adlı şəxsin və digərlərinin Azərbaycan Respublikasına qarşı törətdikləri cinayət əməllərinə dair Azərbaycan Respublikası Baş Prokurorluğunda toplanmış material əsasında araşdırma aparılıb.

Araşdırmalarla Aslan Murad Vartanyan, Bese Hozat və qeyrilərinin çağırışı, Livan Karadağ, Hemaran Kervaçian, Sərvət Bagopşinin rəhbərliyi altında Suriya, Livan, İraq Respublikasının müxtəlif ərazilərində yaşayan "PKK-PYD-YPG" terror təşkilatlarına aid bir qrup şəxslərin 2016-cı ilin mart-aprel və 2020-ci ilin sentyabr-noyabr aylarında, Livan Respublikasının vətəndaşı Vartkes adlı şəxs və digərlərinin isə 2020-ci ilin oktyabr ayında Ermənistan Respublikasında və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində olan şəxslərlə cinayət əlaqəsinə girib cinayətkar birlik halında Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda, yəni Ermənistan ərazisindən qanunsuz keçərək Xankəndi şəhəri və işğal altında olmuş digər yaşayış məntəqələrinə gəlmələri, Azərbaycan Respublikasının dinc vətəndaşlarına və antiterror əməliyyatlarını həyata keçirən silahlı qüvvələrinə qarşı Ermənistanın siyasi-hərbi rejimi tərəfindən muzdlu kimi istifadə edilmələri müəyyən edilmişdir.

Bundan başqa, həmin cinayətkar birlik üzvlərinin döyüş sursatlarından, hərbi texnikadan istifadə edib atəşlər açaraq xüsusi amansızlıq və ümumi təhlükəli üsulla, milli düşmənçilik niyyəti ilə hərbi əməliyyatlarda iştirak etməyən dinc sakinlərinə qarşı çoxsaylı cinayət əməllərinə yol verməldəri, ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətməklə Azərbaycan Respublikası vətəndaşlarına qarşı terrorçuluq fəaliyyətində iştirak etmələri aşkar edilmişdir.

Qeyd edilən faktlarla bağlı Azərbaycan Respublikasının Baş Prokuroru tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibəni aparma), 120.2.1 (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürmə), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə cinayət işləri başlanılmış və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilmişdir.

Hazırda hər iki cinayət işi üzrə intensiv istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

# Deputatlarımızın "töhmət sevdası"

## Milli Məclis üzvləri qalmaqallı çıxışları nə vaxt tərgidəcəklər?

***Azərbaycanda son bir həftədə ikinci dəfə Milli Məclis üzvünə töhmət verilib. Belə ki, öncə noyabrın 7-də Milli Məclisin İntizam komissiyasının iclasında deputat Bəhruz Məhərrəmov barəsində intizam tədbirinin tətbiq edilməsi məsələsinə baxılıb.Komissiyanın üzvləri qeyd ediblər ki, parlamentin 2020-ci il noyabrın 6-da keçirilən plenar iclasında İran və İranın ali rəhbərinin ünvanına deputat B.Məhərrəmovun səsləndirdiyi fikirlər Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və mehriban qonşuluq münasibətlərinin ruhuna ziddir. Deputat öz çıxışlarında məsuliyyət hissini rəhbər tutmalı, Azərbaycanın milli maraqlarını daim nəzərə almalıdır.Müzakirələrin yekunu olaraq, İntizam komissiyası deputat Bəhruz Məhərrəmov barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul edib.***

Dünən - noyabrın 13-də isə Milli Məclisin İntizam komissiyası bu dəfə başqa bir deputat Könül Nurullayeva barəsində intizam tədbirinin tətbiqi məsələsinə baxıb.

Qeyd olunub ki, bir gün əvvəl - noyabrın 12-də Türkiyənin TV Net telekanalına müsahibə verən K.Nurullayevanın canlı yayımda səsləndirdiyi fikirlər Azərbaycanın dövlət siyasətinə zidd, Azərbaycan cəmiyyətinin və Milli Məclisin mövqeyini əks etdirmir.

Xatırladaq ki, ermənilərin Qarabağa vurduğu ziyanla bağlı dəyərləndirmə apararaq Ermənistandan təzminat istənilməsi barədə suala cavab verən Könül Nurullayeva deyib ki, bu gün Ermənistanın iqtisadiyyatı tam çöküb, xarici borcları artıb, sosial təminat sahəsində fəlakətli durum yaranıb və bu durumda Azərbaycana təzminat verilməsi önəmli deyil.

Komissiyanın üzvləri qeyd ediblər ki, son 200 ildə müntəzəm olaraq Azərbaycan xalqına qarşı təcavüz aktları həyata keçirən, torpaqlarımıza göz dikən, 30 il Dağlıq Qarabağ bölgəsini və ətraf rayonları işğalda saxlayan, həmin ərazilərdə dəhşətli dağıntılar törədərək Azərbaycan insanlarına və ölkənin iqtisadiyyatına, tarixi-mədəni-dini obyektlərimizə milyardlarla manatlıq ziyan vuran, Xocalı soyqırımını törətmiş olan Ermənistandan təzminat tələb etmək bizim haqqımızdır və belə bir prosedur beynəlxalq hüquqda təsbit olunub.



Bildirilib ki, Vətən müharibəsi ilə, xalqımızın ümdə hüquqları ilə bağlı çıxışlarında hər bir deputat məsuliyyət hissini rəhbər tutmalı, Azərbaycanın milli maraqlarını mütləq nəzərə almalıdır.

Müzakirələrin yekununda İntizam komissiyası deputat Könül Nurullayeva barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul edib.

Qeyd edək ki, biz Azərbaycanda millət vəkillərinin qalmaqallı çıxışlarına çoxdan adət etmişik. Bundan əvvəlki çağırış Milli Məclis üzvləri az qala hər gün ictimaiyyətdə geniş narazılıq yaradan, dövlətimizin maraqları ilə üst-üstə gəlməyən fikirlər səsləndirir, bu səbəbdən də sərt tənqid hədəfinə çevrilirdilər.

Məsələn, ölkədə kifayət qədər işsiz olduğu halda deputat Aydın Hüseynov Azərbaycana xarici ölkələrdən işçilər dəvət edilməlidir. Yaxud, son (növbədənkənar) parlament seçkisində mandatsız qalan Hadı Rəcəbli demişdi ki, əgər bu gün müəllim 150-200 manat maaş alır və dolana bilmirsə, o işdən sonra da başqa ilə məşğul olmalıdır: "Lənkəranın Veravul kəndində Balabəy müəllim adlı bir şəxs var. O, günün birinci yarısı müəllimlik edir, nahardan sonra isə gedib daş hörür, ustalıq edir. Qazandığı pulla da ailəsini saxlayır. O, bunu heç də ayıb hesab etmir. Bunun nəyi pisdir ki? Əgər vətəndaş yaxşı yaşamaq istəyirsə, çox işləməlidir" deyən Rəcəblinin bu açıqlaması sərt ictimai qınaq yaratmışdı.

Xalq mərhum deputat Astan Şahverdiyevin qaçqınları etiraz aksiyasına qoşulanları "bir qrup nəşəli, içkili adam", işdalınca Rusiyaya gedənləri "cəmiyyətin "otxodları" adlandırmasına da, Bahar Muradovanın sosial vəziyyətindən gileylənənləri nəzərdə tutub "Hər kəs ayağını yorğanına görə uzatmalıdır" deməsinə də ciddi təpki göstərmişdi.

Ötən ilin sonlarında Milli Məclis buraxıldıqdan və bu ilin fevralında növbədənkənar seçki yolu ilə yeni parlament formalaşdırıldıqdan sonra güman etmək olardı ki, artıq bu cür zərərli tendensiya aradan qalxacaq: deputatlar məsuliyyətlərini daha dərindən dərk edərək qalmaqallı çıxışlardan çəkinəcəklər.

Lakin son bir həftədə iki millət vəkilinin töhmət alması düşündürücüdür və narahatlığa yol açır.

Ümid edək ki, proses elə bu iki töhmətlə də başa çatacaq və Milli Məclis üzvləri bundan sonra öz çıxışlarında, müsahibə və açıqlamalarında daha ehtiyatlı, diqqətli olacaq, cəmiyyətdə narazılıq yaradan və dövlət maraqlarımızla ziddiyyət təşkil edən fikirlər səsləndirməkdən çəkinəcəklər...

***Toğrul Əliyev***

# Aİ-nin ali nümayəndəsi Azərbaycan və Ermənistan XİN başçıları ilə danışdı

***Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi, Avropa Komissiyasının Vitse-prezidenti Josep Borrell Cümə axşamı 12 noyabr tarixində Azərbaycanın Xarici İşlər Naziri Ceyhun Bayramov və Ermənistanın Xarici İşlər Naziri Zohrab Mnatsakanyan ilə telefon danışığı apardı.***

Unikal.org xəbər verir ki, hər iki telefon danışığında Ali Nümayəndə, Vitse-prezident döyüşlərin dayandırılmasının münaqişənin sülh yolu ilə nizamlanmasına yönəlmiş səylərin göstərilməsinə imkan verəcəyinə və insanların daha çox əziyyət çəkməsinə yol verməyəcəyinə ümid etdiyini bildirdi. O, münaqişənin təsirinə məruz qalmış mülki əhalinin ehtiyaclarını ödəmək üçün Aİ-nin əlavə humanitar yardım göstərməyə hazır olduğunu və artıq 1 milyon avroya yaxın fövqəladə yardımın ayrıldığını vurğuladı.

Ali Nümayəndə, Vitse-prezident müvafiq olaraq hər iki xarici işlər naziri ilə Rusiyanın vasitəçiliyi ilə 9 noyabrda Ermənistan və Azərbaycan tərəfindən razılaşdırılan



atəşkəs razılaşmasını müzakirə etdi. Josep Borrell, hər şeydən əvvəl hər iki tərəfin atəşkəsə tam şəkildə hörmətlə yanaşıb onu həyata keçirməli olduğunu vurğuladı. Bu əsasda, münaqişənin danışıqlar yolu ilə, hərtərəfli və davamlı olaraq həll edilməsi üçün bu, ilk addım ola bilər. Ali Nümayəndə, Vitse-prezident hər iki Nazirə sülhün qurulması və barışığın vacibliyini, bu baxımdan da beynəlxalq humanitar hüququn prinsiplərinə riayət etməyin, mədəni irsin qorunmasının və yerli icmalar üçün onun dəyəri və əhəmiyyətinin vacibliyini vurğuladı.

Ali Nümayəndə, Vitse-prezident Borrell Aİ-nin ATƏT-in Minsk Qrupu həmsədrlərinin rəhbərlik etdiyi formatı dəstəkləməyə davam edəcəyini vurğuladı. Avropa İttifaqının Cənubi Qafqaz üzrə Xüsusi Nümayəndəsi və Aİ Nümayəndəlikləri daxil olmaqla, Avropa İttifaqının və şəxsən özünün bütün Cənubi Qafqaz bölgəsində davamlı sülhə və ölkələrin firavan inkişafına aparan bu səylərə və razılaşmaların həyata keçirilməsinə töhfə verməyə hazır olduğunu təkrarladı.

Ali Nümayəndə, Vitse-prezident, qarşıdan gələn Aİ-Ermənistan Tərəfdaşlıq Şurası və Aİ-Azərbaycan Əməkdaşlıq Şurası ərəfəsində hər iki Nazirlə əlaqə saxlayacağının səbirsizliklə gözlədiyini bildirdi.

# Polad Bülbüloğluna "istefa yolu" göründü

## Rusiyadakı səfirimiz son qalmaqaldan sonra könüllü şəkildə siyasətdən çəkilib musiqi ilə məşğul olsa yaxşıdır

***Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu növbəti dəfə, - üstəlik, bu dəfə də haqlı olaraq! - cəmiyyətin qınağına tuş gəlib. Onun Qarabağda ermənilərə mədəni muxtariyyət verilməsinin mümkünlüyü, Türkiyənin sülhməramlı prosesdə iştirakı barədə dedikləri ictimai rəyi qıcıqlandırıb. Artıq iki gündür real həyatdan sosial şəbəkələrəcən az qala hər yerdə ictimaiyyət nümayəndələri, tanınmışlar, sıravi vətəndaşlar Bülbüloğlunun açıqlamalarına sərt reaksiya nümayiş etdirməkdədirlər. Səfirin özü isə barəsindəki tənqid və iradlar qarşısında həmişə olduğu kimi susur!***

Açığı, Polad müəllimin səfir kimi 14 illik fəaliyyətini ancaq uğursuzluq kimi qiymətləndirmək olar. Hərçənd onun bundan əvvəl düz 18 il (1988-2006) davam edən Mədəniyyət naziri kimi işi də yaddaşlarda xoş elementlərlə qalmayıb. Xüsusilə həmin postdakı fəaliyyətinin son illərində Bülbüloğlunun adı ətrafında müxtəlif korrupsiya, rüşvət iddiaları səslənirdi. Bir sözlə, bəstəkar və müğənni kimi parlaq karyeraya malik olan Polad müəllimin nazir və səfir karyerası haqda eyni sözləri demək çətindir. O, bəstəkar və müğənni kimi qazandığı nüfuzu nazir və səfir vəzifələrində "son qəpiyinəcən" xərclədi. Elə Azərbaycan cəmiyyətində vaxtaşırı tənqidlərin, qınaqların, iradların, bəzən yetərincə ağır ittihamların hədəfinə çevrilməsi



də bununla bağlıdır.

Rusiyadakı soydaşlarımız Bülbüloğlunun səfir kimi əsas fəaliyyətinin bu ölkədə özünə geniş biznes şəbəkəsi yaratmaqdan o yana keçmədiyi qənaətindədirlər. Onlar mütəmadi şəkildə narazılıqlarını dilə gətirirlər: Rusiyada üzləşdikləri problemlərin həllində səfirliyimizin hər hansı dəstəyinə ümid etməyə dəyməz deyirlər. Polad müəllimin özü ilə təmas qurmaq isə ümumiyyətlə müşkül məsələdir. Bu məqamı ona görə xatırlatmaq gərəyi hiss edirik ki, əslində Bülbüloğlunun diplomat kimi uğurlu seçim olmadığına dair ümumiləşmiş qənaəti möhkəmləndirək. Elə onun son çıxışı da səfir olaraq üzərinə düşən məsuliyyətin ciddiliyini, önəmini dərindən dərk etmədiyinin nümayişi kimi qəbul edilə bilər.

Yox, əgər Polad müəllim həmin açıqlamaları bu məsuliyyəti anlayaraq dilə gətiribsə, bax bu ümumiyyətlə qəbuledilməzdir. Belədə onun bir yolu qalır: istefa vermək!

Açığı, biz Azərbaycanda vəzifəli şəxslərin hansısa qalmaqala imza atdıqdan sonra tutduqları postdan kənarlaşmasını gözləyirik. Halbuki ilk addımı həmin vəzifəli şəxslərin özləri atmalı, ictimai rəyi qəzəbləndirən, dövlət maraqları ilə üst-üstə düşməyən addımlar atıblarsa, istefa verməyi öyrənməlidirlər. Konkret indiki halda Polad Bülbüloğlu da yanlış, zərərli fikirlərinə görə üzr istəməli və səfir vəzifəsindən geri çağrılmasını xahiş etməliydi. Üstəlik, yazının əvvəlində də vurğuladığımız kimi, o, ilk dəfə deyil ictimai rəydə yaxşı qarşılanmayan, hətta hiddətə səbəb olan fikirlər səsləndirir. Onun son açıqlamalarına sərt təpkidən də aydın göründü ki, artıq cəmiyyətin Polad müəllimə dözüm limiti bitib...

Elə Milli Məclisin deputatı Vahid Əhmədov da parlamentin dünənki iclasında çıxışı zamanı ictimaiyyətin ortaq narazılığını dilə gətirdi və bizim bir az əvvəl toxunduğumuz məqamı qabartdı. "Çox təəssüf ki, bəzi insanlar hələ də muxtariyyət barədə danışırlar. Dünən Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu öz çıxışında hansısa muxtariyyətdən söhbət edir. Sanki Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovu əvəz edir" deyən Əhmədov açıq şəkildə bildirdi ki, belə insanlar artıq Azərbaycan siyasətində qala bilməzlər: "Özləri istefa verib getməlidirlər. Cənab Prezidentin dediyi kimi Azərbaycan heç vaxt, heç bir muxtariyyət barədə söhbət etməyəcək. Heç bir muxtariyyət verilməyəcək. Prezidentin dediyi kimi, nə qədərki mən hakimiyyətdəyəm, statusdan söhbət gedə bilməz. Bütün dövlət məmurları da bunu nəzərə almalıdır".

Fikrimizcə, Milli Məclis üzvlərinin cəmiyyətin ümumi mövqeyini ifadə edən həmin çıxışına Polad Bülbüloğlu etinasız qalmayacaq və yola öz yaradıcılıq işləri ilə davam etmək qərarına gələcək. Çünki onun hazırkı vəziyyətdə səfir işləməsi, sonralar isə hər hansı başqa bir önəmli post tutması real görünmür. Bu, dövlətə də ziyan verir, xalqa da, elə onun özünə də!

***Elvin Rüstəmov***

# Səttar Möhbalıyev Prezidentə müraciət etdi

***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbaliyev Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə müraciət edib.***

**Müraciəti təqdim edirik:**

Möhtərəm cənab Prezident! Siz yaşı min illərlə hesablanan, bəşəriyyətə saysız-hesabsız fateh sərkərdələr, müdrik dövlət xadimləri bəxş etmiş Azərbaycanın tarixində əbədi yaşayacaq zəfərə imza atdınız. 30 ilə yaxın müddət ərzində düşmən işğalı altında qalmış Qarabağı öz doğma sahiblərinə - Azərbaycan xalqına qaytardınız. Noyabrın 10-u gününü tarixə çevirdiniz. Müqəddəsləşdirdiniz. Qələbənin əsasında Sizin dəmir iradəniz və xalqın Sizə böyük etimadı, sarsılmaz inamı durur. Siz hakimiyyətə gəldiyiniz ilk gündən yaxşı bilirdiniz ki, tarix Azərbaycanı gelişdirmək, xalqı öz ətrafında birləşdirmək, dövlətimizi inkişaf etdirmək kimi missiyanı məhz Sizin üzərinizə qoymuşdur. Bu gün heç kəs inkar edə bilməz ki, Siz son dərəcə çətin olan bu missiyanın öhdəsindən layiqincə gəldiniz və beynəlxalq arenada böyük nüfuza malik, inkişaf etmiş dövlət yaratmağı bacardınız. Bu missiyanı yerinə yetirəcəyinizə heç vaxt, heç kim şübhə etməmişdi. Xalq Sizə dövlətin ən yüksək postunu etibar edəndə yaxşı bilirdi ki, Siz dahi bir insandan - ümummilli liderimiz Heydər Əliyevdən tərbiyə almış, siyasi kursunu məharətlə mənimsəmiş və onun azərbaycançılıq ideyalarına mükəmməl yiyələnmisiniz.

Siz Qarabağı xalqımıza qaytardınız. Qarabağı qaytarmaqla dünyaya dövlətimizin gücünü göstərdiniz. Xalqımızın birliyini göstərdiniz. Göstərdiniz ki, heç bir qüvvə bizim qabağımızda dura bilməz. Heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz.

**Möhtərəm cənab Prezident!**

Xüsusilə noyabrın 8-də, xalqımızın həm də mənəvi məbədgahı, mədəniyyətimizin rəmzi olan Şuşa şəhərinin erməni işğalından azad edilməsi yenilməzliyimizin təntənəsi oldu. Siz bununla qürurumuzu, məğrurluğumuzu, vüqarımızı və şərəfimizi özümüzə qaytardınız.

Müharibə boyu şücaətli Ordumuz müdrik Ali Baş Komandanının tapşırıqlarını, hazırladığı hərbi strategiyasını əzmlə, yüksək peşəkarlıqla reallaşdırdı. Bu gün Sizin komandanlığınız



altında əldə olunan qələbə, aparılan hərbi əməliyyatlar həm texniki imkanlar, eyni zamanda, operativ addımlar, əməliyyatların hazırlanması və icra edilməsi baxımından, bütün dünyada öyrənilir.

Siz, cənab Prezident, daim yenilikçi olmusunuz. Dünyada gedən inkişafa yaradıcı şəkildə yanaşmış və onu fəaliyyətinizdə ustalıqla tətbiq etmisiniz. Biz bunu uzun illərdir ki, ölkəmizin iqtisadi, sosial və mədəni həyatında görür və nəticələrini yaşayırıq. Vətən müharibəsi Sizin hərb sahəsində də növqəl novatorluğunuzu nəinki Azərbaycan xalqına, bütün dünyaya nümayiş etdirdi. Sizin Ali Baş Komandanı olduğunuz Silahlı Qüvvələrimiz elə müharibənin ilk günlərindən erməni ordusuna qarşı yeni müharibə üsulunu ortaya qoydu. Yeni texnologiyalar, yeni strategiyalar, fasiləsiz təchizat düşməni çıxılmaz vəziyyətə saldı. Siz sübut etdiniz ki, yeni, müasir hərbi texnologiyalar qələbəni o zaman təmin edir ki, hərbçiləri döyüş qabiliyyəti ilə bərabər mənəvi ruh birləşdirir.

Siz çox çətin, gücün beynəlxalq qanunlardan üstün olduğu, ədalətsizliyin ədaləti arxa plana keçirdiyi mürəkkəb bir şəraitdə əsl möcüzə göstərdiniz. Böyük güclərin təsirinə mətanətlə sinə gərdiniz. Dəmir iradə nümayiş etdirdiniz. Yalnız xalqımıza güvəndiniz. Xalqın mənafeyini heç bir gücə güzəştə getmədiniz. Sizin qüdrətiniz qarşısında heç bir qüvvə tab gətirə bilmədi. Apardığınız haqq, azadlıq mübarizəsi nəhayət Ermənistanın biabırçı məğlubiyyəti noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatla başa çatdı. Bu, haqqın qələbəsi idi. Bu, Azərbaycan xalqının, Azərbaycan Ordusunun, onun Ali Baş Komandanı İlham Heydər oğlu Əliyevin Qələbəsi idi.

Mən şəxsən öz adımdan, çoxminli həmkarlar ittifaqı üzvləri adından Sizə minnətdarlığımı və təşəkkürümü bildirirəm. Allah Sizi qorusun! Siz xalqımızın təkcə indiki nəslinin deyil, bütün gələcək nəsillərinin komandanı, fəxri kimi tarixə düşdünüz.

Cənab Prezidentimiz, Ali Baş Komandanımız! Biz həmişə Sizinlə olmuşuq və Sizinlə olacağıq!

# “Biz öz tarixi və şərəfli günlərimizi yaşayırıq" - Millət vəkili



***“Bildiyimiz kimi bütün dünya azərbaycanlıları bugünlərdə öz tarixi və şərəfli günlərini yaşayır. Çünki 10 noyabr Azərbaycan tarixinə qızıl hərflərlə həkk olundu”.***

Unikal.org xəbər veriri ki, bunu Milli Məclisin deputatı Cavid Osmanov deyib:

“Bu, tarixi qələbəmizdir və Azərbaycanın ərazi bütövlüyü tam təmin olundu. Artıq Azərbaycanın bütün yaşayış məntəqələrində Azərbaycan qanunları işləyəcək, Azərbaycanın üçrəngli bayrağı dalğalanacaqdır. Bu, tarixi bir qələbədir və bunu bizə bəxş edən ölkə prezidenti, ali baş komandanımız cənab İlham Əliyevdir. Onun həm döyüş meydanı, həm diplomatiya, həm də informasiya meydanında qələbə qazanması uğurumuzdur. Əlbəttə ki, döyüş meydanında qələbə Azərbaycan ordusunun müzəffər, qorxmaz, igid, qeyrətli oğullarının düşmənə vurduğu zərbələr nəticəsində əldə olunmuşdur”.

Millət vəkili bu böyük qələbəyə görə bütün xalqın bayram etdiyini vurğulayıb: “Dost ölkələr, dost xalqlar bayram edir. Çox təəssüf ki, məhz bu gözəl günlərimizdə, bu zəfər günlərində, son 500 ilin Azərbaycan tarixində işğal altında olan torpaqlarımızı azad etməyə nail olduğumuz günlərdə, bir sözlə, qələbəmizi qeyd etdiyimiz günlərdə daxildə olan bəzi antimilli ünsürlər bu qələbəmizə kölgə salmağa çalışırlar və müxtəlif vasitələrlə imzalanmış bəyanata kölgə salmaq istəyirlər. Çalışırlar çaşqınlıq yaratsın, insanların ürək dolu qələbə sevincinə xələl gətirsinlər. Bu təəssüfedici haldır və bir daha bu adamlar, bu antimilli ünsürlər onu nümayiş etdirir və təsdiq edirlər ki, onlar doğrudan da ermənipərəst qüvvələrə, Ermənistana xidmət edirlər. Ona görə deyirəm ki, AXCP və Milli Şura rəhbərliyi ermənidən betərdi. Azərbaycanın heç bir uğurunu, hətta bütöv Azərbaycan xalqının, dünya azərbaycanlılarının bir nömrəli, ən böyük problemi olan Dağlıq Qarabağ münaqişəsinin həlli, Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüşlərin zəfər günlərini yaşamağa, qələbəmizə kölgə salırlar. Müxtəlif variantlardan istifadə edərək, müxtəlif sözlərlə, çaşdırıcı nitqlərlə çalışırlar ki, məhz bu qələbə günümüzə kölgə sala bilsinlər.”

Cavid Osmanov bildirib ki, bu çox təəssüfedici haldır:

“Mən bir daha bu məsələni xüsusi vurğulamaq istəyirəm ki, bu antimilli ünsürlər, bütün ləyaqət və vicdanını itirmiş antimilli qüvvələr istənilən halda - hətta biz daha irəli gedib Zəngəzuru və digər ərazilərimizi belə işğaldan azad etsəydik belə, yenə də öz qərəzli mövqelərindən çıxış edəcəkdilər. Çünki onlar diktə altındadır. Onların boğazındakı iplər, kəndirlər kimlərinsə əlindədir. Əlbəttə, onu dartan kimi bunlar çalışırlar ki, xalqımıza hücum çəksinlər. Azərbaycan xalqı artıq gördü ki, düz istiqamət götürüb, düz yol seçib. Xalqımız cənab prezidentimizin ətrafında birləşib. Bu birlik bir daha nümayiş etdirdi ki, Azərbaycan xalqı nə qədər bir olsa, nə qədər vəhdət təşkil etsə, biz dağı dağ üstə qoya bilərik. Biz istənilən problemi çözməyə qadir olan bir xalq, millətik. Ona görə də bu antimilli ünsürləri Azərbaycan xalqı lənətləyir və çox təəssüf ki, belə antimilli ünsürlər bizim xalqımızın içində qərarlaşıb. Xalqımzın birliyinə, uğurlarına, qələbəmizə qarşı məhz belə qərəzli mövqedən çıxış edirlər”.

***Murad İbrahimli***

# "Bu xəbərə görə yüksək məbləğdə pul verdim" - Bayram Səfərov

***”Şuşanın erməni işğalından azad olunması xəbərini ilk mənə deyən şəxsə muştuluq olaraq yüksək məbləğdə pul mükafatı verdim.”***

Bunu Unikal.org-a açıqlamasında Şuşa Şəhər İcra Hakimiyyətinin başçısı Bayram Səfərov bildirib.

”Bu xəbərə çox sevindim. Ən böyük arzum Şuşa şəhərini gedib görməkdir. Hələ o torpaqlara gedə bilməmişəm. İnşaallah yaxın zamanlarda gedərəm. Bu xəbəri eşidəndə sevincimin həddi-hüdudu yox idi. Söz verdiyim kimi bu xəbəri mənə ilk deyən şəxsə pul mükafatı verdim”.

***Famil Fərhadoğlu***

# Rektorların "yoxlama qorxusu"

## Universitetlərdə anti-korrupsiya təftişləri gücləndirilməlidir

***Son illərdə Azərbaycanda aparılan anti-korrupsiya tədbirləri dövlət ali təhsil ocaqlarından da yan keçməyib. Həmin universitetlərdə aparılan yoxlamalar zamanı xeyli nöqsanlar üzə çıxarılıb. Bu da onların fəaliyyəti üzərində nəzarətin daha da gücləndirilməsinin vacibliyinə dair qənaət formalaşdırıb.***

Uzağa getməyək, iki il öncə - hansı ki, onda Abel Məhərrəmov hələ rektor postunu tuturdu - Bakı Dövlət Universitetində Hesablama Palatasının yoxlama həyata keçirdiyi zamanı ciddi korrupsiya faktları ortaya çıxmışdı. Məsələn, məlum olmuşdu ki, Universitetdə ödənişli əsaslarla təhsil almış və müxtəlif kurslardan akademik məzuniyyətə getmiş tələbələrin qabaqcadan ödənilmiş təhsil haqqı məbləğləri kreditor borc kimi, müxtəlif səbəblərdən xaric edilmiş təhsil alanlar üzrə təhsil haqqı məbləğləri, tələbələr sırasından xaric edilmiş əcnəbi tələbələrin təhsil haqqı məbləğləri debitor borcunda əks etdirilməyib, ”Maarifçi Tələbə Kredit” fondu ilə təhsil krediti haqqında müqavilə imzalayan tələbələr üzrə hesablanmış təhsil haqqı məbləği universitetin zərərinə silinib, dövlət sifarişi ilə təhsil alan, lakin müxtəlif səbəblərdən universitetin tələbələri sırasından xaric edilmiş tələbələr üzrə təhsil haqqı məbləği dövlət büdcəsinə qaytarılmayıb. Hələ biz ”Ali təhsil müəssisələrinin inşaat, maddi-texniki təchizat, kadr potensialı və strukturuna qoyulan minimum normalar”ın tələblərinə bəzi hallarda əməl olunmayaraq artıq ştatların saxlanılmasını, ya da əmək haqqına əlavələrin düzgün tətbiq edilməməsi nəticəsində ”Gənc istedadlar Liseyi”nin müəllimlərinə artıq, eyni zamanda universitetdə işləyən məcburi köçkünlərə düzgün olmayaraq yüksəkliyə görə əlavə əmək haqqı, müvafiq normativ-hüquq aktların tələbləri düzgün tətbiq olunmayaraq BDU-da təhsil alan və Azərbaycan vətəndaşı olmayan tələbələrə də təqaüd ödənilməsi hallarını demirik.

Ötən il isə Hesablama Palatası Bakı Slavyan Universitetində korrupsiya faktı aşkarlamışdı. Aparılan audit yoxlamasının nəticəsindən belə məlum olurdu ki, bu ali təhsil müəssisəsində yaz semestrinin əvvəlində başqa ali təhsil müəssisələrinə köçürülən tələbələrə təhsil almadığı dövrdə düzgün olmayaraq, 2015/2016 və 2017/2018-ci tədris illərində 3 halda olmaqla, 3 min 400 manat təhsil haqqı hesablanıb. Ödənişli əsaslarla təhsil alan, lakin müvafiq tədris illərində universitetlə əlaqə saxlamadığı, həmçinin fərdi tədris planı imzalamadığı üçün növbəti semestrdə xaric edilmiş tələbələrə düzgün olmayaraq, 2015/2016 və 2017/2018-ci tədris illərində 14 halda olmaqla, təhsil haqqı üzrə ümumilikdə 13 150 manat hesablama verilib. Nəticədə əsassız təhsil haqqı borcu yaradılıb, hazırlıq fakültəsinə qəbul edilən 5 nəfər Çin vətəndaşı üzrə hesablama aparılmayıb, nəticədə ümumilikdə 4 min manat təhsil haqqından daxilolmalar icra edilməyib və s. və i.a.

Uzun-uzadı sadalamalara ehtiyac yoxdur. Hesablama Palatası hansı ali məktəbdə audit aparıbsa, orada korrupsiya faktlarının olduğu aşkarlanıb. Universitet bilik ocağı, elm məbədidir. Onun adının yeyinti, mənimsəmə işləri ilə hallandırılması ikiqat qəbuledilməzdir.

Lakin təəssüf ki, bir çox ali məktəb rəhbərləri bu sadə həqiqəti qəbul etməkdə çətinlik çəkir, nəticədə həmin təhsil ocaqlarında rüşvət və korrupsiya dərin kök salır. Düzdür, rektorların özləri mətbuatda həmin hallarla bağlı yazılanları inadla təkzib edir, yalanlamağa çalışırlar. Bununla belə, Hesablama Palatasının yoxlamaları sözügedən məsələdə kimin - universitet rəhbərlərinin, yoxsa kütləvi informasiya vasitələrinin haqlı olduğunu aydın şəkildə ortaya çıxarır.

Ekspertlərin fikrincə, bu cür yoxlamaların həyata keçirilməsi təqdirəlayiqdir. Ancaq belə təftişləri daha intensiv şəkildə həyata keçirmək, eyni zamanda onların nəticələri barədə daha təsirli tədbirlər görmək lazımdır.Mütəxəssislər əmindir ki, əgər bəzi dövlət ali məktəblərinin rəhbərləri reallığı düzgün qiymətləndirməsələr, korrupsiya, rüşvət hallarının kökünü kəsməsələr, biz gələcəkdə icra başçılarının kabinetlərindəcə həbsinə dair videoları rektorlar barədə də izləyə bilərik.



Əldə etdiyimiz məlumata görə, elə Təhsil Nazirliyinin yeni rəhbərliyi də dövlət universitetlərinin fəaliyyətində şəffaflığın gücləndirilməsi qənaətindədir. Bildirilir ki, Təhsil naziri Emin Əmrullayev və komandasından qarşıdakı dövrdə bu istiqamətdə ciddi addımlar atılmasını gözləməyə dəyər...

***Sənan Mirzə***

# YAP Prezident İlham Əliyevə müraciət etdi

***Yeni Azərbaycan Partiyası (YAP) Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə müraciət edib.***

"Unikal"ın məlumatına görə, müraciətdə deyilir:

Zati-aliləri, müzəffər Ali Baş Komandanımız!

Doğma Qarabağın azad edilməsi uğrunda Vətən müharibəsinin möhtəşəm qələbə ilə başa çatması hər bir Azərbaycan vətəndaşının qəlbində böyük qürur və iftixar hissi yaratmışdır. 30 il davam edən işğala son qoyulması, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi, məcburi köçkünlərin köçkünlük həyatının sona çatması və doğma yurdlarına qayıtmaq imkanlarının yaradılması müasir tariximizin ən möhtəşəm hadisəsidir.




Cəmi 44 gün davam edən müharibəyə Azərbaycan Sizin rəhbərliyiniz altında illərlə hazırlaşdı, qələbəyə lazım olan gücünü artırdı. Bir il əvvəl bəyan etdiyiniz "Qarabağ Azərbaycandır!" kəlmələri xalqımızın müqəddəs torpaqlarımız uğrunda savaşının ideya əsası, qələbəyə səsləyən lider çağırışı oldu. Bütün xalq bu çağırışa səs verdi, birləşdi, qələbəmizin əsasına çevrilən milli birliyimizi və həmrəyliyimizi formalaşdırdı. Cəmiyyətimizin bu günlərdə nümayiş etdirdiyi möhtəşəm səfərbərlik xalqımızın Sizin ətrafınızda sıx birləşməsinin bariz ifadəsi olmaqla yanaşı, eyni zamanda Azərbaycanın bütün dünyaya ciddi mesajı kimi qəbul edildi.

Vətən müharibəsində qazanılan tarixi qələbə Azərbaycan xalqının əzmini, qətiyyətini, mübarizliyini, doğma torpaqları uğrunda hər cür fədakarlığa və qəhrəmanlığa hazır olduğunu göstərdi. On minlərlə gənc vətənpərvərin Vətən torpaqları uğrunda vuruşmaq üçün Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinə müraciət etməsi, cəbhə xəttində əsgər və zabitlərimizin göstərdiyi şücaətlər xalqımızın qəhrəmanlıq nümunələri hesab olunmalıdır. Etiraf edilməlidir ki, Xalqın və Ordunun Prezident və Ali Baş Komandan kimi Sizə dərin inamı Vətən müharibəsinin tarixi qələbə ilə başa çatmasında mühüm rol oynamışdır.

Güclü Ordunun yaradılması, Silahlı Qüvvələrimizin ən müasir döyüş vasitələri ilə təchiz edilməsi, şəxsi heyətin peşəkarlıq səviyyəsinin və hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, Ordu ilə xalqının vəhdətinin təmin edilməsi rəşadətli Azərbaycan Ordusunun möhtəşəm qələbəsinin kökündə dayanan həqiqətlərdir. Azərbaycan Ordusu Vətən müharibəsində qazandığı qələbəsi ilə hazırki dünyanın ən güclü, müasir, hazırlıqlı, yüksək döyüş qabiliyyətinə malik olan orduları sırasında layiqli yer tutduğunu əyani şəkildə sübuta yetirdi. İnanırıq ki, müzəffər Ordumuzun döyüş əməliyyatlarını xüsusi peşəkarlıqla planlaşdıraraq həyata keçirmək strategiyası və taktikası digər ölkələrin hərbi strukturları tərəfindən öyrəniləcək və tətbiq ediləcəkdir.

Möhtəşəm hərbi uğurlarımızda Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasının, ölkəmizin hərtərəfli təbliğatının, Ermənistanın işğalçı siyasətinin Sizin rəhbərliyiniz və bilavasitə iştirakınızla ən mötəbər beynəlxalq tədbirlərdə tutarlı şəkildə ifşa edilməsinin, eləcə də çoxsaylı diplomatik nailiyyətlərimizin xüsusi rolu ayrıca vurğulanmalıdır. Həyata keçirilən diplomatik səylər nəticəsində dünya ictimai rəyində Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycanın haqlı mövqeyinin dəstəklənməsi Vətən müharibəsində əldə etdiyimiz böyük qələbənin beynəlxalq əhəmiyyətini ciddi şəkildə artıran amil hesab edilə bilər.

Döyüş meydanında qazanılan hər bir tarixi qələbənin əsasında lider amili dayanır. Hamılıqla etiraf etdiyimiz gerçəklik ondan ibarətdir ki, Sizin Ümummilli Lider, müdrik dövlət başçısı Heydər Əliyevin siyasi varisi kimi zəngin təcrübəniz və yüksək şəxsi keyfiyyətləriniz, Azərbaycan xalqı arasında və dünyada böyük nüfuzunuz doğma Qarabağ uğrunda savaşda uğurlarımızın əsas şərti olmuşdur. Azərbaycanın üçrəngli bayrağının tezliklə işğal olunmuş torpaqlarımızda, Qarabağda dalağandırılacağı barədə verdiyiniz vədləri şərəflə yerinə yetirməyiniz Ulu Öndərimizin və Azərbaycan xalqının Sizə olan böyük etimadının nə qədər dərin köklərə malik olmasından xəbər verir.

Biz sevinir və qürur duyuruq ki, rəşadətli Azərbaycan əsgəri Qarabağ savaşı başlayan dövrdən etibarən verilən qurbanların, şəhidlərimizin, qətlə yetirilən günahsız uşaqların, qadınların, qocaların qanını yerdə qoymadı. İnanırıq ki, savaş meydanında düşmənə endirilən sarsıdıcı zərbələrdən və qazanılan möhtəşəm qələbədən onların ruhları şad olur.

Müzəffər Azərbaycan Ordusunun zəfər yürüşü, düşmənin sonadək bütün torpaqlarımızdan qovulması, Qarabağın işğaldan tam azad edilməsi, uzun illər düyünə düşmüş və region üçün təhlükə mənbəyi olan Dağlıq Qarabağ münaqişəsinin uğurla və ədalətlə həll edilməsi, həm də yaşadığımız bölgədə sülhə və təhlükəsizliyə əvəzsiz töhfədir. Heç şübhə etmirik ki, savaş meydanında əldə etdiyimiz tarixi qələbənin ardınca Azərbaycanı daha böyük gələcək, daha firəvan həyat gözləyir.

Cənab Prezident!

Müqəddəs torpaqlarımız uğrunda Vətən müharibəsində qazandığımız şanlı qələbənin müəllifi də, ilham mənbəyi də Sizsiniz. Bu, Sizin qələbənizdir. Siz Azərbaycanın yeni tarixini yaratdınız. Tarix Sizin adınızı öz şərəf səhifəsinə qızıl hərflərlə həkk edəcəkdir. Siz xalqın qəlbində əbədi yaşayacaqsınız.

Tariximizin ən möhtəşəm qələbəsinin müəllifi kimi Sizi, Ali Baş Komandanı olduğunuz Azərbaycan Ordusunu, rəşadətli əsgər və zabitlərimizi, bütün xalqımızı rəhbərlik etdiyiniz Yeni Azərbaycan Partiyasının çoxminli üzvləri adından səmimi qəlbdən təbrik etmək bizə böyük şərəf və qürur bəxş edir.

Allah Sizi və Azərbaycanı qorusun!

# Kiberhücumların sayı artıb - Nazirlik

***Cəbhədə Ermənistanın genişmiqyaslı təxribatlarının başlandığı gündən, yəni sentyabrın 27-dən etibarən ölkə üzrə kiberhücumların sayı adi günlərlə müqayisədə 5-6 dəfə artıb.***

Bu barədə "Unikal"a Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən bildirilib. Məlumata görə, xarici ölkələrdən daxil olan zənglər, veb-kameraların sındırılması, router və modemlərə kütləvi hücumlar, xəbər saytlarına hücumlar, sosial şəbəkə hesablarının saxtalaşdırılması, fişinq hücumları, demək olar ki, hər gün üzləşdiyimiz düşmən təxribatlarıdır.

Son günlərdə Azərbaycanda "Facebook" istifadəçilərinin hesablarının bloklanması halları ilə bağlı müraciətlərin də sayı artıb.

Nazirlik yanında Elektron Təhlükəsizlik Xidməti "Facebook" sosial şəbəkə istifadəçilərini hesablarının bloklanmasının və ya ləğv edilməsinin qarşısını almaq üçün aşağıdakı qaydalara əməl etməyə çağırır.

**Aşağıdakı hallar "Facebook" hesabınızın bloklanmasına səbəb ola bilər:**

- Özünü başqa şəxs və ya təşkilat kimi qələmə vermək məqsədilə saxta hesabların yaradılması;
- Əqli mülkiyyət hüququnu pozan paylaşımların edilməsi;
- Şəxsi hesabdan biznes məqsədləri üçün istifadə edilməsi;
- Rəy və ya paylaşımların təkrarlanması, eyni anda həddindən artıq dostluq sorğularının göndərilməsi və ya qəbul edilməsi (Facebook tərəfindən spam kimi qəbul edilir);
- Süni yolla bəyənmə, izləyici və baxışların əldə edilməsi;
- Pornoqrafik xarakterli paylaşımların edilməsi (xüsusilə, uşaq pornoqrafiyası);
- Fiziki şəxslər arasında odlu silahların, spirtli içkilər və tütün məmulatlarının alışı və satışı;
- Narkotik vasitələrin və psixotrop maddələrin alışı və satışı;
- Şəxsin irqi və milli mənsubiyyəti, dini və siyasi baxışları, cinsi, cinsi oriyentasiyası, əlilliyi, xəstəliyi və digər hallarla bağlı zorakılığa və təhqirə yol verilməsi;
- Şəxsiyyətin alçaldılması, nifrətə çağırışlar, təhqir və böhtan xarakterli məlumatlar;
- İntihara sövq etmək;
- Sağlamlıq və ictimaiyyət üçün təhlükə yaradan paylaşımların edilməsi;
- Terrorizm və ya zorakılığın təbliği və təşviqi;
- Başqa şəxsin fərdi məlumatlarının icazəsiz paylaşılması;
- Qeyri-qanuni yolla maddi vəsait əldə etmək məqsədi ilə kiberdələduzluq fəaliyyəti;
- Başqasına məxsus sosial şəbəkə hesabının ələ keçirilməsinə cəhdlər;

"Facebook" hesabının bloklanmaması üçün nə etməliyik?

- "Facebook" sosial şəbəkəsindən istifadə şərt və qaydalarına əməl edin.
- "Facebook" hesabınızın bloklanmasına səbəb ola biləcək yuxarıda göstərilən hərəkətlərə yol verməyin.
- Başqalarına məxsus fərdi məlumatlardan istifadə etməklə saxta hesablar yaratmayın.
- Yayılması qanunla qadağan edilən məlumatları paylaşmayın.
- Müəlliflik hüququnu pozan, terrorizmə, zorakılığa və nifrətə təşviq edən paylaşımlar etməkdən çəkinin.
- Başqasına məxsus fərdi məlumatları onların icazəsi olmadan paylaşmayın.
- İnsanlarla ünsiyyət qurarkən təhqir, təhdid və ya digər xoşagəlməz ifadələrdən çəkinin. Şəxsi fikirlərinizi başqalarının hüquqlarını pozmayacaq şəkildə və qarşılıqlı hörmət çərçivəsində ifadə edin.
- Məhsul və xidmətlərin reklamı üçün biznes səhifələrindən istifadə edin.
- Rəy və paylaşımlarınızı təkrarlamayın, süni yolla bəyənmə, izləyici və ya baxış əldə etməyə çalışmayın.
- Bundan əlavə, "Facebook" qaydalarını pozan məzmunları (hesab, rəy, paylaşım, reklam və s.) rəy bildirmədən paylaşımın və ya hesabın sağ tərəfindəki üç nöqtəyə klik etməklə şikayət edin.

"Facebook" hesabı bloklandıqda nə etməliyik?

- Əgər yuxarıdakı qaydaları pozmadığınızı və "Facebook" tərəfindən hesabınızın səhvən bloklandığını düşünürsünüzsə, aşağıdakı keçidə daxil olaraq "Facebook"un rəsmi müraciət formasını doldurun: https://www.facebook.com/help/contact/260749603972907

Şəkildə göstərilən boş xanalara aşağıdakı məlumatları daxil edin:

1. Hesabınızı qeydiyyatdan keçirərkən istifadə etdiyiniz e-poçt ünvanı və ya mobil nömrənizi;
2. Hesabınızda göstərilən ad və soyadınızı ("Facebook"da olduğu kimi);
3. Şəxsiyyət vəsiqənizin aydın görünən şəkli (.jpeg formatında).

Daha sonra "Send (Göndər)" düyməsini sıxaraq müraciətinizi "Facebook"a göndərin.

Müraciət formasının doldurulması ilə bağlı hər hansı çətinliyiniz yaranarsa, www.cert.az saytı və ya reports@cert.az elektron poçt ünvanı vasitəsilə Elektron Təhlükəsizlik Xidmətinə müraciət edin.



## 28 kafe və restoranda qaydalar kobud şəkildə pozulub - RƏSMİ

***Qida Təhlükəsizliyi Agentliyi (AQTA) ictimai iaşə müəssisələrində reydləri davam etdirir.***

Qurumdan "Unikal"a verilən məlumata görə, AQTA əməkdaşları noyabrın 10-u və 12-də Bakı, Sumqayıt şəhərləri, Abşeron rayonu, eləcə də koronavirus (COVID-19) yoluxmalarının artması müşahidə olunan şəhər və rayonlar (Gəncə, Şəmkir, Sabirabad, Ağstafa, Mingəçevir) üzrə 639 ictimai iaşə obyektində 1100 monitorinq keçirib. Sahibkarlıq subyektlərinə qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələbləri izah edilib, icrası məcburi göstərişlər və maarifləndirici tövsiyələr verilib.

Reyd keçirilən 28 ictimai iaşə müəssisəsində Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş qaydalara əməl olunmaması və kobud şəkildə pozulması faktları aşkarlanıb. Aşkarlanmış faktlarla bağlı həmin müəssisələr barədə qanunvericiliyin tələbləri çərçivəsində inzibati tədbirlər görülüb.

Aparılan reydlər zamanı sahibkarlıq subyektlərində, əsasən, işçi heyətin və müştərilərin tibbi maskadan istifadəsinə nəzarət edilməməsi, həmçinin pandemiya dövründə ictimai iaşə müəssisələrinin qida qəbulu zallarında müştəri qəbulu zamanı adambaşına müəyyən edilən sıxlıq normalarına riayət olunmaması ilə bağlı nöqsanlar aşkarlanıb.

Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, qida qəbulu zallarında oturacaqların ara məsafəsi eyni masa arxasında 1 metrdən, masalararası məsafə isə 2 metrdən az olmamalıdır. Koronavirus (COVID-19) pandemiyası dövründə ictimai iaşə müəssisələrində müştəri qəbulu qüvvədə olan norma və qaydalardan 2 dəfə az olmalı və müvafiq olaraq, adambaşına müəyyən edilən sahə ikiqat artırılmalıdır.

## Pensiyaların ödənişi başa çatdırıldı

***Noyabr ayı üzrə pensiyaların ödənişi başa çatdırılıb. Bunu Unikal.org-a açıqlamasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun (DSM) İctimaiyyətlə əlaqələr departamentinin müdiri Rəşad Mehdili bildirib.***

Onun sözlərinə görə, DSMF tərəfindən noyabr ayı üzrə pensiyaların ödənişi başa çatdırılıb. Dövlət qulluqçuları, hərbi və xüsusi rütbəli şəxslərə də noyabr ayının pensiyaları ödənilib. Vətəndaşlar pensiyalarını Beynəlxalq Bankdan və Kapital Bankdan onlara verilmiş kartlar vasitəsi ilə həmin bankın bankomatlarından əldə edə bilərlər.

Qeyd edək ki, Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu üzrə noyabr ayının pensiyaları bu ayın 6-da ödənilib.

## Qara Qarayev Füzulidəki evlərinin fotosunu paylaşdı

***Millimizin və "Qarabağ"ın üzvü Qara Qarayev erməni işğalından azad edilən Füzulidəki evlərinin şəklini paylaşıb.***

Unikal.org xəbər verir ki, ermənilər tərəfindən dağıdılmış evin şəklini votsap statusunda yerləşdirən yarımmüdafiəçi 28 il əvvəl doğulduğu evinə qovuşduğunu yazıb.

# Qalib ölkənin vətəndaşı olmaq başqa bir duyğudur

## Ülvi Quliyev: "Azərbaycan xalqı qalibdir,bizlər qalibik"

***Müsahibimiz Milli Məclisin deputatı Ülvi Quliyevdir. "Unikal" həmin müsahibəni təqdim edir:***

***- Rəsmi şəxslərdən biri kimi deyil,azərbaycanlılardan biri kimi bu günlərdə hansı hissləri keçirirsiniz?***

- Müstəqil dövlətçilik tariximizdə ən qürurlu günləri yaşayırıq.Bu,mübaliğəsiz belədir.Son 30 ilə yaxın müddətdə hər bir azərbaycanlı,hər bir Azərbaycan vətəndaşı,hər birimiz öz içimizdə,qəlbimizdə natamamlıq hissini yaşayırdıq.Ən azından, bizim nəsil bu hissi yaşayırdı.Özümüz-özümüzü qınayırdıq,özümüz-özümüzü günahlandırırdıq. Qarabağdan danışanda, birbirimizin gözünə dik baxa bilmirdik.Təskinliyimiz ondan ibarət olurdu ki,biz müharibəni uduzmamışıq,1-ci Qarabağ savaşını uduzmuşuq.O savaşda verdiyimiz Şəhidlərimizin ruhu bizi rahat buraxmırdı.Onlara görə qisas hissi, işğal altında qalan torpaqlarımız hər birimizi mənən boğurdu.Milyona yaxın soydaşımıza öz Vətənimizdə məcburi köçkün deyərək müraciət edirdik. Bunun da acısını yaşayırdıq.Bu da hər birimizi daxilən sıxırdı.

Torpaqlarımızı işğaldan azad edəcəyimizə inamın sönməsinə imkan verməsək də,Qarabağsız yaşadığımız hər ötən gün,hər ötən il,hər ötən onillik ümidlərimizi xəyala çevirirdi. Özümüzü onunla sakitləşdirirdik ki,işğalçı Ermənistan birinci Savaşda tək olmayıb,havadarı yaxud havadarları olub.Amma düşmən indi də tək deyildi.30 il əvvəlkindən daha güclü idi.Havadarları da qatqat çox idi. Sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsi dediklərimin sübutudur.

***- 44 gün davam edən Vətən müharibəsi şəxsən sizin üçün nə deməkdir?***

- Vətən müharibəsinin nəticəsi olaraq Qalib ölkənin vətəndaşı hissini yaşamaq əvəzolunmaz duyğudur. Azərbaycan xalqı qalibdir,bizlər qalibik.Eyni zamanda,bu müharibə cəmiyyətimizi düşündürən bir çox suallara da cavab verdi.Danışıqların 30 ilə yaxın müddətə uzanmasının səbəblərinə,ermənilərin imitasiya oyunlarına nədən göz yumulduğuna,ermənilərlə yanaşı, status-kvonun daha kimlərin marağına xidmət etdiyinə aydınlıq gətirdi.Hər birimiz şahidi olduq ki,BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin icrasının təmin edilməsində işğalçı Ermənistanla yanaşı,çoxları maraqlı deyilmiş.Bu acı reallığı hər birimiz gördük.Tam əminliklə deyirəm ki,44 günlük Vətən müharibəsi olmasaydı,bu qətnamələr daha çox onilliklər ərzində, bundan sonra da kağız üzərində qalacaqdı. Xalqımızı, gələcək nəsilləri ümidsiz və əlacsız perspektiv gözləyirdi.

Vətən müharibəsi günlərində cənab Prezident xalqımıza dəfələrlə müraciət etdi.Hər müraciətində çoxçox dövlət başçılarının bacarmadığı,cəsarət etmədiyi şəkildə, xalqla açıq və səmimi danışdı.Hərbi uğurlarımıza hansı xarici siyasi təzyiq və təhdidlərin mane olduğunu cəsarətlə dedi.Bu mənzərə təkcə hərbi döyüş meydanında baş vermirdi. İnformasiya savaşında da eyni vəziyyət idi.Düşmən burada da tək deyildi.Hətta demokratik dünyanı təmsil edən media qurumlarının əksəriyyəti işğalçı Ermənistana açıq şəkildə informasiya dəstəyi verirdi.Onlar ermənilərdən məzlum,təqib olunan,guya öz torpağından qovulan toplum imici formalaşdırırdı. Baxmayaraq ki,haqq və tarixi ədalət, beynəlxalq hüquq Azərbaycanın tərəfində idi və tərəfindədir.Düşmənin silahlı birləşmələri qarşısında cənab İlham Əliyevin qurub-yaratdığı,sərkərdəsi olduğu Müzəffər Ordumuz hansı ürəklə dayanmışdısa, informasiya savaşının önündə cənab Prezidentin şəxsən özü eyni mərdlik və iradə ilə dayanırdı.

Əminliklə deyirəm ki, düşmən öz xoşu ilə bir qarış torpağımızı da qaytarmaq fikrində deyildi.Çünki,dəmir yumruğun,qətiyyətli Ali Baş Komandan iradəsinin,haqq savasına çıxan Ordunun, ümumxalq birliyinin hansı güc demək olduğunu indiyədək görməmişdi.28 il ərzində beynəlxalq təşkilatların və vasitəçi dövlətlərin edə bilmədiyini və ya etmədiyini,Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Ordumuz 44 gün ərzində edə bildi,tarixi ədaləti və beynəlxalq hüququ faktiki təkbaşına, döyüş meydanında təmin etdi.

Tarixi Qələbəmiz Azərbaycan dövlətinin ortaya qoyduğu hərbi gücün,Prezident və Xalq birliyinin nəticəsidir.Müharibə günlərində ilk növbədə qardaş Türkiyənin verdiyi siyasi və mənəvi dəstəyin tarixi əhəmiyyəti danılmazdır.Bu,əsl qardaşlıq nümunəsidir.

***- Əgər təklif olunsa idi ki,hisslərinizi bir cümlə ilə ifadə edəsiniz,nə deyərdiniz?***

- Şəxsən mən bunu edə bilmərəm.Yaşadığımız hiss və duyğular,şahidi və iştirakçısı olduğumuz tarixi anlar o qədər yüksəkdir ki,şəxsən mənim üçün bu mümkünsüzdür. Amma yaşadığım hisslərin təsiri altında deməyə özümü borclu hesab etdiyim fikirləri bir neçə cümlə ilə belə ifadə edərdim.30 ildən sonra natamamlıq kompleksindən qurtulduq.Qanla,amansız döyüşlə geri aldığımız Şuşa qalası,işğaldan azad olunan torpaqlarımız bundan sonra bütün dünyanı məcbur edəcək ki,Milli Qürur hissimizə hörmətlə yanaşsın.Yaşadığımız bu tarixi günlər bütün Şəhidlərimizin qisas günləri idi.Allah onlara rəhmət eləsin,xalqımıza və doğmalarına səbr versin.Yaralı həmvətənlərimizə Uca Tanrıdan şəfa diləyirəm.



Prezidentimiz,Ali Baş Komandanımız cənab İlham Əliyev 17 il bundan əvvəl xalqımıza verdiyi sözə Böyük rəhbər və Qalib sərkərdə kimi əməl etdi.O,həm də bir oğul olaraq Ulu Öndərimiz Heydər Əliyevin vəsiyyətini yerinə yetirdi.Belə bir şərəfli ömr hər övlada,hər insana və hər rəhbərə nəsib olmur.Allah Ulu Öndərimizə rəhmət eləsin,ruhunu şad etsin.

Tanrı Prezidentimizə, Xalqımıza,Ordumuza hər zaman yar olsun,Azərbaycanı sevənləri və ona xidmət edənləri bundan sonra da qorusun!

# "Azərbaycan sona qədər gedib düşməni diz çökdürə bilərdi" - Siyasi şərhçi

***"Unikal" Rusiyanın "Moskovskiy Komsomolets" nəşrinin siyasi şərhçisi, tanınmış jurnalist Aleksandr Budberqin APA-nın Moskva müxbirinə müsahibəsini təqdim edir.***

***- Aleksandr Petroviç, noyabrın 10-da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ müharibəsinə, belə demək mümkündürsə son qoyuldu. Rusiya və Türkiyənin birgə səyləri nəticəsində münaqişə zonasında atəşkəs əldə olunması haqqında sənəd qəbul edildi. Ümumilikdə, qəbul olunan sənədi necə qiymətləndirirsiniz?***

- Birinci mövqeyim ondan ibarətdir ki, müharibənin bitməsi hər zaman yaxşı haldır. Müharibənin bitməsi, hansı ki, bu münaqişə deyil, genişmiqyaslı müharibə idi, mənim nöqteyi-nəzərimdən hər zaman alqışlanır. Mənə elə gəlir ki, müharibə vaxtında bitdi. Ona görə ki, hər zaman elə təəssürat yaranır ki, daha hansısa hücumu etmək olar. Qələbənin Azərbaycan tərəfində olması açıq-aydın görünürdü. Azərbaycan bu müharibəni hərbi və əlbəttə ki, siyasi planda uddu. Sona qədər gedib düşməni diz çökdürə də bilərdi. Lakin birincisi, bunu etmək Azərbaycana lazım idimi? Əgər bunu etsəydi, bu münaqişə ətrafındakı vəziyyəti gərginləşdirəcəkdi. Rusiya, İran və digər ölkələri nəzərdə tuturam. Mənə elə gəlir ki, müharibənin bitməsi vaxtında baş verdi. Bu, sözsüz ki, Azərbaycanın hərbi və siyasi uğurudur.

Əslində qəbul olunan sənəd münaqişənin bitməsi yox, müharibənin bitməsidir. Mənə elə gəlir ki, bu sənəd Azərbaycan tərəfindən vaxtında imzalanıb. Bu sənəd regiondakı sabitliklə oynamaq istəyən qüvvələrə imkan vermədi. Bilirik ki, İran şimal sərhədinə qüvvələr toplamağa başlamışdı. Anlayırıq ki, Rusiyanda münaqişəyə münasibətdə gərgin vəziyyət var. Məncə, Azərbaycanın siyasi rəhbərliyi çox vaxtında bu qərarı verdi və qərar Azərbaycanın böyük hərbi və siyasi qələbəsidir.

***- Ermənistan-Azərbaycan münaqişəsinin tarixi ilə bağlı kifayət qədər məlumatlı insansınız. Son münaqişəni necə xarakterizə edərdiniz?***

- Burada münaqişənin tərkibini bir neçə hissəyə bölmək vacibdir. Mənim nöqteyi-nəzərimdən bu münaqişə hərbi planda XXI əsrin ilk münaqişəsi idi. Mən indiyə kimi bu cür iki müntəzəm ordunun istifadəsi ilə, xüsusən Azərbaycan tərəfindən tətbiq olunan hərbi taktikanı, yeni texnologiyalara və texnoloji qərarlara əsaslanan hərbi əməliyyatları görməmişdim. Bu mənada Azərbaycan rəqibinin aşağı texnoloji inkişaf səviyyəsində qaldığını nümayiş etdirdi. Fikrimcə, bu mənada Azərbaycanın müharibə təcrübəsi sözsüz ki, Moskvadan Nyu-Yorka kimi tədqiq olunacaq. Dünyanın bütün akademiyaları sözsüz ki, bu müharibəni XXI əsrin ilk əsl müharibəsi kimi tədqiq edəcək. Bu vəziyyət onu göstərir ki, gələcək keçmişə qalib gəlir. Aydın olur ki, bir neçə il bundan qabaq əldə olunması çətin olan texnikalar heç bir həlledici rola malik deyil. Həmin texnikalar sadəcə olaraq pilotsuz uçuş aparatları ilə məhv edilir. Xüsusi təyinatlılar isə möhkəmləndirilmiş rayonu ötüb keçib döyüş əməliyyatının gedişatını həll edə bilər. Necə ki, bunu Şuşada Azərbaycan xüsusi təyinatlılarının etdiyinin şahidi olduq. Ona görə də, bu hərbi əməliyyatların əhəmiyyəti



bütün dünya üçün maraqlı olacaq. O ki, qaldı müharibənin geosiyasi reallıqlarına... Əgər biz Azərbaycanı götürsək, həll olunmamış Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın bədənində, bu ölkənin gələcəyində böyük yara kimi qalacaqdı. Ona görə də, onu həll etmək lazım idi. Onu da qeyd etmək lazımdır ki, prezident İlham Əliyev hər zaman bu münaqişəsinin hərbi yolla həllinin mümkünlüyünə inanıb. Heç də hər kəs buna inanmırdı. İlham Əliyev azlıqda idi. Lakin məlum oldu ki, o haqlıdır. Geosiyasi reallıq baxımından məncə, Azərbaycan bu yaranı sağaltmağa nail oldu. Bu yaranının kritik kütləsi aradan götürülüb. Fikrimcə, Azərbaycanın inkişafı və ümumilikdə regionun inkişafı üçün vəziyyəti dəyişir. Deyərdim ki, bu, Ermənistan üçün də vəziyyəti dəyişir. Ermənistan anlamalıdır ki, bacarmadığını işlə deyil, nəhayət ki, ölkə daxilindəki problemləri, öz iqtisadiyyatı, qonşuları ilə inteqrasiya prosesi, müxtəlif iqtisadi layihələrlə məşğul ola biləcək. Ermənistan indiki vəziyyətində prinsipcə saxlaya bilmədiyi şeylərə güc, qüvvə sərf etməyəcək. Düşünürəm ki, bu günə kimi Ermənistan Dağlıq Qarabağı süni şəkildə, Moskvadan və digər yerlərdən olan dostlarının hesabına saxlayırdı. Ona görə də, bu problemi sülh yolu ilə həll etmək mümkün olmurdu. 2011-ci ildə Kazanda biz sazişin imzalanmasına millimetr qədər yaxın olmuşduq. Hesab edirəm ki, o zaman İrəvanın mövqeyinə görə bu saziş imzalanmadı. Həmin saziş imzalansaydı, bu gün müharibə baş verməzdi, minlərlə itkilər olmazdı. Nəticə isə indiki vəziyyətə az-çox oxşar olacaqdı. Təbii ki, indi vəziyyət Azərbaycan üçün daha yaxşıdır. Kazandakı sazişə görə, ermənilərin kompakt yaşadıqları rayonlarla Ermənistan arasında dəhliz yaradılacaqdı, ətraf rayonlar Azərbaycana qaytarılmalı idi. Bu isə müharibə yolu ilə baş verdi. Laçın dəhlizinə qarşılıq Naxçıvana dəhliz verilməsi də çox mühüm amildir. Mənə elə gəlir ki, bu, Azərbaycan üçün çox müsbət haldır.

***- Sizcə, Azərbaycanın bu müharibədəki nümayiş etdirdiyi hərbi uğurların sonda qəbul olunan sənədə necə təsiri oldu?***

- Bu sənəd sözsüz ki, Azərbaycanın nəhəng qələbəsidir. Praktiki mənada isə bu, hamı üçün qələbədir. Hətta deyərdim Ermənistan üçün də... Ermənistan ona lazım olmayan yükdən qurtulur. Hansı ki, o bu yükü özü daşıya bilmirdi. İndi isə, Ermənistan öz ölkə daxili problemləri ilə məşğul ola bilər. Ona görə də düşünürəm ki, ümumilikdə Azərbaycan üçün vəziyyət çox yaxşıdır. Azərbaycan hərbi qələbə çalıb. Hər şey döyüş meydanında həll olundu. Yekunda aydın oldu ki, Azərbaycan Ordusu daha yaxşı hazırlıqlı, daha yaxşı təlimlidir. Hərbi əməliyyatları daha yaxşı həyata keçirir. Bütün bunlar Azərbaycanın uğurlarını müəyyən etdi. Bu müharibə olmasaydı, döyüş meydanında Azərbaycan uğurlar əldə etməsəydi, Ermənistanla heç bir sazişdən söhbət gedə bilməzdi. Fikrimcə, Ermənistan tərəfi bu qərarı silah təhlükəsi altında verib. Burada hər şey Azərbaycanın Ordusunun hərbi uğurlarına söykənir. Bunsuz bütün bunlar baş verə bilməzdi.

***- Münaqişə regionunda dayanıqlı sülh üçün hansı addımlar atılmalıdır?***

- Hesab edirəm ki, ilk növbədə tərəflərin ayrılması aparılmalıdır. Daha sonra iqtisadi, kommersiya əlaqələrinin qurulmasının mümkünlüyü haqqında fikirləşmək lazımdır. Çünki ticarət, insanlarının həyat səviyyəsinin yaxşılaşdırılması ən yaxşı dərmandır.

***- Bu gün regionda yeni qüvvələr balansı necədir? Təbii ki, bu balans birinci Qarabağ müharibəsi dövründəki kimi deyil.***

- Əgər 1994-cü ildə bitən Birinci Qarabağ müharibəsi haqqında danışsaq, bu müharibə dağılan Sovet İttifaqının daxilində baş vermişdi və ittifaqın daxilindəki problemləri həll etməyə icazə verilmirdi. İndiki müharibə zamanı isə artıq dünya dəyişib. Təkcə dünya deyil, Rusiya da dəyişib. Onun başqa məqsədləri var. Rusiya artıq keçmiş Sovet İttifaqı ölkələrində öz maraqlarını sərt müdafiə edə bilmir. Rusiyanın bunun üçün təsir alətləri və imkanı yoxdur. Buna müvafiq olaraq regionda başqa qüvvələrin maraqları meydana çıxır. Regionda qüvvələr balansı indi daha çox Azərbaycan üçün uğurludur. Azərbaycan öz daxilindəki yaranı sağaltmış, problemi həll etmiş oldu. Lakin başa düşüləndir ki, kiçik ölkələr regionda böyük, dünya miqyasında böyük maraqları mövcud olan oyunçularla hesablaşmağa məcburdurlar. Bunlar Rusiya, Türkiyə, ABŞ və Avropadır. Həmin oyunçular heç yerə getməyiblər. Onlar əvvəlki kimi bu regiondakı vəziyyətə də təsir edə bilirlər.

***- Sizcə, törətdiyi təxribatlarla Azərbaycanı müharibəyə sövq edən Ermənistanın taleyi necə olacaq?***

- Ermənistanın taleyi bu ölkənin vətəndaşlarından asılı olacaq. Onların baş verənlərdən hansı nəticəni çıxartmalarından asılı olacaq. Ermənistan üçün uğur regionun digər ölkələri, Türkiyə və Azərbaycanla iqtisadi əlaqələrə başlaması ilə olacaq. Ermənistanın iqtisadiyyatı güclü olmasa, onun heç bir ordu quruculuğundan söhbət gedə bilməz. Hakimiyyətə gələn Paşinyan Rusiyadan asılı olmayan Ermənistan yaradacağını bildirdi, lakin bunun qarşılığında heç bir iş görmədi və bununla da Ermənistanı ağır vəziyyətdə qoydu. Fikrimcə, Ermənistanın taleyi baş verən hadisələri etiraf edib qəbul etməsindən asılı olacaq. Məncə, Ermənistan bu vəziyyətdən iqtisadi mənfəət əldə edəcəyini anlamalıdır.

***- Sizcə, bu, Azərbaycan-Rusiya münasibətlərinə zərbə vurmurmu?***

- Əlbəttə ki, bunlar sözsüz ki, Rusiya-Azərbaycan münasibətlərinə zərbə vurur. Burada heç başqa sözə ehtiyac yoxdur. Ötən ay Bakıda olmuşdum. Heç kəs mənim kimi azərbaycanlıların Rusiyaya və onun vətəndaşlarına olan isti münasibətini bilmir. Bu hər zaman belə olub. Bu dəfə Bakıya gedəndə azərbaycanlıların Rusiyadan incidiyinin şahidi oldum. Mən sadə insanları nəzərdə tuturam, hansı ki, onlar dövlətlər arasında olan siyasi əlaqələri yaxşı anlamırlar. Həmin inciklik məhz Rusiya telekanallarına görə idi. Çünki Rusiya telekanallarındakı bardaq vəziyyət sadə azərbaycanlıların Rusiyaya olan münasibətini, iki dövlət arasındakı millətlərarası münasibətləri pozur. Bilirik ki, Azərbaycanda 300-dən çox rus məktəbi fəaliyyət göstərir. Bu, həm də Azərbaycan xalqının rus xalqına olan münasibətinin göstəricisidir. Ona görə də hesab edirəm ki, çox təəssüf ki, bir qrup vicdanı təmiz olmayan adam bu münasibətlərə təsir edir. Onlar jurnalist deyillər, propaqandaçılardır. Bunu onların özləri də bilir. Həmin propaqandaçılar öz şəxsi maraqları naminə nəyəsə təsir etməyə cəhd edirlər. Onlar təkcə Azərbaycan-Ermənistan mövzusunu işləmirlər, başqa mövzuları da işləyirlər. Ona görə də, hələ ki lazımdırlar. Dəyişilmək vaxtları çatmayıb. Məncə, Rusiya hakimiyyətinin bu barədə anlayışı var. Hesab edirəm ki, Rusiya dövlət kimi bu dəfə Ermənistan-Azərbaycan münaqişəsinə emosional olaraq ötən illərlə müqayisədə az cəlb olundu. Bu məqamın özü də maraqlıdır. Həmin propaqandaçıları dövlətin mövqeyinə təsir etmək üçün telekanallardakı bardaqxanalarda əllərindən gələni etsələr də buna nail ola bilmədilər. Yeri gəlmişkən, bu obyektiv reallıqdır. Bu, Rusiyanın dövlət olaraq bu münaqişəyə, Azərbaycan və Ermənistana olan real münasibətidir.

# "Dəymiş ziyanın qiymətləndirilməsinə BMT ekspertləri cəlb olunmalıdır" - Vüqar Bayramov



***"Ermənistanın 30 il işğal altında saxladığı ərazilərimizə vurduğu ziyana görə beynəlxalq məhkəmə yolu ilə kompensasiyanın ödənilməsinin tələb edilməsinə dair dünya təcrübəsində oxşar nümunələr var".***

Bunu Milli Məclisin deputatı Vüqar Bayramov deyib. Deputat bildirib ki, 30 ilə yaxın işğal altında qalan ərazilərimizdə infrastruktur, evlər, inzibati və sosial binalar Ermənistan tərəfindən tamamilə dağıdılıb və meşələr məhv edilib:

"Dəymiş ziyanla bağlı fərqli rəqəmlər olsa belə, bu, milyard dollarlar ilə ölçülür. Birinci və İkinci Dünya müharibələrindən sonra dəymiş ziyana görə kompensasiyaların ödənilməsi faktları qeydə alınıb. Körfəz Müharibəsindən sonra İraqdan Küveytə vurduğu ziyanın ödənilməsini tələb edən BMT-nin 687 saylı qətnaməsi qəbul olunub. O zaman BMT Kompensasiya Komissiyası dəymiş ziyanın məbləğini 52.4 milyard dollar müəyyənləşdirib. Həmin vəsaitin isə 48.7 milyard dollarının ödənilməsinə artıq nail olunub.

Bu baxımdan, dəymiş ziyanın məbləği hesablanandan sonra Azərbaycan da beynəlxlaq məhkəməyə müraciət edərək işğalçı Ermənistan tərəfindən kompensasiyanın ödənilməsini tələb etmək hüququna malikdir. Daha məqsədəuyğun olardı ki, dəymiş ziyanın qiymətləndirilməsinə BMT ekspertləri də cəlb olunsun. Bu beynəlxalq məhkəmə prosesində mövqeyimizi daha da gücləndirər".

V. Bayramov bildirib ki, beynəlxalq praktika son dövrlər belə kompensasiyanın ödənilməsi ilə bağlı verilən məhkəmə qərarlarının çoxunun fərdi müraciətlər əsasında reallaşdığını göstərir:

"Bu o deməkdir ki, 30 illik işğal nəticəsində əmlakı, təsərrüfatı Ermənistan silahlı qüvvələri tərəfindən məhv edilən ölkə vətəndaşlarımızın da Avropa Məhkəməsinə müraciət etmək hüququ var. Kompensasiyanın ödənilməsi ilə bağlı beynəlxalq məhkəmə qərarı çıxarılandan və ya beynəlxalq qətnamələr qəbul olunduqdan sonra hətta kasıb ölkələr belə o vəsaiti tam və ya qismən ödəyiblər. Bu baxımdan, Ermənistanın kasıb olması onu işğal nəticəsində vurduğu ziyana görə kompensasiya ödəmək məsuliyyətindən azad etmir".

# Kamran Əliyev Argentinanın Baş Prokuroruna məktub göndərdi

***Oktyabrın 4-də Azərbaycan Respublikası Baş Prokuroru Kamran Əliyev Argentina Respublikasının Baş Prokuroru Kasal Eduardo Ezeqielə rəsmi məktub ünvanlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı döyüş əməliyyatlarına və mülki dinc əhalimizə qarşı terror aktlarının törədilməsinə xarici ölkələrdən xeyli sayda muzdlu şəxslərin cəlb edilməsi barədə məlumatlandıraraq həmin terroçuluq fəaliyyətinin Ermənistanın hərbi-siyasi rəhbərliyi və bir çox ölkədə olan erməni diasporlarının hesabına maliyyəşdirilməsini bildirmişdir.***

Baş Prokurorluğun Mətbuat Xidmətindən Unikal.org-a verilən məlumata görə, Argentina Respublikasının Baş Prokuroru öz növbəsində 29.10.2020-ci il tarixdə rəsmi cavab məktubu ünvanlamaqla Baş Prokuror Kamran Əliyevə Dağlıq Qarabağ münaqişəsi ətrafında baş vermiş hadisələrlə bağlı məlumatlandırılması ilə əlaqədar öz təşəkkürünü bildirərək, münaqişə zamanı mülki şəxslərin həlak olması ilə bağlı öz dərin kədərini ifadə edib.

Qeyd edilmişdir ki, terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə Argentina Respublikasının prioritet məsələlərindən biridir və bu sahədə mübarizənin gücləndirilməsi məqsədilə Baş Prokuroluğun tərkibində ixtisaslaşmış qurum - Terrorizmin Hərtərəfli Təhlili Katibliyi (SAİT) yaradılmışdır.

Argentina Respublikasının Baş Prokuroru, terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə daim diqqətdə saxlanılmaqla, prokurorluğun bütün fəaliyyət istiqamətləri üzrə sıx əməkdaşlıq və dostluq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduğunu qeyd etmişdir.

# Emin Əmrullayevdən böyük "təmizləmə"...

## Yeni nazirin işdən çıxardığı vəzifəlilərin siyahısı getdikcə genişlənir - proses daha da güclənəcək

***Təhsil naziri Emin Əmirullayev bu sektorda ciddi islahatlara start verib. O, bir çox köhnə kadrlarla yolları ayırmaq yolunu tutub. Artıq ilk addımlar ortadadır.***

Təxminən yarım ay öncə məlum oldu ki, Mingəçevir Şəhər Təhsil Şöbəsinin müdiri Sahib Məmmədovun fəaliyyəti ilə bağlı Təhsil Nazirliyi tərəfindən müvafiq araşdırmalar aparılıb.

Araşdırmalar nəticəsində məlum olub ki, Sahib Məmmədov işlədiyi dövr ərzində vəzifə funksiyalarının icrasında səhlənkarlığa yol verib. Həmçinin şəhərin təhsil göstəricilərinin yaxşılaşdırılması istiqamətində ciddi fəaliyyəti müşahidə edilməyib.

Qeyd olunanlar nəzərə alınaraq, Təhsil nazirinin müvafiq əmri ilə Sahib Məmmədov Mingəçevir Şəhər Təhsil Şöbəsinin müdiri vəzifəsindən azad olunub.

Bundan əvvəl, sentyabrda isə Bərdə Rayon Təhsil Şöbəsinin müdiri Rzaqulu Şərifov və Samux Rayon Təhsil Şöbəsinin müdiri Gülağa Hüseynovun əmək müqaviləsinə xitam verilmişdi. Belə ki, çalışmanın yaş həddinə çatmış hər iki təhsil şöbə müdirlərinin fəaliyyətlərinin qiymətləndirilməsi nəticəsində onların dövründə Bərdə və Samux rayonları üzrə təhsil nəticələrinin qənaətbəxş səviyyədə olmadığı ortaya çıxmış və onlarla bağlanmış əmək müqaviləsinin növbəti müddətə uzadılması məqsədəmüvafiq hesab edilməmişdi.

Təhsil Nazirliyindəki mənbələrdən "Unikal"a daxil olan məlumata görə, E.Əmirullayev rəhbəri olduğu qurumda təmizləməni davam etdirəcək. Bu zaman xüsusilə təhsil səviyyəsinin aşağı olduğu rayonların təhsil şöbələrinin müdirlərinin əvəzlənməsinə üstünlük veriləcək. Məsələn, tələbə qəbulunun az olduğu şəhər və rayonların təhsil şöbəsi müdirlərinin azad olunması gözlənilir.

Bundan başqa, təhsil orqanları və müəssisələrində neqativ halların, qanun pozuntularının, korrupsiyaya şərait yaradan faktların aşkar edilməsi, nöqsanlara yol vermiş məsul şəxslərin müəyyənləşdirilməsi istiqamətində də intensiv tədbirlərin görüldüyü və bu prosesin qarşıdakı müddətdə daha da gücləndiriləcəyi deyilir.

Ekspertlər də E.Əmirullayevin Təhsil Nazirliyində, ümumilikdə isə təhsil sahəsində davamlı, ardıcıl, prinsipial "təmizləmə" işləri aparmasına ciddi ehtiyac duyurlar. Onların fikrincə, Azərbaycan təhsilinin əksər göstəricilərinə görə dünya standartlarından geri qalır. Hesab edilir ki, müasir dünyanın təhsil meridianında özünə yer tutmuş dünya standartlarına uyğun modern təhsil sisteminin yaradılması istiqamətində fəaliyyətlər davam etdirilməlidir. Düzdür, son illər ərzində respublikamızda təhsilin bütün pillələrində islahatyönümlü tədbirlər həyata keçirilir. Lakin ekspertlər belə düşünürlər ki, hələ də ciddi irəliləyiş hiss olunmur. Buna görə də ciddi islahatlara ehtiyac olduğu deyilir.



Misir Mərdanovdan sonra təhsil naziri təyin edilən iki şəxsin dövründə mühüm islahatlar aparılsa da, təhsil sektorunda bir çox neqativ hallar ya tamamilə, ya da qismən aradan qaldırılsa belə, mütəxəssislərin qənaətinə görə bir sıra köklü problemlər qalırdı. Məsələn, pedaqoji təhsili olmayan şəxslər hələ də direktor vəzifəsini tutur, hansısa neqativ hallar zamanı çevik reaksiya verilmir, nazirliyin reaksiyası çox zaman təcili tibbi yardım həkiminin xəstə dünyasını dəyişdikdən sonra özünü yetirməsinə bənzəyirdi.

Bundan başqa, saxta sənədlərdən istifadə edərək müəllim kimi fəaliyyət göstərənlərin heç də hamısı işdən azad edilməmişdi; vətəndaşların müraciətlərinə heç də həmişə qısa müddətdə baxış həyata keçirilmirdi.

Həmçinin uzun illərdir təhsilimizin ağrılı yerlərindən biri sayılan və sağalmasını gözləyən dərslik problemi də aktuallığını qoruyurdu. Dərsliklərin məzmun və forma baxımından keyfiyyəti ətrafında müzakirələr və mübahisələr səngimək bilmirdi.

Ekspertlər düşünürlər ki, Emin Əmrullayev start verdiyi islahatları, təmizləmə əməliyyatını sürətlə, operativ və obyektiv, eyni zamanda ardıcıl və prinsipial şəkildə davam etdirəcəyi təqdirdə biz yaxın illərdə Azərbaycan təhsilində müsbət mənada kəskin dönüşün, yüksək nəticələrin şahidi ola bilərik.

Xatırladaq ki, E. Əmrullayev bu il iyulun 27-də Azərbaycan Respublikasının Təhsil naziri təyin edilib. Həmin vaxtadək isə o, adıçəkilən nazirliyin Təhsilin inkişafı proqramları şöbəsinin müdiri vəzifəsində çalışıb.

**Orxan Həsənli**

# 44 günlük Vətən Savaşının möhtəşəm sonu...

***Sentyabrın 27-dən başlanan əks-hücum əməliyyatları müzəffər Azərbaycan Ordusunun gücünü düşmənə göstərdi. Qısa müddət ərzində sarsıdıcı zərbə alan Ermənistan sonda kapitulyasiya aktına getməyə məcbur qaldı və Ağdam, Kəlbəcər və Laçın rayonlarını siyasi yolla geri qaytarmaq öhdəliyi götürdü.***

Azərbaycan bu müddət ərzində olduqca böyük uğurlara imza atdı və xalqımızın işğal faktı ilə barışmadığını bütün dünyaya bir daha bəyan etdi. Belə ki, rayon mərkəzləri daxil olmaqla Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı rayonlarının böyük hissəsi, Hadrut qəsəbəsi, Xocavənd, Xocalı və Laçın rayonlarına daxil olan bir sıra kəndlər, Murovdağ və Ağdərə istiqamətində xeyli strateji yüksəkliklər düşmən tapdağından azad olundu. Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Şuşa şəhərinin işğaldan qurtulmasını isə ayrıca vurğulamaq lazımdır.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən Savaşı və işğaldan azad olunan torpaqlarımızın gələcəyi haqda verdiyi mühüm mesajlara da diqqət çəkilməlidir: "Bu, yeni nəsil müharibə üsuludur, hansı ki, planlaşdırma, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir. Ancaq mən bunu artıq bir neçə dəfə demişəm, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir. Biz sübut etdik ki, biz böyük xalqıq. Bu birlik bizə imkan verəcək ki, işğaldan azad edilmiş torpaqlara yenidən həyat qaytaraq, məcburi köçkünlərimizi o yerlərə maksimum qısa müddət ərzində qaytaraq. Qarabağ bölgəsi, gözəl tarixi diyarımız sanki yenidən doğulacaq, yenidən canlanacaq, dirçələcək. Azərbaycanın ayrılmaz hissəsi və ən gözəl guşələrindən biri olan Qarabağ əsl cənnət məkanına çevriləcəkdir".

Bu barədə "Unikal"a açıqlama verən sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli deyib ki, Azərbaycan Ordusunun 44 günlük mübarizəsi qələbə ilə yekunlaşmalı idi və yekunlaşdı. Onun sözlərinə görə, siyasət mümkün olanı əldə etməkdir. İndiki şəraitdə Azərbaycan ordusu böyük uğurlar qazanıb və mümkün olanın maksimumunu əldə edib. Q.Hüseynli Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin imzaladığı üçtərəfli bəyanatdan danışarkən bildirib ki, Rusiyanın bu məsələlərdə beynəlxalq hüquqa zidd olan hər hansı addım atmağa cürət etməyəcək: "Siyasət mümkün olanı əldə etməkdir. İndiki şəraitdə Azərbaycan ordusu böyük uğurlar qazanıb və mümkün olanın maksimumunu əldə edib. Doğrudur, Rusiya ordusunun bölgəyə gəlməsi və sülhməramlı fəaliyyətə başlaması müəyyən hiss-həyəcan yaradıb. Bu da təbiidir, çünki Rusiya sülhməramlıları Abxaziyada, Osetiyada özlərini o qədər də yaxşı göstərməyib. Burda da ermənipərəst mövqe tutacaqlarını güman edənlər var. Türkiyə Monitorinq Mərkəzində təmsil olunacaq. Yəqin ki, elə sülhməramlı qüvvələrin tərkibinə də qatılacaqlar. Türkiyə Azərbaycana və Cənubi Qafqaza möhkəm daxil olub və möhkəmlənməkdə də davam edəcək. Əlbəttə, bizim tam gücümüz-qüdrətimiz var idi ki, ermənilər üzərində tam və qətiyyətli qələbə qazanaq və onları burdan tamamilə qovub çıxaraq. Kəlbəcərdən, Laçından, Qubadlı və Ağdamın yerdə qalan hissələrindən. Amma xristian dünyası bu məsələlərdə Azərbaycana böyük təzyiqlər göstərdi. Biz öz torpaqlarımıza soxulmuş yağı düşməni bu torpaqlardan çıxarırdıq. Heç kəsə ziyan vurmurduq, sadəcə öz torpaqlarımızı azad edirdik. Buna dözməyən, bununla barışa bilməyən qüvvələr - Amerikadan tutmuş Fransaya kimi atəşkəs imzalamağı tələb etdilər."




Bununla belə Q.Hüseynli Azərbaycanın tələblərinin yerinə yetirildiyi qənaətindədir: "Bizim də tələblərimiz var idi. Azərbaycan prezidenti demişdi ki, ermənilər işğal etdikləri torpaqların yerdə qalanından çıxmaq barədə təqvim cədvəli versinlər. Bu cədvəli bizə verdilər, ayın 15-nə qədər Kəlbəcər azad olunmalıdır, ayın 20-nə qədər Ağdamdan çıxmalıdırlar. Dekabrın 1-nə qədər isə Laçını boşaltmalıdırlar. Yox, dedikləri cədvələ uyğun davranmayacaqlarsa, Azərbaycan ordusu fəaliyyətə başlayacaq. Bunların bu ərazidən çıxarılmasını Rusiya öz öhdəsinə götürüb".

Politoloq Türkiyənin regionda möhkəmlənməsini ölkəmizin milli maraqları baxımından müsbət qiymətləndirir: "Türkiyə Monitorinq Mərkəzində təmsil olunur. Türkiyənin ixtiyarı olacaq ki, bütün Laçın koridorunda, bütün sülhməramlılar yerləşən ərazilərdə dronlarla, müxtəlif texniki vasitələrlə monitorinq həyata keçirsin. Hər hansı pozuntu aşkar ediləndə bunun qarşısını alsın. Türkiyə regiona ciddi gəlib və zənnimcə, Türkiyənin köməyi ilə biz monitorinq prosesini uğurla həyata keçirəcəyik".

Milli Məclisin deputatı Sahib Alıyev hesab edir ki, sentyabrın 27-də başlayıb, noyabrın 10-da işğalçı Ermənistanın təslimçilik aktıyla bitən proses Vətən Savaşındakı Böyük Qələbəmizdir. Onun sözlərinə görə, on noyabr anlaşmasıyla ofsaytda qalan bəlli güclərin təsiri altında olan, tapşırıqlarını yerinə yetirən, üstəlik də bu gün məğlub Paşinyanın timsalında həm öz keçmişlərini, eləcə də həm də gələcəklərini görən siyasətbazların, populistlərin, bir də bəzi aşırı maksimalistlərin dodaq büzmələrini nəzərə almasaq, Qələbəmizə içindəki istəklər prizmasından yox, beynəlxalq vəziyyəti, normaları, dövlətinin, gücünü, marağını dəqiq qiymətləndirərək yanaşan hər bir azərbaycanlı necə bir uğura imza atdığımızın yəqin yaxşı fərqindədir. Daha informasiyalılar isə onun da yaxşı fərqindədirlər ki, bu Qələbənin qazanılmasında müstəsna xidməti olan Ali Baş Komandanımız çox böyük təzyiqlərə sinə gərdi. O, ön xətdə düşmənlə əlbəyaxa vuruşan əsgərlərimizdən də qat-qat artıq risqlərə getdi. Getdi və müzəffər Sərkərdə kimi əbədi olaraq adını tarixə yazdırdı. Həm də təkcə yazdırmadı, tarixin 200 illik axarını da dəyişdirdi. İşğalçıların arxasında kimlərin durduğunu göz önünə gətirib də təəssüflə deməliyik ki, bu dünya onların dünyasıydı. Amma onların dünyasında, onlara hərtərəfli dəstək verən güclərin beynəlxalq konyukturanı müəyyənləşdirdiyi dünyada obrazlı desək, dünyanı başlarına dar edərək təslimçilik aktı imzalatdırıldı".

Millət vəkilinin qənaətincə, bu qədər təzyiqlər və risqlərin fonunda cənab İlham Əliyevi elə qoruyan da, hifz və müzəffər edən də həmən o getdiyi böyük risqin araxasındakı hisslər- ölçüyəsığmaz vətənpərvərlik, xalqına, kökünə bağlılıq və necə olursa-olsun ata vəsiyyətinə əməl etməyə çalışan oğul fədakarlığıdır. Çünki əsl, içdən gələn, yüksək konsentrasiyalı hiss özü güc olmaqla yanaşı, həm də zirehdi.

Hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə isə bildirib ki, müharibənin dayandırılmasını özündə ehtiva edən sülh bəyanatı Azərbaycanın maraqlarını təmin edir. Onun qənaətincə, doqquz bənddən ibarət olan bu bəyanatla Qələbəmiz təmin edildi. Hitler faşizminin kapitulyasiyası kimi, erməni faşizmi də kapitulyasiya etdi: "Bu, Azərbaycanın şanlı qələbəsidir. Biz işğaldan azad olunmuş bütün Qarabağda Azərbaycan qanunlarını, Azərbaycan Konstitusiyasını bərpa edirik. Eyni zamanda, bu üçtərəfli sazişlə biz işğal altında qalan digər rayon və kəndlərimizin bizə döyüşsüz, yeni itkilər vermədən geri qaytarılmasını təmin edirik. Onu da qeyd edim ki, bəyanatın 8-ci bəndində nəzərdə tutulan hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin mübadiləsi bizə Dilqəm Əsgərov və Şahbaz Quliyevin də geri qaytarılmasına imkan yaradır. Çünki onlar digər saxlanılan şəxslər kateqoriyasına aiddir və qanunsuz olaraq Dağlıq Qarabağ ərazisində saxlanılıblar. Daha bir uğuru isə xüsusi qeyd etmək istərdim. Şəxsən cənab Prezidentin təşəbbüsü ilə bəyanatın 9-cu maddəsinə əlavə edilmiş bəndə uyğun olaraq Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən nəqliyyat-kommunikasiyalarının inşası təmin ediləcəkdir. Bu Mehri dəhlizinin açılması, Naxçıvana quru yolla əlaqənin bərpası deməkdir. Bütünlükdə bu bəyanat Azərbaycanın tam qələbəsi, Ermənistanın isə məğlubiyyətidir".

Müsahibimiz deyib ki, bəyanatın 5-ci bəndində münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır: "Bu mərkəzdə Türkiyə hərbçiləri də fəaliyyət göstərəcəklər. Bununla bağlı Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanla Rusiya Prezidenti Vladimir Putin arasında əldə edilən razılaşmalara görə Türkiyə Rusiya ilə birlikdə Sülhməramlı Mərkəzdə müşahidə və nəzarət fəaliyyətini icra edəcəklər. Artıq dünən Rusiya və Türkiyənin müdafiə nazirləri arasında atəşkəsə birgə nəzarət edilməsi üçün memorandum imzalanmışdır. Atəşkəs dövründə belə Türkiyə Azərbaycanın yanındadır. Rusiya sülhməramlılarına gəldikdə isə, 1960 sayda odlu silahlı hərbi qulluqçuların, 90 yüngül hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingentidir. Bu heç də bəzi siyasətbazların dedikləri kimi - "Azərbaycanda Rusiya hərbi bazası yerləşdirilir", anlamına gəlmək demək deyildir. Bu sülhməramlıların konkret öhdəlik və vəzifələri vardır. Rusiya və Azərbaycan dostluq münasibətləri, Ermənistan və Rusiya münasibətlərindən daha möhkəm və daha etibarlıdır. Bu da hazırkı mərhələdə Azərbaycan Rusiya arasında etibarlılıq prinsiplərinə inamı artıran faktor kimi qəbul edilməlidir. Rusiya sülhməramlılarını əsas götürərək möhtəşəm qələbəmizə kölgə salmaq istəyənlərin nə istədiklərini yəqin ki, heç özləri də bilmirlər. Yalançı vətənşüvənlikdən əsl vətənpərvərliyə keçməyin zamanıdır".

***Z.Məmmədli***

# Türkiyə Naxçıvana açılan dəhliz vasitəsi ilə türk dünyasına bağlanacaq - TƏHLİL

***Azərbaycanın Qarabağ zəfəri son illərdə hərbi sahədə əldə edilmiş ən qəti qələbədir. Onun Qafqaz və Orta Asiyaya təsiri də o dərəcədə köklü olacaqdır. Və əlbəttə, bu zəfərdə Türkiyənin çox böyük payı vardır.***

Bəli, "Qarabağ Azərbaycandır!" və elə də qalacaqdır. Düz 28 ildir davam edən kabus artıq bitmişdir. Azərbaycanlı qardaşlarımız qanla, canla, böyük qəhrəmanlıqla əldə etdikləri bu zəfərlə bağlı sevinə bilərlər. Şairin dediyi kimi:

"Bayraqları bayraq edən üstündəki qandır
Torpaq, əgər uğrunda ölən varsa vətəndir."

Qarabağ zəfərinin mahiyyəti məhz budur.

1992-ci ildə Qarabağda nələr baş verdi, bu gün nələr baş verir? O günlərdə hələ öz müstəqilliyinin başlanğıcını yaşayan qardaş ölkə torpaqlarını qoruya biləcək bir silahlı gücə, təəssüf ki, sahib deyildi. Durum belə olduğu üçün Rusiyanın birbaşa dəstəyilə Ermənistanın hərbçidən çox talançıları andıran silahlı quldur qrupları həm Qarabağı işğal etdi, həm də orada qətliam və soyqırımı həyata keçirdi. Təəssüf ki, dünya hər zaman olduğu kimi, bu dəhşəti seyr etdi. Və Qarabağ məsələsi hamımızın içini sızıldadan bir məsələ olaraq ortada qaldı.

Aradan keçən 28 illik bir müddət ərzində Azərbaycan Ordusu Türkiyə Silahlı Qüvvələri tərəfindən ən mükəmməl şəkildə hazırlandı. Təhsil alan, intizama, hər şeydən öncə vətən sevgisilə torpağı uğrunda savaşma idealına və özünəinama qovuşan bir ordunun nələr edə biləcəyini bütün dünya gördü. Eşq olsun Azərbaycan Ordusuna!

Qarabağ əsarətdən qurtarıldı. Lakin hələ ki, hər şey bitmiş deyildir. Atəşkəs haqqında anlaşma bir çox yöndən sual işarələrilə doludur. Bu anlaşmanın ümumi çərçivəsini cızan Rusiya, təbii olaraq, qaşığın yönünü hər zaman olduğu kimi öz tərəfinə çevirmişdir. Atəşkəs haqqında qərar verilməsindən həmən sonra gözlənilməz bir sürətlə Qarabağ torpaqlarına hərbçi və silah göndərən Rusiyanın çox öncədən bu hazırlığı gördüyünü ayrıca izah etməyə ehtiyac varmı? Xatırlayırsınızsa, Suriyada da ABŞ hərbçilərinin geri çəkildiyi bölgələrə buna bənzər bir şəkildə həmən yerləşmişdi. Bəlkə də bununla bağlı birbaşa ABŞ-la razılaşmışdı...

Doğrusu, Rusiyadan fərqli bir şey gözləmək sadəlövhlük olardı. Rusiya, böyük dövlət siyasətilə hər bir fürsətdən maksimal dərəcədə yararlanmağı çox yaxşı bacarır. Kreml Amerikadakı seçki atmosferini də dəyərləndirərək, Qarabağ məsələsində Minsk qrupunun həmsədrləri olan ABŞ və Fransanı çox praktik bir formada kənarda qoydu...

Azərbaycanın Qarabağ zəfərində siyasi-hərbi baxımdan hərtərəfli böyük payı olan Türkiyə isə önəmli bir strateji mövqe əldə etmişdir. Bəzilərinin daha çox gözlənti içində olduğunu təxmin etmək də çətin deyil... Lakin siyasi, hərbi, tarixi və geopolitik şərtlərin və güc balanslarının nəyi haradək etməyə imkan verəcəyini yaxşı dəyərləndirmək lazımdır.

Qarabağ torpaqlarında Ermənistan hərbçisi qalmayacaq. Ancaq orada yaşayan etnik erməni əhalinin mövcudluğu davam edəcək. Hər şeydən öncə bu keçid müddətində atəşkəsin qalıcı olmasının təmin edilməsi üçün müşahidə və nəzarət funksiyası çox önəmlidir. Bunun üçün Türkiyə Silahlı Qüvvələrinin təmsilçilərinin haralarda və hansı şərtlərdə vəzifə yerinə yetirəcəyi, hələ ki, dəqiqləşmiş deyil.

Rus hərbçilərinin qaşla göz arasında Qarabağ torpaqlarına yerləşməsi gələcəkdə hansı proseslərə yol aça bilər? Prezident Ərdoğanın dünən verdiyi açıqlamaya görə, Türkiyə və Rusiya arasında ortaq hərbi nəzarət mərkəzinin yaradılması üçün anlaşma memorandumu imzalanıb. Bu mərkəz Qarabağda təsis ediləcək. Hərbi baxımdan meydanda faktiki olaraq yer tutmaq fövqəladə önəm daşıyır. Bu, Türkiyənin Qafqaz bölgəsində mövcudluğu baxımından tamamilə yeni bir hadisədir. Önümüzdəki günlərdə bunun əks-sədasını görəcəyik.

Digər tərəfdən, Naxçıvanla Azərbaycan arasında bir keçid dəhlizinin açılacaq olması öz-özlüyündə tarixi bir hadisədir. Beləliklə, Türkiyə üçün ən qısa yoldan Orta Asiyaya açılma imkanı yaranmış olur. 1992-ci ildə Qarabağın işğal edilməsini planlayan Rusiyanın niyyəti və hədəfi elə bu yolu qapatmaq deyildimi?

Bir başqa önəmli xüsus da Qarabağda erməni muxtar bölgəsi qurmağa yönəlik çalışmaların uğursuzluğa düçar olmasıdır. Yəni, Qarabağ əsil Azərbaycan torpağıdır. Bu status BMT TŞ-nin 4 qətnaməsilə də təsdiq edilmişdir. Son anlaşma mətnində yer alan hökmə görə, Xankəndi və ətrafında yaşayan erməni əhalinin Ermənistanla əlaqəsinin təmin edilməsi üçün də yeni bir yol açılacaqdır. Humanitar və iqtisadi münasibətlərin davam etməsini təmin etmək bu şəkildə planlaşdırılır.

Təkrar altını cızaraq qeyd edək ki, Türkiyənin təminatçı haqqına sahib olduğu Naxçıvan Respublikası ilə Azərbaycan arasında keçid dəhlizinin açılması türk dünyası baxımından son dərəcə önəmli strateji bir nailiyyətdir. Xeyirli olsun. Azərbaycanlı qardaşlarımızı əldə etdikləri şanlı zəfər münasibətilə bir daha təbrik edirik.

***İsmayıl Kapan***
***"Türkiyə" qəzeti, Türkiyə, 12 noyabr 2020-ci il***

# Türkiyə ABŞ-ın boş qalmış yerini doldurur

## SÜLH EHTİMALINI AZƏRBAYCANIN HƏRBİ QƏLƏBƏSİ DOĞURUB

***Azərbaycan və Ermənistan arasında noyabrın 10-da imzalanan sülh sazişi Qafqazın ən təhlükəli nöqtəsinə potensial davamlı həll üçün zəmin hazırlayaraq, Dağlıq Qarabağ münaqişəsinin siyasi cəhətdən həll oluna biləcəyini göstərir. Razılaşma dünyanın ən uzun sürən qarşıdurmalarından birini bitirməklə yanaşı, bölgədə sülhü, rifahı və sabitliyi bərpa edə biləcək digər diplomatik və iqtisadi müqavilələri də katalizasiya edə bilər.***

Bəlkə də, paradoksal olsa belə, sülh ehtimalı Azərbaycanın hərbi qələbəsinin nəticəsidir. Bundan əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan münaqişənin "diplomatik həlli" olmadığından heyfislənib, Azərbaycan və Türkiyəni Dağlıq Qarabağda erməni soyqırımı hazırlamaqda günahlandırmışdı. Daha sonra, noyabrın 8-də Azərbaycana Dağlıq Qarabağın paytaxtı Stepanakertə (və ya Xankəndiyə) nəzarət imkanı verən, həm ermənilər, həm də azərbaycanlılar üçün böyük mədəni əhəmiyyətə sahib, strateji cəhətdən vacib olan Şuşa şəhərini geri alıb.

Şuşadan Azərbaycan qüvvələri Stepanakerti asanlıqla atəşə tuta və Ermənistanı Dağlıq Qarabağla birləşdirən əsas yolu kəsə bilərdi. Ancaq şəhəri geri aldıqdan bir gün sonra Azərbaycan Prezidenti İlham Əliyev hərbi əməliyyatları dayandırıb və Paşinyanla danışıqları davam etdirib. Bir neçə saat içində Rusiya Prezidenti Vladimir Putin vasitəçilik edərək barışıq razılaşmasını imzaladıb.

Milliyyətçi azərbaycanlılar əsəbiləşib, Azərbaycan ordusundan Stepanakerti ələ keçirməsini, daha sonra da erməni qoşunlarının işğal etdiyi 3 ələ və Azərbaycan ərazisinin azad olunmasını tələb ediblər.

Bununla yanaşı, Əliyev sonrakı hərbi əməliyyatların hər iki tərəfdə minlərlə mülki şəxs və hərbçinin həyatını riskə atacağını və çox güman ki, Azərbaycana beynəlxalq əcinnə statusu qazandıracağını anlayıb. Bunun əvəzinə, şərtləri Azərbaycanın bütün siyasi hədəflərini - heç bir insan və ya maddi xərc tələb olunmadan - təmin edən atəşkəsə razı olub. Bunların arasında ən əsası - BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini pozaraq Ermənistanın 1990-cı illərin əvvəllərindən bəri işğal etdiyi Dağlıq Qarabağ ətrafındakı 7 rayonu Bakının nəzarətinə qaytarmaqdır. (Son 6 həftə ərzində Azərbaycan ordusu bunların dördünü onsuz da bərpa etmişdi, ancaq qalan üçü üçün amansız dağ döyüşləri lazım olacaqdı.) 1990-cı illərin əvvəllərindəki döyüşlər zamanı köçkün düşən azərbaycanlılar da əvvəlki evlərinə qayıda, Azərbaycanın erməni sakinləri indiki evlərində qala bilərlər.

Əliyev, həmçinin, heç olmasa kağız üzərində Dağlıq Qarabağın müstəqillik və ya rəsmi olaraq Ermənistana birləşmə mənasını verən hüquqi status alması ehtimalını da açıq şaxlayıb. Bu ehtimalların sadəcə perspektivi milyonlarla azərbaycanlını qəzəbləndirir; həm də Ermənistana simasını qorumaq şansı verir.

İlham Əliyevin yanaşması sentyabrın 27-dən bəri müharibə məqsədləri ilə, yəni münaqişədə vasitəçilik edən ATƏT-in Minsk qrupunun "Əsas prinsipləri"nə əsaslanan sülh razılaşması ilə uyğunlaşır. Bunlara daxildir:

Bütün erməni qoşunlarının Dağlıq Qarabağı əhatə edən Azərbaycanın 7 rayonundan çıxarılması və bu bölgələrin Bakının nəzarətinə qaytarılması;

Azərbaycan, Ermənistan və Türkiyə arasındakı bütün tranzit yollarının yenidən açılması;

Dağlıq Qarabağın özü üçün "müvəqqəti hüquqi status" və ardından gələcək referendumla təsdiqlənmiş "yekun hüquqi status" (bu, 10 noyabr razılaşmasına açıq şəkildə daxil edilməyib);

Köçkün azərbaycanlıların qayıdışı;

Ermənistanla Dağlıq Qarabağ arasında etibarlı nəqliyyat əlaqəsi (məsələn, "Laçın Dəhlizi"); və

Beynəlxalq sülhməramlılar.

Ermənistan və Azərbaycan "Əsas prinsiplər"i əvvəlcədən, 2009-cu ilin yanvarında qəbul edib, lakin heç vaxt onları yekun müddəa kimi təsdiqləməyib. Keçən il Paşinyan "sülh üçün torpaq" formulunu yeni "yeni ərazilər üçün yeni müharibələr" yanaşması ilə əvəz edərək kursundan dönüb. Sonda Azərbaycanın müharibə zəfəri, Putinin sıx siyasi təzyiqi ilə birlikdə, Paşinyan 10 Noyabr sülh razılaşması şəklində "Əsas prinsiplər"i qəbul etməyə məcbur olub. Təəssüf ki, buna ölüm-itim olmadan, aylar əvvəl nail olmaq mümkün idi.



Rusiya, Türkiyə ilə birlikdə indi, Cənubi Qafqazda Ermənistanla Azərbaycan arasında iyul ayında baş verən ciddi hərbi toqquşmalar zamanı ABŞ-ın hərəkətsizliyindən sonra yaranmış diplomatik boşluğu doldurur. Putin sülh müqaviləsini təmin etmək üçün Əliyevi Azərbaycan ərazisindəki rus sülhməramlılarını qəbul etməyə inandıra bilib. Gürcüstan və Moldovadakı dondurulmuş münaqişələrin stabilizasiyasında bu cür qoşunların çirkin rolu nəzərə alındıqda, bu, yüksək ödəncdir.

Ancaq 10 Noyabr razılaşması sülhməramlı əməliyyatda iştirak edə biləcəyi üçün Türkiyənin Rusiyanın regional təsirini tarazlaşdırmasına da yol açır. Həm Türkiyə, həm də Azərbaycanla tranzit yollarının barışıq sazişi çərçivəsində yenidən açılması ilə Türkiyə və Ermənistan münasibətlərini normallaşdırmaq üçün 2009-cu il müqaviləsi dirçələ bilər. Bu, eyni zamanda, iqtisadi böyüməni sürətləndirəcək, Türkiyə, Ermənistan və Azərbaycan vətəndaşlarının birlikdə firavan və dinc gələcək qurmalarına kömək edəcək ticarət və sərmayə üçün yeni imkanlar aça bilər.

***Metyu Brayza***
***"Atlantic Council", 11.11.2020***

## Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

# Dağlıq Qarabağ həqiqətləri dünyada artıq qəbul olunur

### Politoloq Ramid Hüseynov: “Ölkəmizin 30 ilə yaxındır ki, işğalçılıq siyasəti ilə mübarizə apardığının, Qarabağ həqiqətlərinin dünya çapında müdafiə olunduğunun şahidiyik”



***Azərbaycanın 2-ci Qarabağ müharibəsindən qalib çıxması dünyanın əksər ölkələrində haqq zəfəri kimi qəbul olunur. Qarabağın Azərbaycan torpağı olması, 27 ildir ki, bu torpaqların işğal altında saxlanılması artıq dünya ictimaiyyəti tərəfindən də qəbuledilməz hesab olunur.***

Məsələn, Rusiya prezidenti Vladimir Putin “Valday” klubunun iclasında bildirib ki, Azərbaycan ərazisinin əhəmiyyətli bir hissəsinin itirildiyi vəziyyət əbədi davam edə bilməz: “Biz bir çox illər ərzində vəziyyəti uzun tarixi perspektiv üçün sabitləşdirmək məqsədilə bu böhranın həlli yönündə müxtəlif variantlar təklif etmişik. İnanın, bu gərgin iş idi. Hansısa məqamlarda elə gəlirdi ki, daha bir az, daha bir addım və biz həll yolunu tapacağıq. Təəssüf ki, bu baş vermədi və bu gün biz ən pis formada olan bir qarşıdurma ilə üz-üzəyik. Faciə də ondan ibarətdir ki, insanlar həlak olur”.

Ölkəmizin bu gün Qarabağda zəfər çalmasının bir əsas səbəbi də ölkəmizin beynəlxalq aləmi işğalda olan Azərbaycan torpaqlarının Azərbaycan xalqına məxsus olduğuna inandırması ilə izah olunur. Prezident İlham Əliyev də öz çıxışlarında qeyd edib ki, son illərdə mötəbər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qərar və qətnamələr bizim ədalətli mövqeyimizi dəstəkləyir və münaqişənin həlli üçün bu, çox güclü hüquqi baza yaradıb. O, bildirib ki, Qondarma “Dağlıq Qarabağ respublikası”nı heç bir ölkə tanımayıb, orada keçirilmiş qanunsuz referendumlara dünyanın aparıcı təşkilatları və bir çox ölkələr tərəfindən sərt, mənfi reaksiya verilmişdir: “Biz münaqişə ilə bağlı həqiqətləri dünyaya çatdırırıq və bundan sonra da çatdırmalıyıq. Hesab edirəm ki, bu gün vəziyyət tamamilə fərqlidir”.

Politoloqlar bildirir ki, Azərbaycanı qardaş Türkiyədən sora dili və dini bizdən olmayan, daha çox ermənilərə dəstəyi ilə seçilən Rusiyanın belə dəstəkləməsi Azərbaycanın haqq səsinin dünyaya duyrulduğunu, işğalda saxlanılan ərazilərin əbədi və əzəli Azərbaycaycan torpaqları olduğunu təsdiqləyir.

Politoloq Ramid Hüseynov deyir ki, bu gün dünya Dağlıq Qarabağ həqiqətlərini qəbul edir. Onun sözlərinə görə, ölkəmizin 30 ilə yaxındır ki, işğalçılıq siyasəti ilə mübarizə apardığının, Qarabağ həqiqətlərinin dünya çapında müdafiə olunduğunun şahidiyik: “Ermənistan-la-Azərbaycan arasında mövcud müharibənin dayandırılması məqsədilə Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin özündə mühüm müddəaları əks etdirən birgə bəyanat imzalamasını ölkəmizin müasir dövr tarixində böyük uğuru hesab etmək olar. Sərhəd bütövlüyü və suverenliyinin tam təmin edilməsi, işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılması, məcburi köçkünlərin və qaçqınların Dağlıq Qarabağ və ətraf rayonlarda yerləşdirilməsi məsələləri Azərbaycanın Ermənistan üzərində tarixi qələbəsidir. Bu həm də erməni mifinin dağılması və Ermənistan dövlətinin siyasi-iqtisadi-hərbi çöküşünün bir sübutudur. Bəyanatda əksini tapan mühüm müddəalardan biri kimi Rusiya sülhməramlı kontingentinin Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu yerləşdirilməsi, təhlükəsizliyin təmin edilməsi hazırkı vəziyyət üçün başa düşüləndi. İllərlə davam edən bu düşmənçiliyin tez bir zamanda yox olmasını təsəvvür etmək, hər şeyi tam normal məcraya yönəltmək düzgün olmazdı. Bu baxımdan beynəlxalq praktikadan irəli gələrək, tərəflər arasında münasibətlərin tam normaya düşməsinə qədər olan dövrdə üçüncü tərəfin hərbi qüvvəsinin mövcudluğu doğru hesab edilə bilər. Şübhəsiz ki, məhz Rusiya sülhməramlı kontingentinin bu missiyanı yerinə yetirməsi də tam təbii qarşılanmalıdır. Nəzər alsaq ki, Rusiya müharibə dövründə neytrallığını qoruyub saxlasa da, bu, onun regiondakı geosiyasi maraqlarından imtinası, nəzarət mexanizmini kiməsə güzəştə getmək fikrində olması anlamına gəlmir. Düşünürəm ki, qüvvələr balansının təmin edilməsi, Azərbaycan dövlətinin mövqeyinin, təsir imkanlarının qorunub saxlanılması və Ermənistanın gələcəkdə hər hansı təxribatlara yol verməməsi baxımından Türkiyənin prosesdə birbaşa iştirakı doğru addımdır. Bəyanatın 5-ci maddəsində əks edilmiş sülhməramlı mərkəzin yaradılmasında Türkiyənin də mütləq iştirakının nəzərdə tutulmasını Azərbaycanın uğuru hesab etmək olar. Ermənistan Putindən tamamilə başqa mövqe gözləyirdi. Türkiyə ilə Azərbaycanın birləşərək hərb meydanında onları təklədiyini təbliğ edirdi. Burada vacib məqam isə Putinin Azərbaycanın ərazi bütövlüyünun pozulduğu və bunun daimi davam etməsinin mümkünsüzlüyü ilə bağlı səsləndirdiyi fikirdi. Əvvəl ölkələr bu detalı çılpaqlığı ilə vurğulamırdılar. Sadəcə deyirdilər ki, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlər. Azərbaycanın hərbi uğurları artdıqca həmsədrlər açıq məzmunlu bəyanatlar verməyə başlayıb. Bu Azərbaycanın dünyaya Qarabağ həqiqətlərini çatdırmasının, bunu faktlarla sübut etməsinin nəticəsidir”.

Politoloq bildirir ki, bu gün köç prosesində də Ermənistan dövlətinin işğalçı olmasını bu torpaqların onlara aid olmadığını əməlləri ilə sübut edir. Həmsöhbətimiz deyir ki, noyabrın 10-da Azərbaycan-Rusiya-Ermənistan arasında imzalanmış üçtərəfli bəyanata əsasən ermənilər 15 noyabra qədər Kəlbəcəri tərk etməlidir: “Düşmən 1 gün sonra tam boşaltmalı olduğu Kəlbəcər şəhərində ekoloji terrorlar törətməyə başlayıb. Onlar gedərkən evləri və meşələri yandırırlar. Bununla da ermənilər Azərbaycanın işğal altında olan torpaqlarında vandalizm əməlləri törətdiklərini bir daha sübut ediblər. Ermənistan silahlı qüvvələri müharibənin ilk günlərindən Cənubi Qafqazın ən böyük su elektrik stansiyasının yerləşdiyi Mingəçevir şəhərinə və təmas xəttindən yüz km-dən artıq uzaq məsafədə yerləşən, beş yüz mindən çox əhalisi olan ölkəmizin ikinci böyük şəhəri Gəncəyə müvafiq beynəlxalq konvensiyalar tərəfindən qadağan edilmiş klaster bombaları atmağa başladı. Bu kimi təxribat xarakterli hərəkətləri törətməklə Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini, beynəlxalq humanitar hüququ kobud şəkildə pozdu. Bu əməlləri ilə də dünyaya sübut etdilər ki, onlar sülh yox, müharibə, dağıntı, terror tərəfdarlarıdır. 27 sentyabr tarixində baş vermiş hadisələr Ermənistanın faşist mahiyyətini bütün dünyaya göstərdi. Azərbaycanın haqq savaşına qədər işğalçı qüvvələrin Azərbaycan ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü il tarixli, 822, 853, 874 və 884 saylı qətnamələri hələ də kağız üzərində qalmaqda idi. Bu isə onu sübut edirdi ki, Ermənistan beynəlxalq ictimaiyyəti qətiyyən vecinə almır, beynəlxlaq qanunlara hörmət etmir.Baxmayaraq ki, bu qətnamələrdə Azərbaycana qarşı həyata keçirilən təcavüzkar addımlar qınanılır, münaqişə tərəfi olmayan mülki şəxslərin qorunmasının vacibliyi və ərazi əldə etmək üçün güc tətbiq edilməsinin yolverilməz olduğu vurğulanır, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi beynəlxalq aləmdə tanınmış sərhədlərinin toxunulmazlığı dəstəklənirdi. Həmçinin Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Birliyi, Avropa Şurası və digər nüfuzlu beynəlxalq təşkilatların mövcud münaqişə ilə bağlı çoxsaylı qətnamələr qəbul etməsinə rəğmən, Ermənistan tərəfi hələ də bu tələblərə etinasız və saymazyana yanaşmaqda davam edir. 27 ildir ki, Azərbaycan tərəfi problemin sülh yolu ilə həllinə çalışsa da, düşmən tərəfi hər dəfə danışıqlarda konkret addımlar atmaqdan yayınaraq, müxtəlif bəhanələrlə status-kvonu saxlamağa çalışıb. Beynəlxaq təşkilatlar isə bu illər ərzində təcavüzkar Ermənistana sanksiyalar tətbiq etmək, onları danışıqlar masasında real addımlar atmağa vadar etmək əvəzinə, demək olar ki, heç bir real iş görmürdü. Lakin ordumuzun təcili və təxirəsalınmaz tədbirlər görməsi nəticəsində düşmən layiq olduğu cavabı alaraq, geri otuzduruldu və torpaqlarımız işğaldan azad edildi. Bu gün artıq Azərbaycanın bu zəfəri onun öz torpaqlarını işğalçıdan təmizləməsi, haqq-ədaləti və beynəlxalq sənədlərlə təsbit olunmuş qətnamələrin icrası olaraq qəbul olunur”.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı



## İntihar etdiyi bildirilən kişi ilə bağlı yeni açıqlama: əslində bacısı...

***Noyabrın 12-də saat 14 radələrində Ağdaş rayonu, Xosrov kənd sakini 1987-ci il təvəllüdlü Umarov Xancan Əmirxan oğlunun bıçaqlanaraq öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.***

Ağdaş rayon prokurorluğundan verilən məlumata görə, dərhal prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə və meyitə baxış keçirilmiş, digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Aparılmış araşdırmalarla zərərçəkmiş şəxsin bacısı 1996-ci il təvəllüdlü Ələkbərova Ülkər Əmirxan qızının şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı bıçaqla xəsarətlər yetirərək Xancan Umarovu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Ağdaş rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Ülkər Ələkbərova şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib.

Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

## Ağstafada sərnişindən silah-sursat götürüldü

***Ağstafa polisi qanunsuz silah saxlayan şəxsə qarşı əməliyyat keçirib.***

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən verilən məlumata görə, Tovuz Rayon Polis Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri keçiriblər.

Ağstafa rayon sakini E.-Qəhrəmanovun idarə etdiyi "VAZ-2107" markalı avtomobil saxlanılıb.

Nəqliyyat vasitəsinə baxış zamanı sərnişin N.Məsimovdan "AK-74" markalı avtomat silahı, 22 ədəd patron və 1 ədəd patron darağı aşkar edilərək götürülüb.

# "Azyaşlı oğlum Seymura "atamı vurma" deyib, ayağından tutdu..." - Tovuzda dəhşət



***Tovuz rayonunda qəsdən adam öldürməyə cəhddə ittiham olunan 1971-ci il təvəllüdlü Oqtay Abdiyevin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.***

Teleqraf.com-un məlumatına görə, Oqtay Abdiyev 20 aprel 2019-cu il tarixdə saat 18 radələrində Tovuz rayonunun Yanıqlı kəndindəki toy məclisində yeyib içib. Sərxoş vəziyyətdə piyada yaşadığı evə qayıdarkən yolda onunla rastlaşan həmkəndlisi Seymur Tağıyevin onun yerişini yamsılamasından əsəbləşib.

Oqtay Abdiyev Seymur Tağıyevi söyərək evə gedib. Seymur isə arxasınca gələrək ona və ailə üzvlərinə fiziki zor tətbiq edib.

Bundan hiddətlənən Oqtay Abdiyev evin mətbəxinə daxil olaraq oradan bıçaq götürüb və artıq həyətdən çıxıb evi istiqamətində gedən Şeymur Tağıyevin arxasınca gəlib. Oqtay Abdiyev Seymur Tağıyevi yaşadığı evin həyətinin darvazası qarşısında yaxalaya bilib.

Bu zaman Oqtay Abdiyevin əlində bıçaqla gəldiyini görən Seymur Tağıyevin səsinə küçəyə çıxmış atası Cəlal Tağıyev onu sakitləşdirmək isyəyib.

Oqtay Abdiyev özündə olan bıçaqla Calal Tağıyevə bir neçə zərbə vurub. Yaralıya xəstəxanada vaxtında tibbi yardım göstərildiyi üçün həyatını xilas etmək mümkün olub.

### "Onu toy məclisində görməmişəm"

İstintaq orqanı tərəfindən Oqtay Abdiyevin barəsində Cinayət Məcəlləsinin 29, 120.2.3 (zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını öldürməyə cəhd), 29, 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürməyə cəhd) maddələri ilə ittiham elan edilib.

Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadə verən Oqtay Abdiyev bildirib ki, ailə üzvləri, yəni azyaşlı oğlu və həyat yoldaşı ilə birlikdə Tovuz rayonu Yanıqlı kəndində yaşayıb. Onun sözlərinə görə, əvvəllər onun Calal və oğlu Seymurla aralarında hər hansı bir problemləri, ədavəti, narazılığı olmayıb:

"Aprelin 20-də kəndimizdə bacım oğlunun toy məclisi idi. Ailə üzvlərimlə həmin toy məclisinə getdik. Həyat yoldaşımla uşağım məndən əvvəl qayıdıb evə gəldilər. Sonradan bildiyimə görə həmkəndlim Seymur Tağıyev də həmin toy məclisində iştirak edib. Lakin Seymurla toyda rastlaşmadığım üçün onu şəxsən özüm orada, yəni toy məclisində görməmişəm".

### "Nalayiq sözlər işlətdim"

Oqtay Abdiyev qeyd edib ki, saat 17 radələrində toy məclisindən çıxıb və piyada yaşadığı evə tərəf getməyə başlayıb: "Toy yerindən bizim evə qədər məsafə təxminən 700-800 metrdir. Yolda həmkəndlim Seymurun məndən 10-15 metr qabaqda piyada getdiyini gördüm. İçkili olduğum üçün yeriyəndə səndələdim. Bu zaman Seymur yerişimi yamsılamağa, təkrar etməyə başlayaraq mənə acıq verdi. Mən bunu görüb nəzərə almadan kənardan keçdim və getmək istədim.

Seymur mənə "başına papaq qoyub özünü də kişi sayırsan, süni mayalanmaynan uşaq düzəltdirib gətirmisən", - dedi. Buna artıq dözə bilmədim. Seymura süni mayalanma elətdirənin də, onu bilməyib deyənin də ünvana nalayiq sözlər işlətdim".

Təqsirləndirilən şəxsin ifadəsinə görə, bundan sonra Seymur ona heç bir söz deməyib və fermaya tərəf gedib: "Mən isə evimə yollandım. Əvvəlki ifadələrimdə Seymurun mənim ünvanıma uşağımla bağlı dediyi sözləri utandığıma görə deməmişəm. Qeyd etdiklərimdən başqa yolda olarkən Seymurla aramızda hər hansı dava-dalaş, söz-söhbət olmayıb.

Yaşadığım evə gələndən sonra arvadım Səbinə, oğlmu Amin və həmkəndlim Fəridənin evdə olduğunu gördüm. Həyat yoldaşımdan heyvanlara su, yem veribvermədiyini soruşdum. Yox cavabı verəndə ona əsəbləşdim və üstünə qışqıraraq "Allahın qara gəlsin heyvan yazıqdı, niyə baxmırsan?", deyəndən sonra evə keçdim, yatağımda uzandım".

### "Qapıma gəlib arvad-uşağımı söyürdü"

Oqtay Abdiyev bildirib ki, bu zaman Seymurun həyətdə onun ünvanına nalayiq söyüşlər söydüyünü eşidib: "Səbinəyə toydan evə qayıdanda Seymurun yolda yerişimi yamsıladığını, var-yoxuma söydüyünü dedim. Səbinə isə mənə "səni söyməz, qulağında telefon var, yəqin başqasına söyür" dedi.

Həmin vaxt Fəridə bizə yaxınlaşdı. Fəridəyə Seymurun məni söydüyünü bildirəndə, məni sakitləşdirdi, ona görə də evimdə olan yataq otağına keçərək yatdım. Həyətdə səs-küy səsinə oyandım. Yatağımdan durduqda gördüm ki, Seymur arvadımın və uşağımın ünvanına nalayiq sözlər işlədir, məni çağırır.

Yataq otağından çıxdım, Seymur qolumdan və paltarımdan tutaraq sürüdü, evin həyətinə çıxardı. Yağış yağmışdı, evin qabağı palçıq idi. Seymur məni yerə yıxdı, təpiklə sifətimə vurdu. Hər iki əlimi sifətimə tutdum və təpik zərbəsi mənim əlimə dəydi. Arvadım Səbinə bizi aralamaq istəyən zaman Seymur arvadımın da qoluna zərbə vurdu. Azyaşlı oğlum yanmıza yaxınlaşdı, Seymura "mənim atamı vurma" dedi, ayağından tutdu.

Seymur isə azyaşlı oğlumun çiynindən tutub kənara itələdi. Sonra yenə təpik və yumruqla bədənimin müxtəlif nahiyələrinə zərbələr vurdu".

### "Məqsədim qorxutmaq olub"

Oqtay Abdiyevin ifadəsinə görə, həmin vaxt əmisi oğlu Şakirin arvadı Fəridə də onların yanlarında olub, Səbinə ilə birlikdə Seymuru aralamağa çalışıb: "Lakin Seymuru məndən aralaya bilmədilər. Onun azyaşlı oğlumu itələyərək yerə yıxdığını gördüm, əsəbləşdim. Bu mənə pis təsir etdi. Özümdə güc toplayaraq Seymurun əlindən çıxdım, evə bıçaq götürmək üçün qaçdım. Yenidən evin həyətinə qayıtdım. Həmin vaxt Seymur hələ də evin həyətində idi. Səbinə və Fəridə məni evin həyətindən çıxarmaq istədi. Seymur əlimdə bıçaq gördü, evin həyətindən qaçaraq getdi. Mən də Seymurun arxasınca qaçdım.

Məqsədim Seymuru bıçaqla qorxutmaq olub. Çünki Seymur ailəmin gözü qarşısında məni, arvadımı və uşağımı döyməsi mənə pis təsir etdi. Əsəbimdən özümdə olmamışdım. Evimin həyətindən çıxdım və Seymurun arxasınca qaçdım. Oğlum, həyat yoldaşım Səbinə və qonşularımız Fəridə də mənim arxamca gəldi. Dərənin başına çatanda oğlum mənə çatdı və ayağımdan tutaraq qayıtmağım üçün yalvardı".

### "Kişi deyilsənmi, gəl gözləyirəm..."

Oqtay Abdiyev bildirib ki, bu zaman Seymurun uzaqdan yenə də onun ünvanına nalayiq söyüşlər söyüb: "Seymur mənə "kişi deyilsənmi, gəl gözləyirəm" deyə söylədi. Yenidən onun arxasınca qaçdım. Seymurgilin yaşadığı evin dəmir darvazalarının qarşısına çatan zaman atası Calal və Elşad adlı qohumları qabağıma çıxdılar. Seymur həmin vaxtı darvazadan içəridə, yəni həyətdə idi. Evin darvazasının qarşısına yaxınlaşdım və Seymuru soruşdum. Əvvəlcə Seymurun atası Calal məni qabaqdan tutaraq qucaqladı, daha sonra isə qohumu Elşad məni arxadan yaxınlaşaraq geri çəkdi, arxam üstə yerə yıxdı. Calal da mənim üstümə yıxıldı, əlimdəki bıçaq Calalın qarın nahiyəsinə batdı.

Calal bıçağın ona batdığını deyərək üstümdən qalxdı, Elşad qolumdan tutaraq məni üzü üstə yerə çevirdi".

Təqsirləndirilən şəxs daha sonra ifadəsində qeyd edib: "Bu vaxt Seymur da bizə yaxınlaşdı və hər ikisi bıçağı əlimdən almaq istədilər. Mən bıçağı var gücümlə yerə sancdım. Seymur boynumun arxasına zərbə vurdu və huşumu itirdim. Yaşadığım evə necə getməyimi xatırlamıram. Mənim Calalı bıçaqla vurmaq niyyətim olmayıb. Məqsədim Seymuru qorxutmaq olub".

Gəncə Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Oqtay Abdiyev 14 il müddətinə azadlıqdan məhrum edilib.

# "Təslim olmayan BİZ-dən təslim edən BİZ-ə gedən iqtisadi yol" - Tahir Mirkişili

***Biz oz müstəqilliyimizi elan edərətməz fəlakətlərlə üzləşdik, ərazilərimiz işğal olundu, xalqımıza qarşı soyqırım törədildi, evlərimiz yandırıldı, məscidlərimiz dağıdıldı, təhqir edildi. Bu xalqın bir gözündən yaş heç zaman əskik olmadı. Etiraf edək ki, müstəqilliyin qürurunu tam mənada yaşamağa bizə imkan vermədilər.***

"Şuşanın erməni işğalında olması mənim qəlbimi sıxır, əzir, kədərləndirir... Bu mənim üçün çox əzabvericidir" - bu sözlər uluöndər Heydər Əliyevə aiddir. Amma biz təslim olmadıq.

Möhtərəm prezidentimizin rəhbərliyi ilə bizi bu günkü möhtəşəm qələbəyə aparan bütün yolları bir hədəfdə birləşdirməyi bacardıq. Əsl müstəqilliyimizi təmin edən, bizə dost və müttəfiqlər qazandıran, bizi güclü edən iqtisadiyyat qurduq. Hansı ki, bu illər ərzində dəfələrlə böyüdü, düşmən iqtisadiyyatını 3 dəfə, hərbi büdcəsini isə 6 dəfə üstələyən, heç kimdən asılı olmayan, ehtiyatı borcundan 6 dəfə böyük, Şərqi və Qərbi, Şimalı və Cənubu birləşdirən, vətəndaşın sosial rifahına xidmət edən iqtisadiyyata sahib olduq!

"Bizim bayrağımız Şuşada dalğalanacaq, o günü biz hər gün öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq" - Bu sözlər isə Ali Baş Komandan



İlham Əliyevə aiddir. Bu gün o gündür! Deyilmişdi - edildi! Ali rəhbərimiz məğlub, amma təslim olmayan BİZdən qalib və təslim edən BİZ yaratdı.

Müharibədə biabırçı şəkildə məğlub olan düşmən ölkənin iqtisadiyyatı da dağıldı, resursları məhv oldu və sonda kaputilyasiya aktına imza atdılar. Bizim 30 ilimizi oğurlayan işğalçı Ermənistan ən azı 30 il geri düşdü. Azərbaycan iqtisadiyyatı isə bütün sınaqlara sinə gərdi, o da bu döyüşdə bu qalib oldu. Öz dayanıqlığı, çevikliyi və müasirliyi ilə.

Bu qələbə azərbaycan xalqının əldə etdiyi qələbələr arasında ən parlağıdır. Bizim yumruğumuz bizim birliyimizdir! Azərbaycan xalqı uluöndər Heydər Əliyev və Prezident cənab İlham Əliyev ətrafında hər zaman bir oldular! Bu birlik hər zaman düşmənlərin başında bir yumruq oldu. İndidən sonra da olacaq.

Əziz dostlar! Biz artıq azadıq! Biz bütövük! Hər kəsən gözlərinə dik baxacaq qürüra və gücə sahibik!

Ali Baş Komandan İlham Əliyev Azərbaycan tarixinin ən böyük qələbəsini qazandı. Bununla da O, 1918-ci ilin mart soyqırımının, 1920-ci ilin sovet işğalının, 1990-cı illərin amansız soyqırımlarının nisgillərinə son qoydu! Dövlətin zirvəsi qəhrəman oğullarımızla elə bir tarxi zəfər qazandı ki, bu insanlardakı 28 illik işğalın acısını unutdurdu. Qələbəmiz iqtisadiyyatımızı daha da gücləndirəcək. Azərbaycan Qafqazı cənnətə çevirəcək!

Qalib xalqın möhtəşəm liderinə, ali rəhbərimiz cənab İlham Əliyevə bu günləri bizə yaşatdığına görə sonsuz təşəkkürümüzü bildiririk. Allah şəhidlərimizə rəhmət eləsin! Ordumuza və onun Ali Baş Komandanına eşq olsun!

***Tahir Mirkişili,***
***İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri***

# Ləğv olunmuş 4 bankın əmanətçilərinə 571 milyon manat kompensasiya ödənilib

***Noyabrın 12-nə Əmanətlərin Sığortalanması Fondu (ADIF) tərəfindən bağlanmış "AG Bank", "Amrah Bank", "NBC Bank" və "Ata Bank" üzrə 23 min 757 əmanətçiyə 571 milyon manatdan çox kompensasiya ödənişi həyata keçirilib.***

"Unikal" Əmanətlərin Sığortalanması Fonduna istinadla xəbər verir ki, bu il iyunun 16-dan noyabrın 12-dək ləğv prosesində olan "AG Bank" və "NBC Bank"ın əmanətçilərinə "Azərbaycan Beynəlxalq Bankı" tərəfindən 208,68 milyon manat kompensasiya ödənilib. "AG Bank" üzrə 4420 əmanətçiyə 90 milyon manat, "NBC Bank" üzrə isə 4073 əmanətçiyə 118,61 milyon manatdan çox kompensasiya ödənilib. İyunun 1-dən noyabrın 12-dək "Kapital Bank" tərəfindən "Amrah Bank" və "Ata Bank"ın əmanətçilərinə 362,5 milyon manatdan çox kompensasiya ödənişi həyata keçirilib. Hesabat dövründə "Amrah Bank" üzrə 5677 əmanətçiyə ödənilən kompensasiyanın məbləği 137,44 milyon manat, "Ata Bank" üzrə 9587 əmanətçiyə isə 225 milyon manat təşkil edib.

Fond tərəfindən son bağlanmış banklar üzrə əmanətçilərin kompensasiyalarının təmin edilməsi artıq yekunlaşmaq üzrədir. Tam ödənilmə prosesi qısa zaman içərisində qanunla müəyyən olunmuş qaydada yekunlaşdırılacaq. Kapitallarını tam itirdiklərinə, kreditorları qarşısında öhdəliklərini yerinə yetirə bilmədiklərinə görə sığorta hadisəsi baş vermiş "Ata Bank" ASC, "Amrah Bank" ASC, "NBC Bank"ASC və "AG Bank"ASC-nin lisenziyaları Mərkəzi Bank tərəfindən ləğv edilib, Bakı Apelyasiya Məhkəməsinin İnzibati Kollegiyasının 2020-ci il 28 aprel və 14 may tarixli qərarlarına əsasən sözügedən banklar müflis elan olunub və Əmanətlərin Sığortalanması Fondu ləğvedici təyin edilib. Müflis olunmuş banklar üzrə öhdəliklərin reyestri fonda təqdim olunub və ADIF tərəfindən qorunan əmanətlər üzrə kompensasiyaların ödənilməsi prosesinə qısa zaman ərzində başlanılıb. Fondun Himayəçilik Şurasının qərarına əsasən, qorunan əmanətlər üzrə kompensasiyaların verilməsi üçün agent bank qismində "Ata Bank" ASC və "Amrah Bank" ASC üzrə "Kapital Bank" ASC, "AG Bank" ASC və "NBC Bank" ASC üzrə isə "Azərbaycan Beynəlxalq Bankı" ASC seçilib. Əmanətlərin Sığortalanması Fondu iyunun 1-dən "Ata Bank" ASC və "Amrah Bank" ASC-də, iyunun 16-




dan isə "AG Bank" ASC və "NBC Bank" ASC-də əmanətlər üzrə kompensasiyaların ödənilməsinə başlayıb.

Azərbaycan Mərkəzi Bankı və Əmanətlərin Sığortalanması Fondunun birgə fəaliyyəti əsasında fondun hazırlanan yeni strateji modelinin bu ilin sonunadək formalaşdırılması nəzərdə tutulub. Qeyd edək ki, yeni strateji modelin hazırlanması ölkə iqtisadiyyatına, bank sektoruna və əmanətçilərə öz yüksək töhfəsini verməsi gözlənilir. Bağlanmış banklarda problemlərlə üzləşmiş əmanətçilərin nəzərinə çatdırırıq ki, sözügedən məsələ ilə əlaqədar vəsaitlərin qanunvericiliyə müvafiq qaydada və qısa müddətdə qaytarılmasının təmin edilməsi ilə bağlı Əmanətlərin Sığortalanması Fondu tərəfindən bütün lazımi tədbirlər görülür.

# "Azəriqaz": Paytaxt üzrə əhali abonentlərinin sayı 900 minə çatır

***Yanvar-oktyabr ayları ərzində "Azəriqaz" İstehsalat Birliyində əhali sektoru üzrə 61 min 453 yeni abonent qeydiyyata alınıb.***

Birlikdən "Unikal"a bildirilib ki, bunun 44 min 176-sı Bakı, Abşeron və Sumqayıt, 17 min 277-si isə regionlar üzrədir. Oktyabr ayı ərzində isə əhali sektoru üzrə qeydiyyata alınan yeni abonentlərin sayı 7115 təşkil edib. Bunun 5404-ü Bakı, Abşeron və Sumqayıt, 1711-i isə regionlar üzrədir.

Beləliklə, hazırda "Azəriqaz"ın ümumi əhali abonentlərinin sayı 2 milyon 310 min 414 təşkil edir. Bunun 1 milyon 413 min 177 abonent regionların, 897 min 237 abonent isə Bakı şəhərinin payına düşür.

# Mərkəzi Bank 200 milyon manat cəlb edir

***Noyabrın 16-da Azərbaycan Mərkəzi Bankı (AMB) tərəfindən vəsaitlərin cəlb edilməsi üzrə depozit hərracı keçiriləcək.***

AMB-dən "Unikal"a bildirilib ki, hibrid hərracda 200 milyon manat məbləğində vəsaitin cəlbi nəzərdə tutulur. Məbləğin artırıla bilən hissəsi hərrac məbləğinin maksimum 20 faizidir. Depozit hərracının müddəti 14 gündür. "Bloomberg" ticarət sistemində keçiriləcək hərrac üzrə faiz dərəcələri 6,01-6,49 faiz təşkil edir.

# 64 dövlət əmlakı çıxarılacaq

***Əmlak Məsələləri Dövlət Xidməti (ƏMDX) tərəfindən növbəti hərrac dekabrın 8-də təşkil ediləcək.***

ƏMDX-dən "Unikal"a bildirilib ki, hərraca 64 dövlət əmlakı çıxarılacaq. Bunlardan 38-i səhmdar cəmiyyəti, 24-ü kiçik dövlət müəssisəsi və obyekti, 2-si isə yarımçıq tikilidir. Özəlləşdirməyə çıxarılan əmlakların tam siyahısı ilə burada tanış ola bilərsiniz: (https://bit.ly/38EfQLC, https://bit.ly/3nkjTRI, https://bit.ly/2Uo9QP2).

Dövlət Xidməti tərəfindən təşkil edilən hərraclarda hər kəsin sərbəst iştirakı təmin olunur. İştirak etmək istəyən şəxslərə seçdikləri dövlət əmlakı üzrə elektron sifariş verməklə yanaşı, hərraclara onlayn qoşulmaq imkanı da yaradılıb. Prosesə marağı olanlar hərrac günü həm Əmlak Xidmətləri Məkanına gəlməklə, həm də elektron resurslardan istifadə etməklə hərracları qeydiyyatsız formada izləyə bilərlər.

Keçiriləcək hərraclarda iştirak etmək istəyən şəxslər xidmətin rəsmi saytına ("emlak.gov.az") və ya Özəlləşdirmə Portalına ("privatization.az") daxil ola, seçim etməklə qeydiyyatdan keçə, dövlət əmlakının ilkin hərrac qiymətinin 10 faizi məbləğində behi ödəyib sifarişçi statusu ala bilərlər. Hərrac günü hər kəs Elektron Xidmətlər Portalından ("e-emlak.gov.az") "Elektron hərrac" bölməsini seçərək onlayn özəlləşdirməyə qoşula bilər.

# Xalqın birliyi, Ordunun qüdrəti və liderin gücü - Qələbə

***Sentyabrın 27-dən başlanan Vətən müharibəsi nəhayət ki, qələbə ilə başa çatdı. Şübhəsiz ki, Azərbaycan xalqı böyük qələbə qazandı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu, qəhrəman əsgər və zabitlərimiz 44 gün ərzində böyük şücaət göstərərək bu qələbəni təmin etdilər. Bu müqəddəs mübarizədə canlarını qurban vermiş bütün şəhidlərimizin ruhu qarşısında baş əyirəm.***

Azərbaycan son iki yüzillik tarixində müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxır. Qələbəmizin əldə olunmasında mühüm amillərdən biri də tarixi şəhərimiz olan Şuşanın işğaldan azad edilməsi oldu. Noyabrın 8-də Şuşanın erməni işğalından azad edilməsi çox mühüm hadisədir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bu müjdəsi Azərbaycan xalqı tərəfindən böyük coşğu ilə qarşılandı. 28 ildən artıq müddətdə işğal altında olan mədəniyyətimizin beşiyi olan Şuşanın azad edilməsi həm siyasi, həm böyük strateji, həm də çox böyük mənəvi məna daşıyır.

Şuşanın azad edilməsindən bir gün sonra-Dövlət Bayrağı Günündə daha 72 yaşayış məntəqəsinin, ümumilikdə isə 300-dən çox yaşayış məntəqəsini işğaldan azad edilməsi Nikol Paşinyanı məcbur etdi ki, noyabrın 10-da Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında bəyanatı imzalasın. Hesab edirəm ki, bu bəyanat Ermənistanın hərbi kapitulyasiyası deməkdir və Azərbaycana maksimum sərf edən sənəddir. Bu bəyanat uzun illər davam edən işğala son qoyur. Razılaşmaya əsasən Ermənistan öz üzərinə Kəlbəcər, Laçın və Ağdam bölgələrindəki işğalçı qoşunlarının çıxarılması barədə öhdəliklər götürür. Beləliklə, məcburi köçkün olan insanlarımızın 30 illik həsrətinə son qoyulur, onlar öz doğma torpaqlarına qayıdacaqlar. Təkçə onlar yox, Dağlıq Qarabağ ərazisindən məcburi köçkün olan vətəndaşlarımızın da doğma yurdlarına qayıtmaları təmin olunacaq. Vacib bir məqam da ondan ibarətdir ki, imzalanmış bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur. Bu o deməkdir ki, Qarabağa heç bir status, muxtariyyət verilmir. Eyni zamanda, Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Bununla da, Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Bununla da, Naxçıvanın 30 illik blokadasına son qoyulur, eyni zamanda türk dünyasının yerüstü tranzit-rabitə əlaqələri bərpa edilir-



.İmzalanmış bəyanata əsasən, münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzin yaradılması böyük əhəmiyyət kəsb edir. Bu mərkəzdə Rusiya və Türkiyə hərbçiləri fəaliyyət göstərəcək. Bu o deməkdir ki, Türkiyə rəsmi qaydada bu münaqişənin gələcək həlli və atəşkəsə nəzarət etmək işində rol oynayacaq. Yəni, bölgədə gələcək əməkdaşlıq formatında Türkiyə və Rusiya iştirak edəcək. Hər iki ölkə bizim üçün dost, qonşu ölkədir. Bununla da, başqa kənar oyunçuların bölgədə tərəf olmaq cəhdləri aradan qalxır.

Azərbaycanın bu siyasi qələbənin qazanmasında hərbi qələbəmiz müstəsna rol oynayır. Eyni zamanda, son illər ərzində ölkəmizdə aparılan inkişaf siyasəti, mövcud olan gözəl ab-hava, xalq-iqtidar birliyi, siyasi münasibətlərin müsbət səviyyəyə qalxması, beynəlxalq nüfuzumuz, beynəlxalq arenadakı fəaliyyətimiz, ordu quruculuğu təbii ki, bu qələbəmizi şərtləndirdi. İqtisadi gücümüz qələbəni əldə etmək potensialımızı təmin etdi. Azərbaycan iqtisadi cəhətdən heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. İqtisadi müstəqillik ordumuzu gücləndirmək üçün imkan yaradıb. Ordumuzun tələbatı böyük dərəcədə daxili istehsal hesabına təmin edilir.

Biz həkimlər olaraq da,bu Vətən Müharibəsində əlimizdən gələni etdik. Çoxsaylı həkimlər könüllü olaraq,cəbhə bölgəsinə yollanaraq igid əsgərlərimizə lazımi tibbi yardın göstərdilər. Cəbhəyə getməyənlər də arxada bütün gücünü səfərbər etdilər. Yəni, xalq olaraq yumruq kimi birləşməyimiz bizi qələbəyə apardı.

Qələbə bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır.

***İsmət Məmmədov***
***3 saylı şəhər Klinik Xəstəxanasının şöbə müdiri,***
***YAP təşkilatının sədri***

# Şəhid ailələri və müharibə əlilləri üçün yeni sosial dəstək tədbirləri hazırlanır

***Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müalicə olunan hərbçilərlə görüşündə Vətən müharibəsində şəhid olmuş əsgər və zabitlərin ailə üzvlərinin və müharibə əlillərinin daim dəstəklə təmin olunmaları üçün verdiyi tapşırığa əsasən görüləcək tədbirlərlə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində iclas keçirilib.***

Bu barədə "Unikal"a Nazirlikdən məlumat verilib. Nazir Sahil Babayev vurğulayıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Ordumuz şanlı tarix yazaraq möhtəşəm tarixi Qələbə əldə etdi, torpaqlarımız erməni işğalından azad edildi. Cənab Prezidentimizin qeyd etdiyi kimi, bu Qələbənin əsas qəhrəmanı Azərbaycan əsgəri və zabitidir. Müharibə zəfərlə başa çatandan sonra Ali Baş Komandanımızın ilk növbədə yaralı hərbçilərimizlə görüşməsi də onlara yüksək hörmət və ehtiramın, qayğının nümunəsidir.

Nazir bildirib ki, həmin görüşdə dövlət başçımızın tapşırıqlarına uyğun olaraq şəhid ailələrinin, müharibə əlillərinin həm maddi təminatının və həyat şəraitlərinin yaxşılaşdırılması, həm də məşğulluq məsələlərinin həlli istiqamətində bütün tədbirlərin görülməsi təmin olunacaq.

S.Babayev qeyd edib ki, bu il 1500 mənzil və fərdi evin şəhid ailələri və müharibə əlillərinə verilməsi işləri aparılır. Onlardan böyük əksəriyyəti artıq verilib və proses davam edir. Qələbəmizlə başa çatan Vətən müharibəsində şəhid olmuş insanların ailələrinin və bu müharibədə əlilliyə məruz qalmış şəxslərin də cənab Prezidentin tapşırığına əsasən mənzil və fərdi evlərlə, habelə müharibə əlillərinin avtomobillə təminat proqramları həyata keçiriləcək.

İclasda şəhid ailələri və Vətən müharibəsi əlilləri, habelə erməni terrorundan zərər çəkmiş mülki şəxslərlə bağlı aşağıdakı digər istiqamətlər üzrə yeni sosial dəstək tədbirlərinin həyata keçirilməsi ilə bağlı görüləcək işlər müzakirə olunub və müvafiq tapşırıqlar verilib:




Şəhid ailələrinin, müharibə əlillərinin və digər iştirakçılarının özünüməşğulluq proqramına növbədənkənar cəlb olunmaqla, onların proqram çərçivəsində kiçik bizneslərinin qurulması işlərinin daha da genişləndirilməsi;

Şəhid ailələrinin və müharibə əlillərinin maddi vəziyyəti nəzərə alınmaqla, ünvanlı sosial yardım proqramının onlar üçün daha əlçatan olması və bu proqramla əhatə olunmaları üçün bütün müvafiq dəstəyin təmin olunması;

Şəhid ailələrinin üzvlərindən və müharibə əlillərindən, müharibə iştirakçılarından işsiz və işaxtaran olan vətəndaşların məşğulluq məsələlərinin operativ həlli, onlara vakansiya məlumat bazasında olan iş yerlərinin təklif edilməsi, sosial tərəfdaşlarla birgə bu sahədə sıx əməkdaşlığın qurulması, DOST İş mərkəzi tərəfindən də onlar üçün uyğun, münasib vakansiyaların təqdim edilməsi;

Şəhid ailələrinin üzvlərinin, müharibə əlillərinin və digər iştirakçılarının məşğulluğunun təşviqi məqsədilə bu sahədə işəgötürənlər üçün stimullaşdırıcı tədbirlərə dair təkliflərin hazırlanması, əməkhaqlarının birgə maliyyələşdirilməsi proqramının əsasən bu istiqamətdə tətbiqi;

Müalicə kurslarından sonra müharibə əlillərinin bərpa xidmətləri ilə geniş şəkildə əhatə olunması, son illərdə müasir tələblərə uyğun qurulmuş reabilitasiya müəssisələrinin bu məqsədlə tam gücü ilə işə salınması;

Dövlət başçısının müvafiq Sərəncamına əsasən, Nazirliyin Protez-Ortopedik Bərpa Mərkəzində qurulmuş yüksək texnologiyalı protezlərin istehsalı sexində müharibə əlilləri üçün funksional protezlərin, bioprotezlərin istehsalına başlanması;

Müharibə əlillərinin reabilitasiya vasitələri ilə təminatı işlərinin operativ həyata keçirilməsi;

Erməni terroruna məruz qalmış mülki şəxslərə ehtiyac duyduqları sosial dəstəyin göstərilməsi, onların terror nəticəsində ziyan dəymiş, dağılmış kiçik müəssisələrinin bərpasına özünüməşğulluq proqramı çərçivəsində dəstək verilməsi, habelə erməni terroru nəticəsində heyvanları tələf olmuş mülki şəxslərə özünüməşğulluq proqramı çərçivəsində heyvanların alınıb verilməsi və s.

İclasda qeyd olunan istiqamətlərdə sosial dəstək tədbirlərinin təşkili və bu işlərin operativ və keyfiyyətli aparılmasına nəzarət məqsədilə işçi qrupların yaradılması qərara alınıb.

# Erməni məkri, Topçubaşovun yalanı, “Qarabağ” deyən ziyalımızın acı sonu... - Şəhid ziyalı

***“Şəhid” deyəndə birbaşa güllə qabağında şəhid olanlardan getməyəcək söhbət. Onlar haqqında da layihələrimiz var, amma bu layihə el-oba, vətən yolunda elmi, sənəti, düşüncəsi ilə mübarizə aparıb, bu yolda fəda olanlar haqqındadır.***

1960-cı ildə erməni millətçi partiyası Qarabağ və Naxçıvan ərazilərinə iddia irəli sürüb. Çox çəkmədən iddia faktlarla, dəlillərlə yerindəcə susdurulub. Düzdür, onlar geri çəkilib, fəaliyyətlərini münasib zaman yetişincəyə qədər gizlin yolla, altdan-altdan davam etdiriblər, amma anlayıblar ki, Azərbaycanda milli düşüncəli, millətini sevən sonuncu adam məhv olmayıncaya qədər istəklərini həyata keçirə bilməyəcəklər...

Həmin prosesdə əsaslandırılmış tarixi faktlarla Mikoyanın qarşısına çıxan, zəka döyüşü aparan azərbaycanlı Lent.az -ın “Şəhid ziyalı” layihəsinin qəhrəmanıdır. 1950-60-cı illərdə Azərbaycanın siyasi və dövlət xadimi, millətin taleyini vəzifədən çox yüksəkdə tutan Nazım Hacıyev. 38 yaşında müəmmalı surətdə dünyasını dəyişən dəyərli ziyalı.

Nazim Hacıyev 1924-cü il iyunun 3-də Nuxanın Sarıpapaq məhəlləsində dünyaya gəlib. Dədə-babadan şəkili deyildi, əsilləri ora İrəvandan köçmüşdülər. İrəvan xanlığının nəslindəndir. Ana tərəfdən ulu babası Ağahüseyn xan İrəvanski - İsmayılov general-qubernator idi. Babası Kərim bəy İsmayılov isə Hacı Zeynalabdin Tağıyevin dəvəti ilə Bakıda ilk qızlar məktəbini yaradanlardan biridir.

Yeniyetmə yaşlarında Nazim ailəsinə maddi kömək üçün “Nuxa” qəzetində müxbir kimi əmək fəaliyyətinə başlayır. Kiçik məqalələr yazsa da 30-cu illərdə Hacıyev imzasını bütün Şəki tanıyırdı. Orta məktəbi bitirəndən sonra Nuxada peşə məktəbinə daxil olur. Sonradan təhsilini Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində davam etdirsə də, müharibənin başlanması onu yarımçıq qoyur.

1941-ci ilin qışında Nuxaya qayıdan Nazim yenidən həm qəzetdə işləyir, həm də məktəbdə dərs deyirdi. Baş Küngüt kəndinin məktəbində dərs hissə müdiri, maarif şöbəsində metodist, “Nuxa fəhləsi” qəzetində məsul katib işləyir.

Ordu sıralarına çağırılanda hərbi komissarlığın diqqətini Nazimin belə gənc yaşına xas olmayan intelekti, xarici dil bacarığı cəlb edir. Ona kəşfiyyat məktəbində təhsil alması üçün müsbət rəy verilir. Təhsilini başa vurur, kəşfiyyatçı kimi Rusiyada hazırlıq keçəndən sonra müharibənin sonlarında - 1944-cü ildə NKVD sıralarında işə başlayır.

1947-ci ildə isə gözlənilmədən onu NKVD komsomolunun katibi təyin edirlər. Təbii ki, o vaxt bunun niyə olduğunu heç kim bilə bilməzdi. Nazim Hacıyevin öz qeydlərindən bəlli olur ki, mülayim xarakteri, səmimiyyəti NKVD sıralarında ona mane olub. Müharibə gedən ölkədə agentin səhvi isə ölkəyə baha başa gələ bilər. Ona görə də o vaxtkı Xalq Daxili İşlər Komissarı Teymur Yaqubovun köməkliyi ilə Nazim Hacıyev NKVD komsomolunun katibi təyin edilir, yəni istiqamətini dəyişir. Sonra Bakı şəhər Komsomol Komitəsinin katibi seçilir.

1950-ci ildə Azərbaycan KP Bakı Komitəsi Təbliğat şöbəsinin təlimatçısı təyin edilən Nazim Hacıyev sonradan Azərbaycan Tibb İnstitutunun Partiya komitəsinin katibi təyin edilir.

Nazim Hacıyev 1951-ci ildə Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının XIX qurultayında LKGİ MK-nın katibi, 1952-ci ildə isə Azərbaycan LKGİ MK-nın birinci katibi seçilir. Bu ardıcıllıqla savadı, qabiliyyəti onu yüksələn xətlə aparır.

Ümumittifaq Komsomolu Mərkəzi Komitəsinin büro üzvü, Azərbaycan KP MK Elm və məktəb komitəsinin müdiri və nəhayət, Azərbaycan KPMK-nin katibi.

Səlahiyyəti olduğu müddətdə böyük cəsarətlə türkçülüq və azərbaycançılıq ideyalarını daxildə, həm də Sovet imperiyasının əsarətində olan bir ölkənin daxilində yaya bilib.

Milli zəmində düşünüb gördüyü işləri ona kimsə diktə etmirdi, genetika öz sözünün deyirdi. Milli düşüncəni boğmaq, tabe etdirmək olmur, yalnız onu daşıyan canı həyatdan məhrum etməklə qarşısını almaq olar. O da birində, ikisində, üçündə... bütöv millətdə yox. Bütöv millətin genetikası isə ayrı-ayrı fərdlərin genetik kodu ilə formalaşır. Nazim Hacıyevin genetikası Azərbaycan milli düşüncəsini formalaşdıran genlərdəndir. Dayısı Rəşid bəy İsmayılov Azərbaycan Cümhuriyyətinin Nazirlər Şurasında çalışıb.

Orta Asiyaya deportasiya olunmuş Ahıska türklərinin Azərbaycan SSR-ə köçürülməsinin əsas təşəbbüskarı, təşkilatçısı İmam Mustafayevlə Nazim Hacıyev olub. SSRİ-nin rəhbəri Xruşşovun tapşırığı ilə o, Özbəkistana göndərilmişdi ki, şərq psixologiyasını yaxşı bildiyindən vəziyyəti yerində araşdırsın. Araşdırıb və... Ahıska türklərini Azərbaycana yerləşdirməklə onların öz vətənlərinə mərhələlərlə qaytarılmasının mümkünlüyünü deyib.

Niyyət baş tutub, onları Saatlı və Sabirabadda yerləşdirirlər. Amma SSRİ rəhbərliyində oturmuş səlahiyyətlilərin bəziləri bunun əleyhinə idilər. Xüsusən Anastas Mikoyan. Nazim Hacıyevin simasında bir azərbaycanlının millətlərarası problemi həll etməsi, həm də burda türk faktorunun olması onu narahat edirdi.

Milli məsələlərdə fəal olan, öz sözü, prinsipləri, düşüncəsi və onları həyata keçirmək bacarığı, nüfuzu olan bütün azərbaycanlılar kimi, Nazim Hacıyev də erməni diasporunun qara siyahısına düşmüşdü.

Azərbaycan mədəniyyətində də böyük rolu var Nazim Hacıyevin. O dövrün bütün mədəniyyət tədbirlərinin altında onun imzası vardı. Ən yaxın dostları mədəniyyət və elm adamları - Niyazi, Fikrət Əmirov, Qara Qarayev, İmran Qasımov, Şəmsi Bədəlbəyli, Mirəli Qaşqay idi.

Nazim Hacıyev gənclər, beynəlxalq, mədəniyyət, təhsil, beynəlxalq siyasət, dövlət idarəçiliyi mövzularında 50-dən artıq kitab və məqalələrin müəllifidir.

Bakıda 1-ci SSRİ Gənclər festivalını Nazim Hacıyev təşkil etmişdi. Sonradan böyüdülüb Opera Teatrı olan balet studiyasının tikilməsi





onun təşəbbüsü ilə həyata keçirilib.

Tofiq Əhmədovun rəhbərliyi ilə Estrada orkestrini də yaradan Nazim Hacıyevdir. Müəllimlər qurultayı, Aşıqlar qurultayı onun layihələridir.

Rəsmi tədbirlərdən birində o vaxt Nazim Hacıyev “Cənub azərbaycanlıları” ifadəsini işlətmişdi, onların öz hüquqları və azadlıqları üçün mübarizə apardıqlarına, azərbaycanlı olduqlarına görə qətlə yetirilməsindən danışmışdı. Demişdi ki, əgər istilaya məruz qalmasaydılar, bu taleyi də yaşamazdılar.

Bir neçə gün sonra Nazim Hacıyevin çıxışı o tay Azərbaycanda əks-səda verib. Təbii ki, bu əks-səda SSRİ rəhbərliyində də səs salmışdı.

1960-cı ilin oktyabrında Amerikada “Mübarizə” adlı qəzet çıxır. Erməni millətçi partiyasının rəsmi orqanı idi bu qəzet. Qəzetin baş məqaləsində yazılır: “Biz erməni xalqının fiziki xilasının və Ermənistan dövlətçiliyinin bərpasının 40-cı ildönümü ərəfəsindəyik. Sovet İttifaqının üzvü olan respublikalar yubiley mərasimində alovlu salamlar ifadə edən nümayəndə heyətləri iştirak edəcəklər. Və onlar bizə xatirə hədiyyələr təqdim edəcəklər. Lakin bütün real və hiss edilən hədiyyələr içində ən əziz və səmimi hədiyyəni qardaş Azərbaycan təqdim edə bilər. Bu böyük hədiyyə Erməni Sovet dövlətinin 40 illiyilə əlaqədar erməni Naxçıvan və Qarabağının Ermənistana verilməsi olacaq”.

Bu məqalənin yer aldığı qəzet dekabrda artıq Azərbaycan SSR Mərkəzi komitəsində idi.

Onu da deyim ki, bu hadisədən bir neçə gün əvvəl Ermənistan Naxçıvanı “geri istəmək” təklifi ilə çıxış edəndə Azərbaycan Dövlət Universitetinin baş müəllimi Abbas Zamanov bu həyasızlığa qarşı faktlarla və dəlillərlə ciddi bir çıxış etmişdi.

SSRİ-nin tarixində millətlərarası münasibətlərdə hələ bu cür açıq söz-söhbət olmamışdı. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi ermənilərin bu həyasızlığına SSRİ hakimiyyətinin reaksiyasını anlaya bilmirdi. Belə bir vaxtda Azərbaycan hakimiyyəti qətiyyətli və son addım atmalı idi. Bu məsələ ya birdəfəlik həll olunmalıdır, ya da erməni məkrliləri pusquya yatıb, münasib vaxt olan kimi yenidən eyni təkliflə qalxacaq, nəsillər bu problemin altında qalıb çözüm tapa bilməyəcək.

Azərbaycanın birinci katibi Vəli Axundov məsələnin həllini Nazim Hacıyevə tapşırır - milli məsələdə onunla fikirləri üst-üstə düşürdü. Nazim Hacıyevin tarixçi alim və mütəxəssislərdən, dövlət rəsmilərindən ibarət yaratdığı komissiya işə başlayır. Tarix İnstitutunun rəhbəri olmuş alim Əlövsət Quliyev də işə cəlb edilir. Birlikdə tərtib edilən yekun sənəd Mərkəzi Komitəyə göndərilir. SSRİ rəhbərliyi bu sənəd əsasında qərar verir ki, mövcud sərhədlərin dəyişdirilməsi SSRİ-nin dağılmasına gətirib çıxara bilər, bu hal yolverilməzdir.

Bu qərarın verilməsində Nazim Hacıyevin rolu danılmaz idi. O, Moskvada təbliğat-təşviqat üzrə rəhbər İliçov və mədəniyyət naziri Kurtsova ilə görüşlərində onları öz həqiqətimizə inandırmağa nail olmuşdu.

Moskvada keçirilən yığıncaqda Mikoyan Nazim Hacıyevin nüfuzunun və dəlillərinin oynadığı rolu görüb, qeyzlənir. Ona görə də Hacıyevi “millətçilikdə”, xalqlararası nifaq salmaqda günahlandırmağa başlayır. “Səni kim daşıdığın vəzifəyə tövsiyə edib?” - deyə Nazim Hacıyevi ittiham edən Mikoyanın cavabını Mərkəzi Komitənin katibi Xruşşov verib. “Onun təyinatı şəxsən mənim məsləhətimdir” - deyə Xruşşov Mikoyanı erməni burjua-millətçi partiyasının maraqlarına xidmət etməkdə və Lenin ideyalarına zidd davranmaqda ittiham edib.

Bu faktları o dövrdə Azərbaycan Nazirlər Sovetində məsul vəzifə daşıyan Cavid Mehdiyev sonralar xatirələrində yazıb. Onun yazdıqlarına görə, Xruşşov ermənilərin iddialarını əks etdirən qondarma sənədi hamının qarşısında elə ordaca cırıb tullayıb və deyib ki, bu məsələ bir daha müzakirə olunmayacaq.

Həmin iclasdan qayıdandan az müddət sonra Nazim Hacıyevin səhhətində problem yaranır. Hamı onun təkidlə Moskvaya müalicəyə getməsini təkid edir. Akademik Mustafa Topçubaşov onu müayinə edəndən sonra təhlükəli heç nə olmadığını və özü müalicə edəcəyini bəyan etsə də, Nazim Hacıyevi Moskvaya göndərirlər. Həm də Kreml xəstəxanasında professor Aram Abramyanın müalicəsinə. Aram onda bədxassəli şiş aşkarladığını və təcili əməliyyat olunmalı olduğunu deyəndə Nazimin ailəsi Mustafa Topçubaşovu köməyə çağırır.

Topçubaşov nəticələrlə tanış olub, həkimin düzgün qərar verdiyini deyir, nə yazıq ki...

Nazim Hacıyevi erməni professor əməliyyat edir. Əməliyyatdan sonra Abramyan hər şeyin yaxşı getdiyini deyir. Xəstəni yoxlayan professor Topçubaşıv isə onun yanından məyus çıxıb əməliyyatın düzgün aparılmadığından narazılıq edir. “Mən Hacıyevi yenidən əməliyyat edəcəm” - deyir. Xəstəxana dəhlizlərində Abramyanla erməni dilində danışan bir neçə nəfərin şübhəli davranışları Topçubaşovun diqqətini çəkmişdi.

Təəssüf ki, Topçubaşovun Nazim Hacıyevi yenidən əməliyyat etmək istəyi baş tutmur, həm də naməlum səbəbdən.

Getdikcə vəziyyəti ağırlaşan Nazim Hacıyevin təkrar Moskvaya müalicəyə göndərilməsi heç bir nəticə vermir və 1962-ci il iyulun 30-da dövlət xadimi gözlərini dünyaya əbədi yumur. Bütün milli düşüncəli, vətənpərvər, Azərbaycanı düşünən azərbaycanlıların taleyi kimi sonuclanan daha bir tale. Onu Filarmoniyada keçirilən vida mərasimindən sonra minlərlə insanın axını ilə Bakıda Fəxri Xiyabanda dəfn edirlər. Özü ilə birgə ölüm sirlərini də aparır. İllər sonra bütün bunları oğlu, tarixçi Aydın Hacıyev araşdırıb tapmasaydı, bu sirri biz də bilməyəcəkdik.

Sənədlərdən bəlli olub ki, Topçubaşov nəticələrlə tanış olub, heç bir şişin, metastazın olmadığını deyib. Onun nəşi 4 saylı klinik xəstəxananın morqunda araşdırılıb. Topçubaşov nəşi araşdırandan sonra da eyni fikri deyib: “Nazim Hacıyevə sui-qəsd edilib!” Amma sonradan sənədi imzalamağa məcbur olub...

40 mərasimindən sonra Nazim Hacıyevin xanımı Ziba Bədəlova SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin sədri Vladimir Semiçastnıya zəng vurur. Ona Topçubaşovun gəldiyi qənaət və narahatlıqları barədə danışıb, işin araşdırılmasını xahiş edir. Hacıyevlə silahdaş olan Semiçastnıy özünün də şübhələndiyini və məzarı açdırıb araşdırma aparacağına vəd verib. Bir həftə sonra Semiçastnıy Ziba xanıma zəng vurub, “Onlar məndən daha güclüdür” - deyir...

# “Deyirdi, məni yüz ermənin içində də görsən, qorxma...” - Şəhid Milli Qəhrəmanın xanımı danışır

***Əliyar Əliyev. 1957-ci il dekabrın 14-də Qubadlı rayonunun Qəzyan kəndində anadan olub. 1979-cu ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu fərqlənmə diplomu ilə bitirərək, bir müddət Qubadlı rayonunun Dondarlı kənd orta məktəbində idman müəllimi işləyib. Qarabağ müharibəsi başlayanda Əliyar Əliyev könüllü olaraq Azərbaycan Silahlı Qüvvələrinin sırasına qoşulur. Müharibədə özünü təkcə döyüşçü kimi yox, həm də hərbi işin təşkilatçısı kimi göstərməyə başlayır.***

Əvvəlcə taborun kəşfiyyat bölməsinin komandiri, sonra tabor komandirinin təchizat üzrə müavini təyin edilir. Onun təşkil etdiyi tabor camaat arasında “Pəhləvanlar taboru” kimi da tanınır. Çünki könüllülərin əksəriyyəti onun rəhbərlik etdiyi Könüllü Bədən Tərbiyəsi və İdman Cəmiyyətinin üzvlərindən ibarət idi. Lakin o, təvazökarlıq göstərib, komandir olmur. 1992-ci ildə Əliyar Əliyev taborun kəşfiyyat bölməsinin komandiri təyin edilir.

1991-ci ilin may ayında Qubadlının Yuxarı Cibikli kəndi, 1992-ci ilin oktyabr ayının 12-də isə bu rayonun Topağac-Başarat yüksəkliyi uğrunda gedən döyüşlərdə də onun rəhbərlik etdiyi alay düşməni ağır itkilərə məruz qoymuşdu. Əliyar Əliyevin son döyüşü 1992-ci il oktyabrın 3-də Laçının iki kilometrliyində olub. “Tikanlı zəmi” yüksəkliyi uğrunda döyüşdə tabor komandiri Əliyar Əliyev və onun sürücüsü Əlisadət Ağayev qəhrəmancasına həlak olurlar. O, Qubadlı rayonunun Qəzyan kəndində dəfn olunub. Azərbaycan Respublikası Prezidentinin 10 noyabr 1992-ci il tarixli 301 nömrəli Fərmanı ilə Əliyar Yusif oğlu Əliyev ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

**Qismət**

Əliyar haqqında onun iki övladı - Yusif, Pərvanə və həyat yoldaşı ilə söhbət edirik. Milli Qəhrəmanın həyat yoldaşı Pəri Əliyeva böyük həvəslə Əliyarla tanış olduğu gənclik illərinə qayıdır:

- Bakıda kondisioner zavodunda işləyirdim. Əliyar da Bədən Tərbiyəsi İnstitutunda oxuyurdu. Rus dilində çox gözəl bilirdi. Özü də deyirdi ki, ruslar rus dilinin qrammatikasını mənim qədər bilmir. Mən Əliyarın bacısıgilin qonşuluğunda kirayədə qalırdım. Əliyarla tanış olmazdan əvvəl onu yuxuda görmüşdüm. İlk dəfə onu biz yaşayan həyətdə görəndə özözümə üşəndim ki, mən bu oğlanı yuxuda görmüşdüm axı. Sonralar da həmişə ona deyirdim ki, Əliyar, sən mənim tanrı tərəfindən göndərilmiş qismətimsən.

Bir gün işdən çıxanda, onu iş yerimin qarşısında gördüm. Qonşu kimi salamlaşıb yanından ötmək istəyəndə gördüm yanımca gəlir. Sonra elçi yolladı. 1979-cu il sentyabrın 15-də biz ailə qurduq. Qubadlıda yaşamağa başladıq, onun xətrinə mən bir çox çətinliklərə dözdüm. Biz tərəflərdə evdə başa yaylıq bağlamırdılar, qısaqol köynəklər, qısa ətəklər dəbdə idi. Amma Qubadlı bir az mühafizəkar yeri idi. Ona görə mən oranın adətləri ilə hərəkət edirdim. Yaylığı boğazımın altında düyünləyə bilmirdim, amma yenə də başım həmişə örtülü olardı. Əliyar tez-tez Rusiyanın müxtəlif şəhərlərinə idman yarışlarına gedirdi. Bizim pal-paltarımızın hamısını oradan alıb gətirərdi. Burada bir-iki dəfə onunla bazarlığa getdim, sonra dedim ki, mən daha səninlə getməyəcəm, uşaqlardan birini qoş mənə, onunla gedim.

- Niyə getmək istəmirdiniz?

- Çox iti gedirdi. Cüssəli adam idi, onun bir addımı mənim iki, üç addımıma bərabər idi. Həmişə ondan arxada qalırdım, çata bilmirdim.

**Nağıllar**

- Əliyar uşaq vuran deyildi, amma uşaqlar ailədə ondan çəkinirdi. Uşaqlardan ona ən çox bağlı olan qızım idi. Həmişə atasının yanında yatardı. Əliyar rəhmətə gedəndən sonra Pərvanə üzüqoylu sərilir Əliyarın yerinə, əllərinin hər ikisinin də yana açırdı, qoymurdu ora bir adam yaxınlaşsın. Ona deyirdim ki, qadan alım, o boyda yataqda tək yatmayacaqsan ki, qoy, qaqaşlarından biri gəlib səninlə yatsın. Deyirdi, yox, mən atam gələndə atamla yatacam. Biz rayondakı evimizdən çıxanda, qaçqın olana qədər o, orda tək yatdı.

Pərvanə deyir ki, atası onun yaddaşında çox mülayim, ailəcanlı adam kimi qalıb:

- İndi döyüş dostlarından, onu tanıyanlardan atamın şücəətləri, ciddi döyüşçü xasiyyəti haqqında eşidəndə, mənə qəribə gəlir. Ona görə ki, atam evdə bizimlə çox mehriban olub. O, uşaqla uşaq, böyüklə böyük kimi davranırdı. Yadıma gəlir, balaca qardaşım dəcəllik edib yatmayanda o, qolunun bir tərəfinə onu, o biri tərəfinə isə məni alırdı. Sonra bizə cürbəcür nağıllar danışırdı.

- Hansı nağılları danışırdı?

- O vaxtı məşhur bir nağıl vardı. “Əlcək” nağılı. Ən çox onu danışırdı. Nağılın ortalarında atam gözləri yanan boz canavardan bəhs edirdi. Onda qardaşım Yusif qorxudan tez gözlərini yumub, yatırdı.

Qarmonda ifa etməyi bacarırdı. Tez-tez qarmonda mahnılar ifa edər, bizə də deyərdi ki, oynayın, görüm necə oynayırsınız. Özü də mütləq Məşədi İbadın mahnısını oynadırdı, deyirdi onun kimi oynayın görüm. Sonralar bizə gələn dostları onun haqqında deyirdilər ki, o, həddindən artıq utancaq, həyalı adam olub. Amma bizə qarşı sərt deyildi. Əksinə, çox həlim idi. Amma əsəbiləşəndə bircə dəfə baxmağı kifayət edirdi ki, özümüzü yığışdıraq. Yadıma gəlir, uşaq vaxtı mən həmişə atamın yanında yatırdım.

**Batalyon**

Birinci Qarabağ müharibəsində Qubadlı camaatının qəlbində bir ad vardı. O da Əliyar Əliyev idi. Hamı düşünürdü ki, Əliyar sağdırsa, deməli, Qubadlı da işğal oluna bilməz. Hamı istəyirdi ki, övladı Əliyarın özünün yaratdığı “Pəhləvanlar” adlı batalyonunda xidmət etsin. Atalar, analar düşünürdülər ki, Əliyarın batalyonunda döyüşən övladına heç nə ola bilməz. Bu inamı Əliyar öz zəhməti, öz xidməti sayəsində qazanmışdı. Xalq onu sevirdi, ona inanırdı. Əliyar isə çalışırdı ki, batalyona ancaq tanıdığı adamları, tələbələrini, şagirdlərini, qohumlarını götürsün. O, özününkülərə ərk edirdi. Çox vaxtı onun qabağını kəsib, bizim uşaqları niyə batalyonuna qəbul etmirsən sözlərini də deyirdilər. Heç bir cavab verə bilmirdi. Amma sonralar deyirmiş ki, tanımadığım insanların balaları şəhid olsa, mən onların valideynlərinin üzünə necə baxaram?!

Pəri xanım Əliyarın döyüşə başladığı, “Pəhləvanlar” batalyonunu yaratdığı ilkin dövrləri yadına salır:

- Əliyar idman müəllimi idi. Hər gün işə gedib gəlir, dinc həyat yaşayırdıq. Müharibə başlananda Əliyar dedi ki, idmanı saxlamaq lazımdır, idman vaxtı deyil. İndi vətəni qorumaq lazımdı. Başına yığılanların da hamısı mərd, qorxmaz uşaqlar idilər. Onun bir videosu var, orada deyir ki, Laçına kimlər gedəcəksə, bir addım irəli çıxsın. Sonra onların içərisindən də özü ilə aparacağı adamları seçir. Onlardan ələləri olur ki, evin tək oğlu olur, onları özü ilə ağır döyüşə aparmır, deyir, sən evin tək oğlusan, ata-ananın yeganə ümidisən. Ona görə camaat onu çox istəyirdi. Uşaqları, tələbələri də ona bağlı idilər. Öz ata və analarından çox Əliyara rəğbət bəsləyirdilər. Mən bunu tam məsuliyyətimlə, əminliklə deyirəm. O, öz batalyonunda qəhrəmana, qardaşa, şəxsiyyətə çevrilmişdi. Əliyarın səsi, adı gələn yerə onlar gözü yumulu gedirdilər. Elə bilirdilər ki, onlara heç nə olmayacaq, çünki orda Əliyar var.

Əliyar həmişə deyirdi ki, mənim atam adi poçtalyon olub, ancaq bunların atası mənəm. Bacarıqları olsa, oxusalar, arxalarında mən dayanacam. Onların səsi yuxarıdan gəlməlidir. Savadsızlıq onun gözünün düşməni idi. Əliyar özü həkim olmaq istəyib. Burda imtahanda başqa adama köməklik edib cavablarını yazanda onu imtahandan çıxarıblar.

Pəri xanım müharibə günlərini, Əliyarın cəbhəyə getdiyi dövrləri yadına salmağa çalışır, o, qeyd edir ki, müharibə Əliyara təsir etmişdi, hətta əvvəlki illərə nisbətən daha dalğın, daha fikirli olub:

- Xasiyyəti dəyişməmişdi, amma fikirli olurdu çox vaxt. Bir dəfə ondan soruşdum ki, Əliyar, nə olub? Mənə dedi ki - Pəri, bu qırılanlar, ölənlər sənin deyil, ölənlər, yaralananlar sənə yad kimi gəlir? Sənə elə gəlmir ki, ailə üzvlərimizin sağ olması, hər şey demək deyil. Mən onlara görə sevinə, şadlana bilmirəm. O vaxtlar yaşım az idi, gənc idim, Əliyarın tam olaraq nə dediyini başa düşməmişdim, amma sonralar anladım... O, müharibənin içindən çıxıb evə gəlirdi, biz isə elə evdə oturmuşduq, orada nə baş verdiyini bilmirdik. Cəbhədə bir əsgərin ölümü onun üçün dəhşətli hadisə idi. Əliyarın əsgərlərindən biri şəhid olmuşdu, Əliyar ona Milli Qəhrəman adının verilməsi təklifini vermişdi. O, oğlanın anası dedi ki, mən öz oğlumu Əliyara qurban verməyə hazıram. Mən adamların onu nə qədər çox istədiklərini o an hiss edəndə sarsılmışdım. Uşaqlarını, bizi çox istəyirdi. Bir dəfə gecə mən alma istədim, səhəri gün taksi sürücüsündən bir kisə alma aldırıb göndərmişdi.



**Dözüm**

İndi onu tez-tez yuxuda görürəm, hər dəfə də mənə köməyə gəlir. Ən çətin bir işin dalınca gedəndə əgər onu yuxuda görmüşəmsə, mütləq düzəlir. Yuxularım həmişə elə canlı olub ki. Ayılanda belə hiss etməmişəm ki, o, yoxdu. Böyük oğlum Emin cəbhəyə gedib təzədən geri qayıtmışdı. Həmin vaxt Əliyarı yuxuda gördüm. Stolda oturub nə isə yazırdı. Dedim, nə yazırsan, Əliyar? Dedi, sənə aid deyil, Eminə yazıram. Səhər yuxudan ayıldım, eşitdim ki, Emin yenidən cəbhə bölgəsinə qayıdıb.

Anasının, bacısının danışdıqlarının fonunda Yusifin fikrə getdiyini, hətta qəhərləndiyini, bunu bizdən gizlətmək üçün eyvana çıxdığını görürəm. Hiss edirəm ki, atası haqqında gedən söhbətlər onda müəyyən xatirələrin yenidən oyanmasına təkan verib. Ona görə də Əliyar haqqında başqa bir sualı Yusifə ünvanlayıram:

**- Nə zaman hiss etdiniz ki, Əliyar kimi bir atanın övladısınız?**

- Yaxşı sualdı. Təbii, özümüzü dərk edən gündən bilirdik ki, adi adamın övladı deyilik. Amma əsasən hansısa ən xırda səhvi edəndə belə ilk olaraq göz önünə o gəlir. Mən adi bir adamam, amma atam şəxsiyyətdir. Onun adını ləkələmək olmaz. Çox heyif o, kişinin belə oğlu var sözlərini eşitməkdən hər zaman qorxmuşam. Çox şükür də ki, eşitməmişəm. Bizə həmişə şəhid, Milli Qəhrəman övladı kimi hörmət ediblər. Mənim Ofeliya adlı müəllimim vardı. Mən dərs oxumayanda, ya dəcəllik edəndə deyirdi ki, sən adi adamın oğlu deyilsən. Vətənlə, atamla bağlı bir çox şeyləri mənə Ofeliya müəllimə təlqin etdi.

Pəri xanım Əliyarla bağlı son günlərini yadına salır. Qeyd edir ki, nə o, nə də Əliyar heç vaxt həlak ola biləcəyinə inanmırdı:

- Mənə həmişə deyirdi ki, məni yüz ermənin içində də görsən, qorxma, bil ki, mən sağ-salamat gələcəm. O, ölümü nə özünə, nə də bizə yaxın buraxmazdı. Ancaq bir dəfə, şəhid olmazdan bir az əvvəl mənə dedi ki, Pəri bu işlər, ölüm-itim əvvəl olsaydı, dözməzdin, amma indən belə həyatda nəsə olsa, dözəcəksən. Elə deyəndə ağladım, məni yaş boğdu.

**Əldə qalan sovqat...**

Son gedişini də çox pis xatırlayıram. O, getməzdən əvvəl yuxu görmüşdüm. Yuxudan ayıldım ki, gedim suya danışım, gördüm həyətdə hər yer aydınlıqdı, elə bir səhər vaxtıdı. Sən demə, yaxınlıqdakı hərbi hissəyə silah sursat gətirirlər, ona görə ətrafı işıqlandırıblar. Otağa qayıtdım. Onda Əliyar da elə bil hiss elədi, dedi, nə olub Pəri? Ona heç nə demədim, yuxunu da danışmadım. Fikirləşdim ki, psixoloji təsir edər, fikirli olar. Səhəri gün Əliyar yola düşdü. Torbada ona qoz-fındıq yığmışdım, dedim, gedəndə apararsan. Elə oldu ki, o gedəndə həmin boxça əlimdə qaldı. Əliyarın anası dedi ki, payını aparmadı, ona qismət olmayacaq. Elə bil hamı nə isə şübhəyə düşmüşdü. Hamı düşünürdü ki, görəsən o, evə gələcək, yoxsa, yox. Həmin gün saat beşdə onu vurdular.

Əliyarı gətirəndə xəbəri mənə vermək üçün rayonun üçüncü katibi olan Ceyran xanım gəlmişdi. Mən onu görən kimi özümü qaldırıb, yerə çırpdım. O, məəttəl qaldı, dedi, ay qızım, qorxma, yaralanıb. Dedim, məni aldatmayın, onsuz da yuxumu görmüşəm, Əliyar həlak olub. Onda o, ağladı dedi, hə, qızım şəhid olub. Ondan sonra səsim bütün həyəti başına götürdü. Həyətimiz bir an içində adamla doldu. Sonra Əliyarın da, sürücüsünün də cənazəsini gətirdilər. Onu kürəyindən vurmuşdular. Son dəfə özüm əlimlə vurulan yeri yoxlamışdım.

Zaman keçdikcə dərdin üstü qaysaqlanır, amma mən heç cür Əliyarı yaddan çıxara bilmirəm. Bu iyirmi yeddi il mənim üçün biriki il kimi gəlib keçib. Mən rayonda olanda elə gün olmurdu ki, əlimdə gül onun qəbrinin üstünə çıxmayım. Bir gün kəndimizin yaşlı qadını məni saxlayıb dedi, qızım, sən belə hərəkət eləmə. Sənin üç balan var, sabah onlar ortalıqda qalar. Özünü ələ al, hər gün sənin nə işin var məzarlıqda. Başına bir iş gələr, xəstələnərsən. Mərd ol, balalarını böyütmək lazımdır. Bakıya gələndən sonra isə tez-tez Şəhidlər xiyabanına getmişəm. Hər gün işləyirdim, evə həmişə əlidolu gəlirdim. İstəmirdim onlara atasız kimi baxsınlar. Hərdən uşaqlara deyirəm ki, o vaxt pulumu yığsaydım, sizə bir neçə ev alardım. Çalışırdım ki, onlar atasızlığı xəyallarına tez-tez gətirməsinlər. Bir dəfə Emin yerdə uzanıb dərs oxuyurdu. Yavaşca gedib onun yanında dayandım, o, mənim gəlişimi hiss etmədi, sonra əlimi onun gözlərinin qarşısında bir neçə dəfə yellədim, o, yenə hiss etmədi. Yəni uşaqlar da mənimlə birlikdə çəkirdilər. Amma heç kim üzə vurmurdu. Hamı içində çəkə-çəkə fırlanırdı. Elə günümüz olub ki, soğan qızardıb onlara yedirtmişəm, özüm ac qalmışam. Belə günlərimiz də olub.

# Azərbaycan musiqisinə qarşı erməni saxtakarlığı ifşa olundu

***Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) elmi-tədqiqat laboratoriyasının təşkilatçılığı ilə noyabrın 6-da "Azərbaycan musiqisinə qarşı aparılan işğalçılıq siyasəti" mövzusunda onlayn beynəlxalq konfrans-konsert keçirilib.***

Bakı Musiqi Akademiyasından verilən məlumata görə, "Mədəni əlaqələrin inkişafına dəstək" İctimai Birliyinin eyni adlı layihəsi əsasında və Azərbaycan Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası ilə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin maliyyə dəstəyi ilə keçirilən beynəlxalq elmi tədbirdə BMA-nın mütəxəssisləri, yaradıcı gənclər, ictimai fəallar, bəzi dövlət qurumları iştirak ediblər.

Elmi-tədqiqat laboratoriyasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktru, dosent Nuridə İsmayılzadə konfransda beynəlxalq elmi tədbirin mövzusu, layihənin məqsədi barədə ətraflı məlumat verib. Sonra BMA-nın rektoru, SSRİ və Azərbaycan Xalq artisti, professor Fərhad Bədəlbəylinin videomüraciəti təqdim olunub. F. Bədəlbəyli bu konfransın aktuallığını, milli musiqimizə qarşı erməni saxtakarlıqlarının elmi əsaslarla ifşa olunmasının vacibliyini diqqətə çatdırıb, mədəniyyət beşiyi Qarabağın işğaldan tam azad olunduğu ərəfədə musiqişünaslıq ictimaiyyətinin qarşısında dayanan vəzifələrdən danışdı və konfransa uğurlar arzulayıb.




Mövzu ilə bağlı elmi və yaradıcılıq işləri üzrə prorektor, Əməkdar incəsənət xadimi, professor Gülnaz Abdullazadənin məruzəsi dinlənilib. O, Türkiyədə elmi konfransların birində ermənilər ilə "Sarı gəlin" mahnısı ətrafında mübahisələrindən bəhs edib, mahnının Azərbaycan musiqisinə məxsusluğu barədə mülahizələrini bildirib. Xalq artisti, müğənni Zümrüd Məmmədova beynəlxalq Babil musiqi festivalında ermənilərin həm Ermənistanı və həm də qondarma "Qarabağ Respublikası"nı təmsil etməsi, buna görə təşkilatçılara etirazını bildirməsi, festivalda ermənilərin Azərbaycan musiqiçilərinə təxribatı, lakin minlərlə dinləyicinin məhz Azərbaycan musiqisinə dövlət bayraqları ilə dəstək verməsi barədə konfransı əyani materiallarla məlumatlandırıb.

Konfransda dosent, aparıcı elmi işçi Ariz Abduləliyevin "Azərbaycan musiqisi: tarix, ənənə və erməni vandalizmi", sənətşünaslıq üzrə fəlsəfə doktoru Rauf Bəhmənlinin "Ermənilərin Azərbaycan rəqslərinə qarşı saxtakarlıqları" mövzusunda məruzələri dinlənilib. Məruzələrdə milli musiqimizə qarşı erməni saxtakarlıqlarına və plagiatlarına dair faktlar araşdırılıb, onların elmi tənqidi verilib.

Nyu-Yorkdan Milli Musiqi və Qlobal Mədəniyyətlər Cəmiyyətinin prezidenti, məşhur pianoçu, BMA-nın professoru Nərgiz Əliyarova, görkəmli kulturoloq alim, publisist J.Spitzberg, Berlindən Alman-Azərbaycan Dotluq Cəmiyyətinin sədri Emil Hassanov, Gürcüstanda M.F.Axundov adına dövlət muzeyinin direktoru Leyla Əliyeva, Rusiyanın əməkdar rəssamı Əsgər Məmmədov, Novosibirsk şəhər dövlət simfonik orkestrinin baş dirijoru Etibar Əhmədov, Ukraynadan M.Maqomayev adına Azərbaycan Mədəniyyət Mərkəzinin sədri Qurban Abbasov, Qırğızıstandan musiqiçünas-alim Sebahaddin Svrikaya, Ege Universiteti Dövlət Konservatoriyasının professoru, doktor Gürbüz Aktaş, Türkiyədən tanınmış pianoçu, bəstəkar və dirijor Turan Manafzadə, NDU müəllimi Fəridə Ağayeva, yaradıcı ziyalılar Sebahaddin Manafzadə, Anar Rafiqoğlu, Əqli Mülkiyyət Hüquqları Agentliyinin rəsmiləri Natiq İsayev və Elnur Məmmədli, Mədəniyyət Nazirliyi idarəsinin əməkdaşı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, musiqişünas Səadət Təhmirazqızı və b. iştirak edərək, mövzuya dair yeni faktlar göstəriblər, maraqlı çıxışlar ediblər.

Bütün çıxışlarda Azərbaycan musiqi mədəniyyəti ətrafında milli həmrəylik, elmi obyektivlik, erməni vandalizminə qarşı ifşaedici mövqe sərgiləndi, bu istiqamətdə təkliflər irəli sürüldü, layihəyə və konfransdakı məruzələrə dəstək nümayiş olunub.

Konfransda video formatında musiqi nümunələri də səslənib. Layihənin rəhbəri, gənc bəstəkar İlahə İsrafilova (İlahə Qismət) Qazaxıstanın məşhur "Nomad" folklor ansamblının müşayiəti ilə "Sarı gəlin" xalq mahnısını oxuyub.

Beynəlxalq müsabiqə laureatı Fəqan Həsənli fortepiano üçün işlənilmiş xalq rəqslərini, gənc ifaçılar (tar və fortepiano) F.Əmiovun məşhur "Kor Ərəbin mahnısı"nı təqdim ediblər. Konsertin proqramı erməni plagiatına məruz qalmış milli musiqi nümunələrindən təşkil olunub.

Sonda beynəlxalq konfransın iştirakçıları tərəfindən bəyanat qəbul edilib. Dünyanın musiqi ictimaiyyətinə ünvanlanan bəyanatda ermənilərin Azərbaycan ərazilərini işğal etməsi, dinc əhaliyə atəş açması, Azərbaycan musiqisinə qarşı plagiatlıq əməlləri, milli mədəniyyətimizi mənimsəmələri faktları pislənilib. Beynəlxalq konfrans dünya musiqiçilərini ermənilərin anti-humanist fəaliyyətinə qarşı birgə fəaliyyətə səsləyib.

# "Mənim yay tətilim-2020" Uşaq Rəsm Müsabiqəsinə qeydiyyat başa çatıb

Mədəniyyət və Təhsil nazirlikləri, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti, Xətai İcra Hakimiyyəti, Azərbaycan Rəssamlar İttifaqı, Naxçıvan Rəssamlar Birliyinin dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə "Könüllülər ili" çərçivəsində rəssamlıq istedadı olan məktəblilərin yay istirahətlərinin səmərəli keçməsi və tətil ərzində diqqətini çəkən hadisələri öz düşüncələri ilə tabloda əks etdirmək bacarıqlarını inkişaf etdirmək məqsədilə elan edilən "Mənim yay tətilim-2020" Respublika Uşaq Rəsm Müsabiqəsi başa çatıb.

Xətai Sənət Mərkəzi

Ümumilikdə müsabiqəyə Azərbaycanın müxtəlif guşələrindən iki yaş kateqoriyası üzrə-12 yaşa qədər və 12-17 yaşarası 600-ə yaxın uşaq və yeniyetmə əsər göndərib. Birinci turdan 280-dən çox əsər sərgilənmək üçün seçilmiş və seçilən işlərin müəllifləri diplomlar və fəal tədris mərkəzləri təşəkkürnamə ilə təltif olunacaqlar.




# "Yenə o bağ olaydı" səyyar sərgisi davam edir

***"YARAT" Müasir İncəsənət Məkanının Xaçmaz rayonunda incəsənət həvəskarları üçün təşkil etdiyi "Yenə o bağ olaydı" adlı səyyar sərgisinin vaxtı uzadılıb.***

Sərgi ziyarətçilər üçün noyabrın 27-dək açıq qalacaq. Sərginin ekspozisiyasında rəssamlar Ağababa Bağırov, Etibar İsmayılov, Günay Əliyeva, Mousa Bəyzadə, Nəzrin Məmmədova, Vüsalə Ağarazıyeva, Leyli Qafarova kimi gənc sənətçilərin və tanınmış italiyalı rəssam Mikelancelo Pistolettonun əsərləri təqdim olunur. Bununla yanaşı, sərgi Ruslan Abbasov, Günel Axundlu, Rəna Bəşirova, Timo Herbst, Orxan Hüseynov, Mersedes Şturm-Li və Fərid Rəsulovun əsərlərini özündə ehtiva edən videoskrininq proqramı ilə müşayiət olunur. Həmçinin "YARAT" "Nargis Magazine" ilə birgə əməkdaşlıq çərçivəsində "Recycle Project" (2019) layihəsinə daxil olan "Pablik art" proqramını təqdim edir. Burada Rəşad Ələkbərovun "Reuse, Reduce, Recycle" installyasiyası nümayiş olunur.

# "Qarabağın döyünən ürəyi - Şuşa" adlı videoçarx hazırlanıb

***Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi igid, cəsur, müzəffər Azərbaycan əsgərlərinin uğurları ilə fəxr edir və qürur hissi duyur. Kitabxananın İnformasiya-resurs şöbəsi azad edilmiş torpaqlar haqqında informasiya videoçarxları hazırlamağa mütəmadi olaraq davam edir.***

İdarədən "Unikal"a bildirilib ki, "Qarabağın döyünən ürəyi - Şuşa" adlı hazırlanan videoçarxda ilk olaraq Şuşa şəhərinin azad olunma tarixi verilir, daha sonra Şuşa haqqında ümumi informasiya çatdırılır.

Videoçarxda Şuşanın gerbi, iqtisadiyyatı, relyef və geologiyası, iqlimi, etimologiyası, dini, kino səhnəsi və kitabxanaları haqqında məlumat da nümayiş edilir.

Şuşa şəhəri haqqında informasiya ilə yanaşı, tarixi fotolarda videoçarxda göstərilir.

Videoçarxda, həmçinin tanınmış şəxsiyyətlər haqqında qısa məlumat verilib və həmin şəxsiyyətlərin fotoları təqdim olunub.

Videoçarxda müşayiət olunan "Şuşanın dağları" mahnısının ifası xanəndə Xan Şuşinskiyə məxsusdur.

Təşəkkür edirik Ali Baş Komandan!

İgid Vətən oğulları Sizinlə fəxr edirik!

# "Oğlum və kürəkənim cəbhədədir" - Əməkdar artist

***Əməkdar artist Nuriyyə Hüseynovanın həkim oğlu ön cəbhəyə yollanıb.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, aktrisa bu haqda "Gündən-günə" proqramında deyib. O bildirib ki, övladı hazırda vəzifə borcunu orada yerinə yetirir:

"Oğlum həkim və cərrahdır. O Bakıda işləyirdi. 10 gün əvvəl ön cəbhəyə yollandı. Dedi ki, orada bizim igid qəhrəmanlarımız döyüşür, onlara kömək lazımdır. Onlar buradakı xəstəxanalara çatdırılana qədər qanaxmadan vəfat edə bilərlər. Ona görə də mən orda olub onlara kömək etməliyəm".

N.Hüseynova deyib ki, hazırda ön cəbhədə kürəkəni və iki bacısının oğlu da var: "Biz onlar üçün narahatıq. Lakin eyni zamanda torpaqlarımız işğaldan azad olunduğu üçün sevinirik. Sadəcə onu demək istəyirəm ki, mənim və xalqımızın qəhrəman oğulları tək analarının deyil, onlar bu vətənin də övladlarıdır. Onların borcudur ki, vətənin dar günündə yanında olsunlar. Mən onları Allaha əmanət edirəm".

# Bu tərəvəzin suyu saçların tökülməsinin qarşısını alır

*Bir çoxlarınız qoca nənələrinizdən soğan suyunun saçlara olan faydası haqqında yəqin ki,eşitmisiniz. Soğan suyu saç köklərini möhkəmləndirərək onların tökülməsinin qarşısını alır.-Soğan suyu saç dərisini problemlərini də həll edərək tük köklərini möhkəmləndirir və saçların uzanmasına səbəb olur.Saç tükü xaricdən keratinlə örtülən və proteinləri ilə saçı gücləndirən maddələrdən ibarətdir.*

38 saçqıranı olan adam üzərində aparılan araşdırmalar zamanı gündə 2 dəfə saçqıran olan nahiyəyə soğan suyu sürtən adamların saçqıran probleminin həll edildiyi qeyd edilmişdir.

Soğan suyunun faydaları haqqında bir çox ölkələrin dermotoloji jurnallarında da məqalələr çap edilmişdir.Məqalələrdə saçların ağarmasında saç köklərində yığılıb qalan hidrogen peroksid maddəsinin səbəb olduğu barədə yazılar da dərc olunub.Yazılarda saçların ağarmasında tüklərin dibində olan katalaz maddəsinin az olduğunun da rolu olduğu qeyd edilir.Katalaz saçların ağarmasının qarşısını almaqla yanaşı,tükləri də qalınlaşdırır.Katalazın əmələ gəlməsində isə soğan suyu mühüm rol oynayır.Buna görə də mütəxəssislər soğan suyunun saçların ağarması prosesini ləngitdiyini,saçları möhkəmlətdiyini və uzanmasına səbəb olduğunu söyləyirlər.

Soğan suyu antibakterial təsirə malik olduğu üçün saç dərisindəki infeksiyaların da sağalmasına səbəb olduğuna görə bir çox dermatoloqlar saç problemləri olan xəstələrə soğan suyudan istifadə etməyi tövsiyə edirlər.

# Özünəheyran insanlar necə olur?

*Bu söz insanın xarakterinə uyğun olaraq ona verilən bir ifadə tərzidir və psixoloji bir vəziyyət hesab edilir.Bu xarakterə malik olan insanlar özlərini hamıdan çox sevir,ətrafdakıların yanlız onlar barədə danışmasını və diqqət mərkəzində olmağı çox sevirlər.Belə adamlar ətrafdakıların haqqlarını və söyləyəcəklərini nəzərə almadan daima özlərini ön plana çəkməyi sevirlər və başqalarının hesabına da olsa irəli getməyi xoşlayırlar.Onlar həmişə pul,güc,işdə irəliləmək,-gözəllik və ideal sevgi barədə düşünürlər.Belələri qarşısındakı adam naminə heç nələrindən keçməzlər və onlar heç nədən doymazlar.*

Özünə heyran olan adamlar istədiklərinə çatmaq naminə ən yaxınlarının belə haqqına girir və onları saymır.Özlərinə yüksək qiymət vermə hissi o qədər gücü olur ki,belə adamlar sonunda depressiyaya düşürlər.Özünəheyran adamların əsas xüsusiyyətlərindən biri də onların yüksəliş naminə hər şeyi edə bilmələridir.Özünəheyran adamların əsas xüsusiyyətləri aşağıdakılardır:

- eqoist insanlar olurlar
- özlərini heç vaxt başqasının yerinə qoymazlar
- şöhrət,pul,yüksəlmək kimi xəyalları olur
- bacarıqlı insanlara kin və nifrət bəsləyirlər
- özlərini mükəmməl sanırlar,daima bu barədə düşünürlər

Özünə heyran olan insanlara qarşı çıxanda onlar qarşısındakını alçaltmağa çalışır,öz çıxarları üçün başqalarından istifadə edir,həmişə ətrafdakıların diqqətini öz üstlərinə çəkməyə çalışır,öz günahlarını boynuna almaz və özlərindən yüksəkdə duranlara qarşı nifrət hissi duyurlar.Onların həddindən artıq qürurlu olması və özlərini mükəmməl hesab etməsi belə insanları ətraf mühitdən uzaqlaşmasına səbəb olur.-Belə insanlar ətrafdakılarla ünsiyyətə girməkdə çətinlik çəkir və hər şeyə haqqları olduğuna inanırlar.

Əslində bu davranış pozğunluğu uşaq yaşlardan inkişaf etməyə başlayır.Yəni uşaq yaşlarında yaşıdlarının oyuncaqlarına inadla sahib olmaq istəyən,daima diqqət mərkəzində olmağı xoşlayan uşaqlar böyüdükcə daha da özlərini sevən olur.Belə uşaqlar əksər vaxt yalan danışır və ətrafdakılara yalançı və günahkar kimi saldırır.

Mütəxəssislər azyaşlı övladında yuxarıda sadalanan davranış pozğunluqlarını hiss edən valideyinləri psixoloqa müraciət etməyə çağırır və övladının gələcəkdə düzgün xarakterli birisi olması üçün daima onlarla əlaqədə olmağı məsləhət bilir.

# Bu 15 əlamət sizin xəstə olmağınızın göstəricisidir

*İnsan orqanizmi çox mürəkkəbdir. Orqanizmdə hər saniyə müxtəlif proseslər gedir və bəzən biz özümüzə lazimi qədər zaman ayıra bilmirik. Hətta bəzən elə patologiyalar meydana gəlir ki, biz həkimə müraciət etdikdə iş-işdən keçmiş olur. Amma bəzi əlamətlər vardır ki, onlar insan bədənində olan xəstəliklərin ilkin siqnalları sayılır. Bu siqnallar hansılardır?*



**1. Dərinin quruluğu.**
Bu orqanizmdə E vitamininin çatışmamazlığının göstəricisidir. Dəridə quruluq olduqda çoxlu miqdar qoz, balıq yağı və bitki yağları qəbul etmək lazımdır.

**2. Saçların tökülməsi və keyfiyyətsiz dırnaqlar.**
Bu orqanizmdə B qrup vitaminlərin və kalsiumun çatışmazlığının göstəricisidir. Bu zaman buğda, arpa və dənli bitkilərdən hazırlanmış şorbalar və çörək yemək lazımdır.

**3. Diş əti qanamaları.**
Bu orqanizmdə C vitamini çatışmazlığı olduğu zaman baş verir. C vitamini ən çox soğanda, sarımsaqda, sitrus meyvələrdə və tərəvəzlərdə olur. Mütəxəssislər diş ətində qanaxmalar olan adamlara bu qidalardan çox istifadə etməyi məsləhət bilir.

**4. Əsəbilik və yuxusuzluq.**
Bu kalium və maqniumun çatışmazlığından xəbər verir. Bu mikroelementlər isə qaysıda, ərikdə, qara gavalıda və çuğundurda olur.

**5. Əzələlərdə gecələr baş verən qıcolmalar.**
Bu orqanizmdə kaliumun və kalsiumun çatışmazlığını bildirir.

**6. Qaz dərisinə bənzər dəri.**
Bu əlamət orqanizmdə A və C vitamininin olmamasının göstəricisidir. Bu əlaməti aradan qaldırmaq üçün narıncı rəngdə olan meyvə və tərəvəzlərdən istifadə etmək lazımdır. Bu meyvə-tərəvəzlərə yerkökü, balqabaq, şaftalı, qaysı, pomidor və s. aiddir.

**7. Duzlu qidalara meyl etmə.**
Orqanizmdə iltihabi proseslər olduqda turşuya meyillik yaranır.

**8. Şirniyyata meyl etmə.**
Bu orqanizmdə enerji çatışmazlığı və sinir sistemində gərginlik olan zaman baş verir. Şirniyyata meyillilik hiss edildiyi zaman mütəxəssislər hər səhər yeməyi zamanı 1 xörək qaşığı bal və ya tünd şokolad yeməyi tövsiyə edirlər.

**9. Atışdırmalıq qida istəyi.**
Bu istək qaraciyər və mədə-bağırsaq xəstəlikləri zamanı baş verir. Atışdırmalıq qida mədə spazmını aradan qaldırır və mədəni sakitləşdirir.

**10. Qidaya olan həvəsin azalması.**
Bu depressiya hallarında baş verir.

**11. Tum çırtlamağa olan həvəsin artması.**
Bu orqanizmdə antioksidantların çatışmazlığının göstəricisidir.

**12. Turş qidalara meyilliyin olması.**
Orqanizm özü qaraciyərin və öd kisəsinin fəaliyyətini stimulyasiya etmək istədikdə turşu tələb edir. Bu zaman insanlar limon və digər turş qidaları yeməyə həvəsli olur.

**13. Tünd qidalara meyilliyin olması.**
Bu mədə-bağırsağın təmizlənməyə ehtiyacı olduğunun göstəricisidir. Belə olduqda mədə-bağırsağı təmizlətmək lazımdır.

**14. Kəskin qidalara meyilliyin olması.**
Kəskin qidalar həzmi normallaşdırır, stimulyasiya edir. Mütəxəssislər kəskin qidalardan acqarına istyifadə eməyi məsləhət bilmir.

**15. Dəniz məhsullarına meyilliyin olması.**
Dəniz məhsullarına meyilliliyin artması orqanizmdə yod çatışmazlığının göstəricisidir.

# Mədəciklərarası çəpərin cırılması

*Mədəciklərarası çəpərin cırılması miokard infarktı keçirmiş xəstələtin 3%-də müşahidə edilir.Bu diaqnozu daşıyan xəstələrin arasında yaşlılar və qadınlar üstünlük təşkil edirlər.*

Mədəciklərarası çəpərin cırılması transmural miokard infarktının ağırlaşmasıdır.Xəstəlik əsasən ön və ön-yan miokard infarktı zamanı müşahidə olunur.Ağırlaşmaya aparıb çıxaran risk faktorlarından biri arteral təzyiqin yüksək olmasıdır.Adətən stenokardiyalı xəstələrin anamnezində bu ağırlaşmaya rast gəlinmir.Mədəciklərarası çəpərin,papilyar əzələlərin və sol mədəciyin sərbəst divarının zədələnməsi eyni zamanda baş verən patolojiyadır.Mədəciklərarası çəpərin cırılması bir koronar damarın çökməsi olan xəstələrdə baş verə bilir,amma bu zaman birneçə koronar arteriyanın zədələnməsi müşahidə olunur.



Mədəciklərarası çəpərin cırılmasının 2 forması ayırd edilir:
- sadə forma
- mürəkkəb forma

Mədəciklərarası çəpərin sadə cırılmasında apikal hissədə defekt yaranır ki,bunun nəticəsində ürəyin mədəciyi təxminən hər iki tərəfdən açıq qalır.

Mürəkkəb cırılma zamanı nekrozlaşmış toxuma qatından burulmuş müxtəlif istiqamətli kanallar əmələ gəlir ki,bu da massiv qanaxma mənbəyi sayılır.Mürəkkəb cırılma adətən çəpərin bazal hissəsində baş verir.

Mədəciklərarası çəpərin cırılması aşağıdakılara səbəb olur:
- kardiogen şok
- ciyər ödemi
- sağ mədəcik çatışmazlığı simptomu
- sistolik küyün yaranması

Xəstəliyə diaqnoz qoymaq üçün EKQ və exokardioqrafiyanın nəticələri əsas götürülür.

Müalicə medikamentoz aparılır.Bütün hallarda çəpərin tamlığı bərpa olunmalı və koronar şuntlama aparılmalıdır.

# Tbilisidə federasiya nümayəndələri ilə azarkeşlər arasında dava düşüb

***Gürcüstan Futbol Federasiyasının (GFF) binası qarşısında gənclər təşkilatlarının nümayəndələrinin aksiyasında dava-dalaş düşüb.***

”Unikal” qəzeti xəbər verir ki, aksiyaçılar Gürcüstan və Şimali Makedoniya yığmaları arasındakı qarşılaşmadan sonra azarkeşin cərimələnməsinə etiraz ediblər.

Gənclər aksiyanın sonunda GFF ofisinə Corc Oruellin “Heyvanxana” əsərini və boşalmış futbol topunu veriblər.



Dava-dalaş bir neçə dəqiqə davam edib. Aksiya iştirakçıları federasiya nümayəndələrini güc tətbiqində ittiham ediblər.

Qeyd edək ki, Tbilisidə keçirilmiş AVRO-2020-nin pley-off mərhələsinin final oyununda Gürcüstan millisi Şimali Makedoniyaya 0:1 hesabı ilə məğlub olub və qitə çempionatında iştirakdan məhrum olub.

Oyun saat 22:00-dan sonrayadək davam edib. Bu saatda isə Tbilisidə hərəkət məhdudlaşdırılır. Azarkeşlərdən biri oyundan sonra evinə qayıdarkən polis tərəfindən cərimələnib.

# Hidayət Heydərov koronavirusa harada yoluxub?- Federasiyadan açıqlama

***”Oktyabrın sonlarında Macarıstanda cüdo üzrə Böyük Dəbilqə yarışı oldu. Həmin yarışda millinin digər üzvləri kimi Hidayət Heydərov da iştirak etdi. Həmin ölkəyə yollanmamışdan əvvəl Heydərovun verdiyi testin nəticəsi mənfi oldu. Bu səbəbdən o, paytaxt Budapeştə yollandı”.***

”Unikal” qəzeti xəbər verir ki, bu fikirləri Azərbaycan Cüdo Federasiyasının baş katibinin müavini Elnur Əşrəfoğlu Hidayət Heydərovun koronavirusa yoluxmasına münasibət bildirərkən deyib.

Federasiya rəsmisi bildirib ki, cüdo yarışlarında koronavirus pandemiyası ilə bağlı məsələlər tam ciddidir: ”İdmançılar ölkəyə daxil olanda da testdən keçirlər. Nəticə məlum olmamış heç kim oteldən buraxılmır. Məlum olduqdan sonra da yalnız yarış yerinə, oradan isə otelə qayıdırlar. Nəinki idmançılar, nümayəndələr də şəhərə buraxılmır. Həmin vaxtda da cüdoçunun testi mənfi oldu və Hidayət yarışa qatıldı. Ölkəyə qayıdan zaman verdiyi testindən isə koronavirus çıxmadı. Yəni ölkədən gedəndə, qayıdanda və yarış vaxtı bütün testin nəticələri mənfi idi”.



Əşrəfoğlu millinin yarışdan sonra 4 günlük istirahətə buraxıldığı müddətdə Heydərovun virusa yoluxduğunu söyləyib: ”Nə baş veribsə, həmin 4 gündə olub. Biz Bakıda cüdoçulardan federasiyanın təşəbbüsü ilə əlavə testlər götürdük. Bu isə Avropa çempionatına hazırlıqla bağlı idi, komandanı bir yerə toplayırdıq. Həmin vaxt artıq testin nəticəsi müsbət idi. İdmançı dərhal təcrid edildi. Hazırda öz evində müalicə alır və məşqlərdən kənarlaşdırılıb. Avropa çempionatı üçün açıqlanan heyətə salınmayıb”.

Fedasiyası rəsmisi deyib ki, nəinki idmançılar, hamı koronavirusdan özlərini qorumalıdır: ”Məsuliyyət insanın özündə olmalıdır. Özünü qoruyacaqsansa və deyilənlərə əməl edəcəksənsə, koronavirusdan uzaqlaşacaqsan. Hidayət 73 kq çəki dərəcəsində milli komanda üçün uğurlar qazanıb və hazırda çəkisini dəyişərək 81 kq-da çıxış edir. Həmin çəkidə Murad Fətiyev reytinqə görə Heydərovdan irəlidə olduğu üçün Çexiyanın paytaxtı Praqadakı Avropa çempionatında Azərbaycanı təmsil edəcək. Hidayətə Allahdan şəfa diləyirik. Bu gün yenidən test verəcək. İnanırıq ki, testin nəticəsi mənfi olacaq. Amma bütün qaydalara riayət ediləcək və deyildiyi qədər komandadan uzaq tutulacaq, məşqə və heyətə buraxılmayacaq”.

Qeyd edək ki, Hidayət Heydərovdan noyabrın 2-də götürülmüş testin nəticəsi müsbət olub.

# Rusiyalı futbolçu 12 illik həbs cəzası aldı

***Rusiyanın ”Rubin” klubunun sabiq futbolçusu Sergey Xarlamov həbs olunub.***

”Unikal” qəzeti TASS-a istinadən xəbər verir ki, 47 yaşlı keçmiş müdafiəçi dələduzluğa görə 12 il müddətinə azadlıqdan məhrum edilib.

Onun Rusiyanın ən böyük maliyyə piramidalarından sayılan KPK ”Rost” mütəşəkkil cinayətkar qrupunun tərkibində olması sübuta yetirilib.

2018-ci ilin sentyabrında Tatarıstan Prokurorluğu maliyyə piramidasının təşkili ilə bağlı cinayət işi üzrə ittiham aktını təsdiqləyib. İstintakın rolu və dərəcəsindən asılı olaraq, yeddi nəfər cinayət törətməkdə ittiham olunub.

Qeyd edək ki, ”Rubin”in yetirməsi Sergey Xarlamov əsas komandanın kapitanı da olub.



O, 1992/1993 mövsümündə və 1997 - 2004-cü illərdə komandanın formasını geyinib.

# “Qalatasaray”ın futbolçusunda koronavirus aşkarlandı

***Türkiyənin “Qalatasaray” klubunun bir futbolçusunda koronavirus aşkarlanıb.***

”Unikal” qıəzeti xəbər verir ki, bu barədə Super Liqa təmsilçisinin mətbuat xidməti məlumat yayıb. Xəbərdə, ölkəsində milli komandasının düşərgəsində olan bir futbolçuda koronavirus aşkarlandığı bildirilib, oyunçunun adı isə açıqlanmayıb.

# “Barselona”da prezident seçkilərinin vaxtı açıqlandı

***İspaniyanın “Barselona” klubunda prezident seçkiləri keçiriləcək.***

”Unikal” qəzeti xəbər verir ki, bu barədə “Marca” nəşri məlumat yayıb. Xəbərdə, seçkilərin 2021-ci il 24 yanvarda gerçəkləşəcəyi bildirilib.

“Barselona”da ötən ay klubun prezidenti Xosep Bartomeu istefa verməşdi. Hazırda bu vəzifəni müvəqqəti olaraq Karles Tuskets icra edir.

# İngiltərə millisində ciddi itki - heyətdən çıxarıldı

***UEFA Millətlər Liqasında Belçika və İslandiya ilə qarşılaşacaq İngiltərə yığması ciddi itkiylə üzləşib.***

”Unikal” qəzeti xəbər verir ki, millinin hücumçusu Markus Reşford zədələnib. Bu barədə yığmanın mətbuat xidməti məlumat yayıb. Reşford İngiltərə millisinin heyətindən çıxarılıb.

“Mançester Yunayted”in “Everton”la qarşılaşdığı matçda (3:1) zədələnən Reşfordun yığmanın oyunlarına qədər sağalacağı gözlənilirdi. İngiltərə millisinin həkimləri hücumçunun sağalma prosesinin ləng getdiyinə görə onun qarşıdakı oyunlarda iştirak etməməsinə qərar verib.

İngiltərə millisi noyabrın 15-də Belçika, 18-də isə İslandiya ilə qarşılaşacaq.

# Braziliya millisində Neymar şoku



***DÇ-2022-nin seçmə mərhələsində Venesuela və Uruqvayla qarşılaşacaq Braziliya yığması ciddi itkiylə üzləşib.***

”Unikal” qəzeti xəbər verir ki, Neymar, zədə səbəbindən qarşıdakı iki oyunu buraxacaq. Bu barədə Braziliya Futbol Konfederasiyasının mətbuat xidməti məlumat yayıb. Neymar yığmanın heyətindən çıxarılıb.

PSJ-də forma geyinən Neymar, Çempionlar Liqasının qrup mərhələsinin 3-cü turunun “Başakşəhər”lə matçında (2:0) zədələnmişdi. Braziliya millisi noyabrın 14-də Venesuela, noyabrın 18-də isə Uruqvayla qarşılaşacaq.

# Federasiya prezidenti millinin oyunu zamanı həbs olundu

***Boliviya Futbol Federasiyasının müvəqqəti prezidenti Markos Rodriges həbs olunub.***

”Unikal” qəzeti ”Associated Press”ə istinadən məlumatına görə, hadisə milli komandanın DÇ-2022-nin seçmə mərhəsinin Ekvadorla oyunu (2:3) zamanı baş verib.

Cari ilin iyul ayından bu postu tutan funksioner korrupsiyada ittiham olunur.

Qeyd edək ki, Rodriges federasiyanın sabiq prezidenti Sesar Salinasın koronavirus səbəbindən dünyasını dəyişməsindən sonra bu vəzifəyə təyin olunub.

Səhifəni hazırladı: Aygün İlqarqızı

# "Müğənni peşəsi də yox olsaydı, rahatlaşardınız" - Natavandan tənqidlərə cavab



***”Razıyam, başa düşürəm, müğənnilərin efirə çıxması yaxşı görsənməyə bilər. Özüm heç evimizin qapısından çıxmıram, qaldı efir olsun. Bu günləri çox narahat keçirirəm. İşlərimin hamısı dayanıb. Qətiyyən o hayda deyiləm”.***

“Unikal” axşam.az-a istinadən bildirir ki, bu sözləri müğənni Natavan Həbibi sosial şəbəkədə yazıb. Sənətçi müğənnilərin efirə çıxmasını tənqid edənlərə cavab verib: ”Dünyada heç bir müğənni televiziyanın dəvəti və senarisi olmadan efirə çıxa bilməz. Müğənnilərin və incəsənət adamların 90 faizi televiziyadan dəvət gələn halda ”yox gəlmirəm” sözünü deyə bilmir, demir, demək istəmir, deməyə haqqı yoxdur bəzən...

Bütün məsələlər düzəldi, bir müğənnilik də peşə olaraq yox olsaydı, rahat olardı çoxu. Yazıq müğənni vətənə faydalı olmaq üçün nə etsin görəsən? Pulu olan pulu ilə əlindən gələni edir. Halbuki dövlətin ona ehtiyacı yoxdur. Pulu olmayan, bir ildir bir manat qazanc görməyən müğənni nə etsin? Efirə də çıxmasın, səsini də çıxartmasın, ordan da yolu bağlansın, münasibətlər korlansın və sair...

Problem bizim bir-birimizə olan sayqı və hörmətdədir. Birlik deyirik. Bəs müğənni də bizimkidir axı. Yaxşısı, pisi hamısı bizimdir. Dünya bizi izləyir indi. Vaxtidir heç bu söhbətlərin? İnsanın işi mahnı oxumaqdır. Dərin getməyin. Dövlətin telekanalına dəvət alıb gəlibsə, deməli belə lazımdır. Məncə, bitirək bu mövzuları. Bilib bilmədən danışmaq asandır. Reallıq bəzən heç bir müğənnidən asılı olmaya da bilir”.

# "Anam iyləyib atdı ki, bu bənövşə Şuşadan gəlməyib" - Xalq artistinin xatirələri



***”Gözümü bağlayın, gedib Şuşada uçmuş evimizi taparam. Hər yeri tanıyıram. Şuşa qollarını açıb, bizim hamımızı bağrına basmaq istəyir. Bizə həsrət qalıb, biz ona qaldığımız kimi”.***

“Unikal” axşam.az-a istinadən bildirir ki, bu sözləri Xalq artisti Firəngiz Mütəllimova ”Vaxtı gəldi” proqramında deyib. Aktrisa Şuşaya gedəcəyi günü səbirsizliklə gözlədiyini bildirib:

”Ermənilər evimizi uçurdub, həyətimizi ot basıb. Qədim ev idi, elə bil muzey idi. Evimizin indi ancaq divarı qalıb. Şuşada olanda pulumu yığırdım, gedib bazardan açıqcalar alırdım. Bilmirdim ki, gün gələcək Şuşa bazarında mənim fotolarım satılacaq. Gedib Xan qızı Natavan bulağından su daşıyırdım, qar olurdu yıxılırdım. Razıyam yenə yıxılım, gedib oradan su daşıyım. İstəmirəm ki, 1 santimetr torpağımız da düşməndə qalsın.

O vaxtlar gözləyirdik ki, yayda Flora Kərimova gəlib keçəcək, ona baxaq. Gəlib keçirdi, yığışıb ona baxırdıq. Anam xəstə olanda ona bənövşə gətirdik ki, Şuşadan gəlib. İylədi atdı ki, Şuşadan deyil. Orada hər gülün qoxusu fərqli idi. Qəribədir, orada güllərin ətiri başqa idi. Şuşada ayda bir dəfə toz silərdik, olmurdu. Şuşada yağan qardan heç yerdə görmədim”.



# Flora Kərimovadan qələbə sevinci

***“Paşinyanın ağlı olsaydı öz millətinin əlində parça-parça olmazdı. Ölümünü asta-asta seçməzdi, gülləni çaxardı başına, vəssalam”.***

“Unikal” xəbər verir ki, bu sözləri Xalq artisti Flora Kərimova Qələbə münasibəti ilə yenisabah.az-a danışarkən bildirib. Xalq artisti daha sonra sevinc göz yaşları içərisində aşağıdakıları qeyd edib: ”Əsrlərdir Azərbaycanı dünya öz fantaziyasına uyğun təsəvvür elədi. Bizim haqqımızda deyirdilər ki, alverçidirlər, amma erməni xalqı döyüşçüdür. Qurban olum Allaha, sən demə, bizi arxasınca çağıran bir insan lazım idi. Allah Ali Baş Komandanı bizə çox görməsin. Televizorda onun çıxışlarını izləyirdim, yumruğunu qaldırırdı, az qalırdı televizorun şüşəsini sındırsın, qürur duyurdum. Onun ”Qarabağ bizimdir” ifadəsi şüara döndü, hər birimizin içində yatan o qəhrəmanı oyatdı. Mən düşünürəm ki, Ali Baş Komandan Milli Qəhərəman adına layiq görülməlidir. Hər bir millətin başında onu öz arxası ilə aparmağı bacaran bir nəfər durmalıdır. O öz yumruğu ilə düşmənə səslənirdi, onun arxası ilə də canavarlar irəli gedirdi. O, adını tarixə yazdırdı. O bizi qələbəyə apardı, həm də başımızı uca edən şərtlərlə. Biz bir şərtdə belə uduzmadıq. Hətta Naxçıvana da yol açdıq, onlara göz dağı verdik!”

Xalq artisti qeyd edib ki, qarşıda Azərbaycanı xoş, Ermənistanı isə ağır günlər gözləyir: ”Paşinyan öz əməllərinin cəzasını çəkəcək. Bu məğlubiyyət ona baha başa gələcək. Paşinyanın kişiliyi çatsaydı, başına güllə çaxardı”.

# Zülfiyyə Xanbabayeva: “Biz əmin idik ki, torpaqlarımız bir gün işğaldan azad olunacaq”

***Şuşa bizim Üzeyir Hacıbəyov, Xan əmi deməkdir. Şuşa Azərbaycan üçün daha nələr-nələr ifadə edir, bunu ifadə etməyə kəlmələr yetməz.***



“Unikal” oxu.az-a istinadən xəbər verir ki, bu sözləri Xalq artisti Zülfiyyə Xanbabayeva AzTV-nin efirində yayımlanan ”Gün başladı” proqramında qonaq olarkən deyib.

Z.Xanbabayeva bildirib ki, 28 illik həsrət bitdi: ”İllərlə xalqımız Şuşanın həsrətində olub. Şuşamız qanı-canı bahasına şəhidlik zirvəsinə ucalan qəhrəman oğullarımız sayəsində bizimlədir. Allah ordumuzu qorusun. Şəhidlik zirvəsinə ucalan oğullarımızın analarının qarşısında baş əyirik. Bir gözümüz ağlayır, bir gözümüz gülür. Mən əminəm ki, şəhidlərimizin ruhu şaddır. Biz əmin idik ki, torpaqlarımız bir gün işğaldan azad olunacaq. Azərbaycan ordusunun qazandığı zəfərlərin ard-arda elan edilməsi xalqımıza sözün əsl mənasında xoş hisslər yaşatdı. Qürurluyuq, fəxr edirik”.